RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 220 (8243) ŞƏNBƏ, 5 oktyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İLHAM ƏLİYEV: QARABAĞ AZƏRBAYCANDIR NİDA

## Azərbaycan Prezidentindən Ermənistana növbəti siyasi-diplomatik zərbə

**Soçidə keçirilən “Valday” Beynəlxalq Diskussiya Klubunun plenar sessiyasının ən yaddaqalan məqamı sözsüz ki, İlham Əliyevin çıxışı oldu. Ona görə ki, bu çıxış Azərbaycan Prezidentinin Ermənistana vurduğu növbəti siyasi-diplomatik zərbə kimi tarixə düşdü. Bununla həm də Ermənistanın beynəlxalq səviyyədə ifşası istiqamətində növbəti uğurlu addım atıldı.**

### Məğlub olan əslində Ermənistandır

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən danışan Prezident İlham Əliyev Ermənistanın işğalının nəticələrinə diqqət yetirdi, BMT Təhlükəsizlik Şurasının münaqişənin nizamlanmasına dair qəbul etdiyi 4 qətnamənin 25 ildən çoxdur yerinə yetirilmədiyini vurğuladı: “BMT Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib. İyirmi beş ildən çoxdur ki, bu qətnamələr yerinə yetirilmir. Burada biz mühüm məsələyə - qəbul olunmuş qərarların yerinə yetirilməsinə gəlirik. BMT Təhlükəsizlik Şurası ali beynəlxalq orqandır. Əgər 25 ildən çox müddətdə Təhlükəsizlik Şurasının qəbul etdiyi qərarlar yerinə yetirilmirsə, onda bu, həmin təşkilatın səmərəliliyi ilə bağlı bir çox suallar doğurur. Azərbaycanda bizi qətnamələrin yerinə yetirilməsinin reallaşdırılmasının seçmə xarakteri narahat edir. Bəzən onlar bir neçə gün ərzində yerinə yetirilir, bəzən isə müəyyən hərbi əməliyyatların həyata keçirilməsində onlara, ümumiyyətlə, ehtiyac qalmır. Bizimlə bağlı məsələdə isə qətnamələr kağız üzərində qalır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, BMT-nin bütün dünya tərəfindən qəbul edilmiş Nizamnaməsi, BMT Təhlükəsizlik Şurasının qətnamələri və Helsinki Yekun Aktı çərçivəsində həll olunmalıdır”.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün hüquqi və siyasi addımlar beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinə, ATƏT-in, Avropa Şurasının və digər beynəlxalq təşkilatların müvafiq sənəd və qərarlarına əsaslanır. Lakin Minsk qrupu vasitəsilə aparılan sülh danışıqları 1994-cü ildəki atəşkəs razılaşmasından bəri nəticəsiz qalır. Bu təşkilatların müvafiq sənədlərində işğalçı qoşunların Azərbaycan Respublikasının işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb edilsə də, Ermənistan bütün dünyanın gözü qarşısında buna məhəl qoymur.

Sülh danışıqları isə ilk vaxtlardan beynəlxalq əhəmiyyət kəsb etməyə başlayıb. 1994-cü ildən başlayaraq problemin həlli ilə bağlı bir neçə variant nəzərdən keçirilib. Amma bütün həll variantları məhz Ermənistanın qeyri-konstruktiv mövqeyi ucbatından alınmayıb. Azərbaycan problemin həllinə dair vasitəçilərin təqdim etdiyi variantlara müsbət yanaşsa da, Ermənistan bunu etməyib və həm birbaşa, həm də dolayısı regiondakı status-kvonun dəyişməz qalmasına çalışıb.

Ardı 6-cı səh.

# Azərbaycanın beynəlxalq mövqeləri möhkəmlənir

### Soçidə “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyası keçirilib

### Prezident İlham Əliyev sessiyada iştirak edib







**Xəbər verildiyi kimi, oktyabrın 3-də Rusiya Federasiyasının Soçi şəhərində “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyası keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sessiyada iştirak edib.**

“Valday” Beynəlxalq Diskussiya Klubu 2004-cü ildə yaradılıb. Klubun ilk konfransı Rusiyanın Veliki Novqorod şəhərində, Valday gölünün sahilində keçirilib. Elə klub adını da buradan götürüb. Ötən illər ərzində dünyanın aparıcı ekspertlərinin görüş yerinə çevrilən klub tədqiqatlarında qlobal siyasət və iqtisadi proseslərin araşdırılmasına xüsusi yer verir. İndiyədək klubun işində 74 ölkədən dünya elmi birliyini təmsil edən 1000-dən çox nümayəndə, həmçinin dövlət və hökumət başçıları iştirak edib. Onu da bildirək ki, digər ölkələrin rəhbərləri bu tədbirlərə məhdud sayda dəvət olunurlar.

Sessiyada əvvəlcə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin çıxış etdi.

### Prezident Vladimir Putinin çıxışı

- Zati-aliləri Kral Abdulla. Hörmətli İlham Heydər oğlu. Hörmətli Kasım-Jomart Kamaloviç. Hörmətli cənab Rodriqo Duterte. Dostlar. Xanımlar və cənablar.

Sizin hamınızı “Valday” klubunun Soçidə keçirilən illik iclasında salamlamağa çox şadam. Yaranmış ənənəyə görə biz bu məkanda cari siyasi problemləri, hətta diplomatik diskussiyaları da bir kənara qoymağa və tarixi, mədəni və fəlsəfi kontekstdə, necə deyərlər, “uzaq gələcəyə” baxmağa, onun konturlarını cızmağa çalışırıq.

Bu dəfə təşkilatçılar bizə həqiqətən tükənməz və mən deyərdim, çox maraqlı bir mövzu - Şərq mövzusu təklif ediblər. Dünyanın ən iri və əhalisi sıx olan qitəsi kimi Asiyanın dünya məsələlərində rolu. Rusiya ilə Asiya dövlətlərinin münasibətləri bizim üçün həmişə vacib olub və xüsusi əhəmiyyət kəsb edib, zənnimcə bu münasibətlər hamı üçün maraqlıdır.

Ardı 2-ci səh.

## Ermənilər sosial şəbəkələrdə od püskürdülər:

# “Nida nöqtəni əzdi!”

### “Sarkisyandan sonra Paşinyan da İlham Əliyev qarşısında daim məğlubdur, bizim nə vaxt qalib rəhbərimiz olacaq?”

**Daha bir mühüm beynəlxalq tribunadan Ermənistanın baş naziri Nikol Paşinyan işğal siyasəti və bunu dəstəkləyən açıqlamalarına görə layiqli cavabını aldı. Söhbət Prezident İlham Əliyevin Soçidə “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasındakı çıxışı zamanı Paşinyanın son aylarda sərsəmləmələrinə verdiyi layiqli və kəskin cavablardan gedir. Dövlət başçısının vacib bir tribunadan “Qarabağ tarixi əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi” fikirləri bir daha ölkəmizin sözügedən münaqişə ilə bağlı sərt mövqeyini ortaya qoydu.**

**Məhz bu çıxışında Prezident İlham Əliyevin Qarabağla bağlı qətiyyətli mövqeyi Nikol Paşinyana, bütünlükdə erməni ictimaiyyətinə, həmçinin Ermənistanın havadarlarına olduqca layiqli bir cavab oldu. Bu hadisə Ermənistanda artıq ciddi ajiotaj doğurdu və işğalçı ölkədə Paşinyanın layiqli sərt cavab aldığını söylədilər. Bunu sosial şəbəkələrdən də aydın sezmək olar. Burada erməni istifadəçilər tərəfindən yer alan maraqlı status və şərhləri diqqətinizə çatdırırıq.**

### “Paşinyan İlham Əliyevə həmişə uduzur”

“Facebook” sosial şəbəkəsində Soçidə İlham Əliyevin çıxışı ilə bağlı xəbərə münasibət bildirən, profilinə baxdıqda müəllim olduğu nəzərə çarpan Lali Ovasanyan yazır ki, səsləndirilən düz fikirlər niyə bəzilərini narahat edir: “Biz yalan danışmırıq. Öz vətəndaş mövqeyimizi nümayiş etdiririk. Çəkinmədən fikrimi bildirirəm. İstəyirlər gəlib məni aparsınlar. Ünvanımı da yaza bilərəm. Sarkisyandan sonra Paşinyan da İlham Əliyev qarşısında daim məğlubdur, bizim nə vaxt qalib rəhbərimiz olacaq? Azərbaycan Prezidenti Ermənistanla kifayət qədər sərt tonda danışır, açıq şəkildə bildirir ki, Ermənistanın sarsıdılması prosesi Qarabağ münaqişəsi həll olunmayana qədər davam etdiriləcək. Amma hakimiyyətə gəldikdən indiyə qədər Paşinyan buna qarşı hansısa tutarlı cavab verə bilməyib. Bu məsələdə o, Serj Sarkisyandan qətiyyən fərqlənmir”.

Ardı 6-cı səh.

# Dövlət başçılarının “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının iştirakçıları ilə qeyri-formal görüşü olub

**Oktyabrın 3-də Soçidə dövlət başçılarının “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının iştirakçıları ilə qeyri-formal görüşü olub.**

AZƏRTAC xəbər verir ki, Rusiya Prezidenti Vladimir Putin, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev və Azərbaycan Prezidenti İlham Əliyev görüşdə çıxış etdilər.

Prezident **Vladimir PUTİN** dedi:

- Hörmətli dostlar, xanımlar və cənablar, həmkarlar.

İcazə verin, sizin hamınızı qeyri-rəsmi şəraitdə bir daha salamlayım. Bu məkanda işə uzun illər boyu maraq göstər-




diyinizə görə sizə təşəkkür etmək istəyirəm. Mənim fikrimcə bu məkan yaxşı, davamlı format kəsb edib və mütəxəssislərin, özü də təkcə mütəxəssislərin yox, həm də, demək olar ki, geniş ictimaiyyətin layiqli hörmətini qazanmışdır.

Mənə belə gəlir ki, bu illər ərzində hətta müəyyən komanda yaranıb. Bu komanda çoxmillətli və sözün yaxşı mənasında, bizim xalqın dediyi kimi, müxtəliftərkibli, amma hər halda komandadır.

Mən həmkarlarıma - artıq burada olmayan, lakin o bilir, təşəkkür sözlərimi eşidib, İordaniya Kralına, Prezident Duterteyə, həmçinin burada iştirak edən Qazaxıstan və Azərbaycan prezidentlərinə ayrıca təşəkkürümü bildirmək istəyirəm. Sizin hamınızı salamlamaq üçün məmnuniyyətlə onlara söz verirəm.

Ardı 3-cü səh.

# Azərbaycanın beynəlxalq mövqeləri möhkəmlənir

## Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyası keçirilib

## Prezident İlham Əliyev sessiyada iştirak edib

*Əvvəli 1-ci səh.*

Asiya ilə bizim - Rusiyanın münasibətlərinin belə xarakteri təkcə bugünkü reallıqların tələbi deyil, tarixin tələbidir.

Hindistan və Çin, Misir və İran, Türkiyə və Yaponiya, Mərkəzi və Cənub-Şərqi Asiya ölkələri böyük və qədim sivilizasiyaların varisləridir, onlar bəşəriyyətə nadir biliklər və texnologiyalar, təbabət, riyaziyyat, mədəniyyət və incəsənət sahəsində nailiyyətlər bəxş ediblər.

Ziyalı, yaradıcı insanlar mühitində Asiya həmişə xüsusi duyğular oyadıb, bir qədər müəmmalı və mistik görünüb, bəlkə heç də həmişə sona qədər aydın olmayan, lakin hökmən maraq doğuran mənəvi qüvvə və müdriklik mənbəyi kimi məşhurlaşıb.

Rusiyada Şərqin əlvan rəngləri bizim neçə-neçə yazıçı, şair, rəssam, musiqiçi üçün ilham mənbəyi olub. Mən Puşkini, Rimski-Korsakovu, Arsenyevi, Vereşşagini, Kandinski və Rerixi nəzərdə tuturam. Bu adlar Rusiya auditoriyasına yaxşı məlumdur, özü də təkcə Rusiya auditoriyasına yox. Bu gün Asiya Məğribdən və Yaxın Şərqdən Şərqi və Cənub-Şərqi Asiyaya qədər bütün ucsuz-bucaqsız məkanda dünya məsələlərində onun böyük irsinə bugünkü, şübhəsiz böyük və artan potensialına uyğun təbii yerini özünə qaytarır.

Asiya dövlətlərinin mövqelərinin möhkəmlənməsi bütün sahələrdə nəzərə çarpır. Əlbəttə, xüsusən iqtisadiyyatda. Dünya üzrə məcmu məhsulun üçdəbir hissəsindən çoxu artıq bu regionda formalaşır. Həyat səviyyəsi də yüksəlir, dünya üzrə orta göstəricini aşır. Ən qabaqcıl texnologiyalar fəal tətbiq edilir. Əhatə dairəsinə görə misilsiz inteqrasiya prosesləri, qloballaşma həm ayrı-ayrı xarici oyunçuları, həm də onunla həmhüdud olan bütöv subregionları Asiyaya cəlb edir.

Asiya ölkələri sanballı tərəqqi nümunələri nümayiş etdirməklə bərabər, öz bənzərsizliyini saxlayır, ənənələrini qoruyur, öz köklərini xatırlayır və irəliyə doğru hərəkətində sübut edirlər ki, dövlət suverenliyi prinsipləri açıqlığa və qloballaşmaya zidd deyil, davamlı inkişaf müstəqillik və sərbəstlikdən imtina edilməsi əsasında deyil, onlara əsaslanaraq mümkündür, dövlətin artan iqtisadi və humanitar potensialı həm də siyasi subyektivlik tələb edir.

Qanunauyğun haldır ki, qloballaşmanın, texnoloji inqilabın bəhrələrindən, mənfəətlərindən müdrikliklə istifadə edən və iqtisadi liderlər sırasına daxil olan Asiya dövlətləri dünya siyasətində də daha mühüm rol oynamağa çalışırlar. Bu, tamamilə təbii prosesdir. Onlar beynəlxalq gündəliyin mühüm məsələləri barədə öz fikirlərini müdafiə edir, müstəqilliyin qədrini bilir və hesab edirlər ki, onların obyektiv artan təsiri tanınacaq. Bizim fikrimizcə bu, ədalətlidir və həm bugünkü, həm də gələcək reallıqlara tamamilə uyğundur.

Yeri gəlmişkən, vaxtilə Asiyanın belə adlandırılan oyanışı, region ölkələrinin milli və mədəni dirçəlişi beynəlxalq münasibətlərin demokratikləşməsində çox böyük rol oynayıb. Bu gün isə aşkar görünür ki, Asiyanın iştirakı olmadan qlobal problemləri həll etmək, sadəcə, qeyri-mümkündür. Əlbəttə, ətalət üzrə və köhnə yaddaş əsasında bunu etməyə cəhd göstərmək olar. Lakin qloballıq və universallıq iddiasında olan belə qərarların legitimliyi və ən başlıcası, onların praktiki mənası çox şübhəlidir.

Çox cəhətdən Asiya dövlətlərinin sayəsində dünya obyektiv olaraq çoxqütblü və nəticə etibarilə, şübhəsiz ki, daha mürəkkəb olub. Lakin çoxqütblülük, - mən bu barədə danışmışam,- hər dərdin çarəsi deyil və o, heç də o demək deyil ki, beynəlxalq münasibətlərdə kəskin məsələlər və ziddiyyətlər bir anda öz-özünə aradan qalxacaq.

"Valday" klubunun illik məruzəsinin müəllifləri iddia edirlər və biz indicə eşitdik ki, dünya nizamının, ümumiyyətlə, olmayacağı dövrə qədəm qoymuşuq. Bu, praktiki olaraq indicə deyilib. Bəli, belə ssenari həqiqətən mümkündür. Lakin onun təhlükəli cəhətləri çoxdur və biz hamımız bunu başa düşürük. Ümid etmək istərdim ki, dövlətlər arasında münasibətlər nə qədər mürəkkəb olsa da, məsələn, nüvə və raket sınaqları sahəsində hüquqi məqamlar nə qədər təhlükəli olsa da, beynəlxalq hüququn mühüm roluna əsaslanan dünya nizamı transformasiyaya məruz qalacaq, lakin saxlanacaq. Biz hamımız onu qorumaq üzərində işləyəcəyik. Şübhə yoxdur ki, başqa yol, demək olar, bütün bəşəriyyəti qlobal təhlükələrə aparır.

Əlbəttə, dünya sistemi rəngarəng və mürəkkəb, eyni zamanda, misilsiz dərəcədə qarşılıqlı əlaqəli sistemdir. Hər kəsin öz obyektiv, heç də həmişə başqalarının maraqları ilə üst-üstə düşməyən maraqları var. Bu da aydındır. Lakin ümumi məsuliyyət hissi də var. Nəhayət, ümidvaram və əslində şübhə etmirəm ki, sağlam düşüncə, təhlükəsizliyə meyil də var.

Buna görə də dünya nizamı sistemli olmalıdır. Lakin şübhəsiz, çeviklik və qeyri-xəttilik də lazımdır. Bu, sistemdən imtina etmək deyil, reallıqları nəzərə almaqla mürəkkəb prosesi təşkil etmək bacarığı deməkdir. Bu, müxtəlif mədəni dəyərlər sistemlərini nəzərə almağı, əlbir hərəkət etməyi, stereotipləri və geosiyasi şablonları dəf etmək bacarığını nəzərdə tutur. Qlobal, regional və milli səviyyəli məsələləri yalnız bu yolla səmərəli şəkildə həll etmək olar.

Belə nümunələr göz qabağındadır. 2015-ci ildə "Valday" klubunun iclasında iştirak edənlər yəqin ki, xatırlayırlar: praktiki olaraq, həmin günlərdə Suriyada Rusiya əməliyyatlarının başlanması haqqında qərar qəbul edildi. Açıq deyirəm, o vaxt zalda olanların heç də hamısı, o cümlədən ekspertlər də inanmırdılar ki, bu əməliyyat bu cür müsbət şəkildə başa çata bilər. Əksinə, buna çox şübhə ilə yanaşırdılar, çoxları bunun nəyə lazım olması barədə suallar verir, soruşurdular ki, biz hansı bir arı yuvasına girdiyimizi başa düşürükmü? Bəzi əcnəbi tərəfdaşlar isə, - əlbəttə, burada iştirak edən ekspertləri deyil, sadəcə, beynəlxalq arenada işlədiyimiz əcnəbi tərəfdaşları nəzərdə tuturam, - açıq desək, bizə mane olmağa, müqavimət göstərməyə çalışırdılar. Lakin sizin diqqətinizi görülmüş işlərin ən başlıcasına cəlb etmək istəyirəm. Əlbəttə, ilk növbədə, bizim ölkəmiz üçün edilənləri nəzərdə tuturam, çünki mən onun mənafelərini təmsil edirəm. Biz Suriya ərazisində artıq praktiki olaraq qalib gəlmiş beynəlmiləl terrorizmi məğlub etdik və onun qayıtmasının, bizim ölkəmizə və qonşu dövlətlərə sızmasının qarşısını aldıq. Yeri gəlmişkən, həmin dövlətlərlə bizim viza rejimimiz yoxdur, onlarla sərhədlərimiz şəffafdır. Biz yüzlərlə, gələcəkdə isə bəlkə də minlərlə silahlı başkəsənin ölkəmizə sızmasının qarşısını aldıq.

Bir neçə il ərzində Suriya ərazisinin çox hissəsi terrorçulardan azad edildi, zorakılıq səviyyəsi əsaslı şəkildə azaldı. Biz Astana formatı üzrə tərəfdaşlarımızla birlikdə BMT-nin dəstəyi ilə Suriyadaxili siyasi prosesi işə salmağa, bu məqsədlə İran, Türkiyə, İsrail, Səudiyyə Ərəbistanı, İordaniya, Yaxın Şərqin digər ölkələri və Birləşmiş Ştatlarla sıx işgüzar əlaqələr yaratmağa nail olduq. Hörmətli həmkarlar, razılaşın ki, çox fərqli dövlətlərin, bir-birinə münasibətdə çox fərqli emosiyaların bu cür mürəkkəb diplomatik toplusunu bir neçə il bundan əvvəl hətta təsəvvür etmək belə çətin idi. İndi isə bu, gerçəkləşmiş faktdır, biz buna nail olmuşuq.

Bizim fikrimizcə, Suriya nizamlanması regional böhranların həlli üçün bir növ model ola bilər. Həm də əksər hallarda məhz diplomatik mexanizmlər işləyəcək. Burada güc tətbiq edilməsi ifrat, məcburi istisnadır. Axı, biz Suriyada bütöv bir terrorçu kvazidövlət yaratmaq cəhdi ilə, tamamilə mübaliğəsiz deyirəm, əsl terrorçu ordu ilə üzləşdik.

Bəzən adama elə gəlir ki, həm yeni, həm də xroniki köhnə problemlərin, böhranların çoxu həddən artıq dolaşıb, onlara yanaşma da məlum deyil. Lakin təkrar edirəm, indi qeyri-ordinar, qeyri-standart addımlar və hərəkətlər dövrüdür. Suriya istiqamətində Rusiya tərəfdaşları ilə birlikdə - əlbəttə, bunu təkbaşına heç vaxt edə bilməzdik, - məhz tərəfdaşları ilə birlikdə, beynəlxalq hüquq normalarına əsaslanmaqla və onlara riayət etməklə, suverenliyə hörmət etməklə, ilk növbədə, insanların həyatı, təhlükəsizliyi və maraqları barədə düşünərək hər halda çox iş görüb.

Əminəm ki, dünyada, o cümlədən Asiyada mövcud olan başqa problemləri də məhz bu cür yanaşmalar əsasında həll etmək olar. Məsələn, çoxdan bəri "məngənədə" olan Koreya yarımadasındakı vəziyyət bu qəbildəndir.

Bununla əlaqədar qeyd etməliyəm ki, Birləşmiş Ştatlar Koreya Xalq Demokratik Respublikası ilə, özü də ilkin rəsmiyyət və şərtiliklər olmadan, adi, bəzən çox kobud, təhqirlər dərəcəsinə çatan ritorika olmadan birbaşa danışıqlar aparmağı qərara alan kimi dərhal məsələnin sülh yolu ilə nizamlanmasına ümid yarandı.




Əlbəttə, biz başa düşürük və görürük ki, həll edilməmiş problemlər hələ çoxdur, qarşıda çox böyük yol var. Lakin hər halda düzgün istiqamətdə hərəkət var. Burada Prezident Trampın cəsarətinə, qeyri-ordinar addımlar atmaq bacarığına lazımınca qiymət verməliyik. Axı, onilliklər boyu Amerika prezidentləri Koreya Xalq Demokratik Respublikasına etinasızlıq göstərir, onu izqoy hesab edirdilər. Cənab Tramp tarixi addım atmağa, anlamamaq və rədd etmək kimi "demarkasiya xətti"ni aşmağa, Kim Çen In ilə görüşməyə və danışıqlar prosesini başlamağa müvəffəq oldu.

Bir daha təkrar edirəm, ən mürəkkəb münaqişə düyünlərini qarşılıqlı əməkdaşlıq, hörmət, tərəflərin maraqlarını tanımaq, müxtəlif qəbildən olan blok fəlsəfəsindən imtina etmək prinsipləri əsasında həll etmək lazımdır və mümkündür. Məsələn, Fələstin-İsrail, Əfqanıstan, İranın nüvə proqramı ətrafında vəziyyət kimi düyünləri.

Bununla əlaqədar xatırlatmaq istəyirəm ki, Rusiya məhz bu məntiqlə cari ilin iyulunda Körfəz zonasında kollektiv təhlükəsizliyin təmin edilməsi Konsepsiyasını təqdim edib. Zənnimcə, bu ideya regionda cari gərgin və gözlənilməz şəraiti nəzərə alaraq hələ də çox aktualdır.

Biz yığılıb qalmış yanlış təsəvvürləri, qarşılıqlı iddiaları bir kənara qoyaraq bu regionda təhlükəsizlik və əməkdaşlıq üzrə təşkilatın yaradılmasına yeni səhifədən başlamağı təklif edirik. Bu təşkilata Körfəz ölkələri ilə yanaşı, müşahidəçi statusu ilə Rusiya, Çin, ABŞ, Avropa İttifaqı ölkələri, Hindistan və digər maraqlı dövlətlər daxil ola bilərdi.

Hörmətli görüş iştirakçıları. Gələcəyə istiqamətlənmiş bərabərhüquqlu siyasi münasibətlərin, o cümlədən Asiya ölkələri arasında münasibətlərin əsası, şübhəsiz ki, hamının davamlı və uzunmüddətli inkişafı üçün real perspektivlər açan iqtisadi tərəfdaşlıqdır.

Nümunə kimi nəqliyyat sahəsində qarşılıqlı əlaqələri göstərmək istəyirəm. Müasir avtomobil, dəniz, dəmir yolları infrastrukturu yaradılmadan ticarəti, sənaye kooperasiyasını inkişaf etdirmək, hər hansı digər sahələrdə qarşılıqlı mübadiləni təşkil etmək mümkün deyil. Bu cür Avrasiya nəqliyyat karkasının, geniş və meridian ticarət marşrutları şəbəkəsinin formalaşdırılmasını necə sürətləndirmək barədə birlikdə düşünməliyik.

Şübhəsiz ki, Rusiya bu cür birgə iş üçün açıqdır və artıq burada bir sıra birgə layihələr həyata keçirir. Onlardan biri - Şimal-Cənub ticarət marşrutu bizim ərazimizdən, Xəzər regionundan keçməklə, Avropa ölkələrindən Mərkəzi Asiya dövlətlərinə, İran və Hindistana uzanır. Digəri - Avropa-Qərbi Çin marşrutu Baltik dənizindəki Rusiya limanlarını Sarı dənizdəki limanlarla birləşdirəcək.

Daha bir perspektivli marşrut Arktika-Sibir-Asiyadır. Onun məğzi ondadır ki, Şərqi Sibirdən - Avrasiyanın mərkəzindən nəqliyyat magistralları ilə Şimal dənizinin limanlarını Sakit və Hind okeanlarının limanları ilə birləşdirmək mümkün olsun. Bu ideyanı reallaşdırmaq, çatışmayan elementləri formalaşdırmaq üçün biz Rusiyanın ən şimalında, Yamal yarımadasında yerləşən Sabetta limanına dəmir yolu xəttinin tikintisini, "Şimal en gedişi" layihələri kompleksinin reallaşdırılmasını, həmçinin Rusiya Federasiyasının şərqindəki Tuva Respublikasında Kuraqino-Kızıl dəmir yolu magistralının gələcəkdə Monqolustan, Çin və regionun digər ölkələrinə çıxışını təmin etməklə inşasını sürətləndirmək və başa çatdırmaq niyyətindəyik. Ümumavrasiya əhəmiyyətli bu təşəbbüs üzrə bütün maraqlı tərəfdaşlarla işləməyə hazırıq.

Fikrimizcə, transsərhəd, transmilli nəqliyyat arteriyaları təkcə təbii rəqabətə əsaslanan münasibətlərin qurulmasında açar, stimul deyil, həm də həmrəylik baxımından çox mühümdür. Çünki marşrutun keçdiyi ölkələrdən birində siyasi və iqtisadi sabitlik olmasa, onda bütün zəncir fəaliyyətini itirəcək. Buna görə də qonşular təbii yolla bir-birinin tərəqqisinə can atmalıdırlar.

Məhz birgə ümumi tərəqqi prinsiplərini rəhbər tutaraq biz tərəfdaşlarımızla Avrasiya İqtisadi İttifaqını qururuq. Bu inteqrasiya birliyi hüquq bərabərliyinə, praqmatizmə, bir-birinin maraqlarının nəzərə alınmasına əsaslanır. Bu halda bizim ittifaqımız qapalı bazar deyil.

Avrasiya İqtisadi İttifaqı beynəlxalq əlaqələri fəal inkişaf etdirir. Vyetnamla azad ticarət zonası haqqında saziş imzalanıb, bu yaxınlarda, lap elə bu günlərdə Sinqapurla da bu cür müqavilə imzalamışıq. İranla azad ticarət zonası haqqında müvəqqəti saziş imzalanıb. İsrail və Misirlə danışıqlar aparılır, tezliklə Hindistanla danışıqların birinci raundu olacaq. Avrasiya İttifaqı Çinlə ticari-iqtisadi əməkdaşlıq haqqında saziş imzalayıb. Avrasiya Komissiyası ilə ASEAN arasında 2019-2020-ci illərdə əməkdaşlıq proqramının həyata keçirilməsinə başlanılmışdır.

Bütün bu razılaşmalar Avrasiya İqtisadi İttifaqı, MDB, ŞƏT, ASEAN ölkələrinin və bir sıra digər dövlətlərin potensial iştirakı ilə Böyük Avrasiya Tərəfdaşlığının formalaşdırılması baxımından vacibdir.

Avrasiya İqtisadi İttifaqı layihəsi ilə Çinin "Bir kəmər, bir yol" təşəbbüsünün əlaqələndirilməsi Böyük Avrasiyanın "daşıyıcı dirəklərindən" biri olmalıdır. Biz çinli dostlarımızla bu işin sürətləndirilməsi barədə razılıq əldə etmişik.

Bütün bu misalları gətirərək çox sadə və zənnimcə, aşkar fikri vurğulamaq istəyirəm - dövlətlər arasında praqmatizmə, bir-birinin maraqlarının nəzərə alınmasına əsaslanan bu cür münasibətlərin qurulması xoş arzular və xəyallar, çox da uzaq gələcəyin məsələsi deyil. Bu, mümkündür və üstəlik, indi reallaşdırılır.

Hörmətli həmkarlar, Rusiya lap əvvəldən, təşəkkül tapdığı və formalaşdığı vaxtdan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Məlum mənada bu ölkə elə bir sivilizasiyadır ki, bir çox ənənələri və mədəniyyətləri üzvi şəkildə mənimsəyib, onların özünəməxsusluğunu, nadirliyini qoruyub, həm də orada yaşayan xalqların birliyini saxlayıb. Biz Rusiya Federasiyası xalqlarının bənzərsizliyinin və ümumi taleyinin harmoniyası ilə çox qürur duyuruq və onu yüksək qiymətləndiririk. Biz aşkar görürük ki, dövlət daxilində müxtəliflik normal haldır. O, sözün əsl mənasında, öz modelini aksiom kimi qəbul etdirməyi yox, səbirli, dözümlü olmağı, müxtəlif nöqteyi-nəzərləri anlamaq və qəbul etmək bacarığını, ənənələri və qaydaları öyrədir. Düşünürük ki, bizim bu təcrübəmiz bir çox digər tərəfdaşlarımız üçün də faydalı ola bilər. Ümumilikdə dünyadan danışdıqda bütün dövlətlərin şübhəsiz ki, müxtəlif olduğunu nəzərə alaraq, yeknəsəklik, universallaşdırma prinsipcə mümkün deyil. Müxtəlif dəyərlərin, ideyaların, ənənələrin birgə mövcud olduğu, qarşılıqlı fəaliyyət göstərdiyi və bir-birini zənginləşdirdiyi, eyni zamanda, öz xüsusiyyətlərini və fərqli cəhətlərini qoruduğu və üzə çıxardığı sistem lazımdır.

XIX əsrdə diplomatiyada belə bir obraz olub. Burada mənim həmkarlarım olan yaxşı diplomatlar var və bizim Xarici İşlər naziri mənə söylədi ki, belə demək mümkünsə, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu günüdür. Çünki mənim həmkarlarım arasında Qazaxıstan Prezidenti və Azərbaycan Prezidenti MDBMİ-nin məzunları, digər iki həmkarım - Prezident Duterte və İordaniya Kralı isə bu universitetin fəxri professorlarıdır. Bu universitet ənənəvi olaraq, lap əvvəldən diplomatik xidmət üçün kadrların hazırlanması sahəsində aparıcı ali məktəbdir.

Vaxtilə, XIX əsrdə "böyük dövlətlərin konserti" haqqında danışırdılar. Bu gün inkişaf modellərinin, maraqların, mədəniyyət və ənənələrin qlobal "konserti" haqqında danışmaq vaxtıdır ki, burada hər alətin çıxardığı səs mühüm, əvəzolunmaz və qiymətlidir. "Musiqinin" xaric səslənməməsi, kakofoniyaya oxşamaması, əksinə, harmonik səslənməsi üçün beynəlxalq həyatın bütün iştirakçılarının rəyinin və maraqlarının nəzərə alınması vacibdir. Təkrar edirəm, əsl qarşılıqlı hörmətə əsaslanan, praqmatik, deməli - gözlənilən və sıx münasibətlər məhz müstəqil, suveren dövlətlər arasında qurula bilər.

Rusiya bu cür yanaşmalara səmimi olaraq sadiqdir və müsbət gündəliyi reallaşdırır. Biz beynəlxalq hüquqa qeyd-şərtsiz əməl olunmasının, qarşılıqlı etimadın və ehtiramın möhkəmləndirilməsinin tərəfdarıyıq. Biz dövlətlərarası münasibətləri və ünsiyyəti BMT Nizamnaməsinin müddəalarına əsaslanaraq, ədalətli, demokratik prinsiplər üzrə qururuq.

Bizim ölkəmiz diqqətini təhlükəsizliyin və sabitliyin möhkəmlənməsi, beynəlxalq terrorizmə, digər çağırış və təhdidlərə qarşı mübarizə üzərində cəmləşdirib. Biz Asiya da daxil olmaqla bərabər və bölünməz təhlükəsizlik sisteminin geniş kollektiv iş əsasında yaradılması istiqamətində fəaliyyət göstəririk.

Yeri gəlmişkən, üç həftədən sonra elə burada, Soçidə Rusiya-Afrika sammiti keçiriləcək. Biz onun gedişində afrikalı həmkarlarımıza, dostlarımıza bərabərhüquqlu və ən müxtəlif sahələri - iqtisadiyyat, energetika, nəqliyyat, təhsil və ekologiyanı əhatə edən geniş gündəlik təqdim etməyə hazırıq.

Sonda mövzudan kənar da olsa, amma hər halda bizim əsas mövzumuzla bağlı olan hadisəni danışmaq istəyirəm. Təxminən iyirmi il əvvəl - 2000-ci il ərəfəsində mənim "Rusiya minilliklərin qovuşuğunda" sərlövhəli məqaləm dərc olundu. Məqalədə o zaman dünyanın vəziyyəti, inkişaf perspektivləri ilə bağlı təhlil, mənə elə gəlir ki, ümumilikdə reallığa uyğun idi.

Rusiya həqiqətən də XX əsrin 90-cı illərini öz tarixinin ən çətin dövrlərindən biri kimi yaşayıb. Kəskin daxili siyasi, iqtisadi, sosial böhranlarla yanaşı, biz həm də beynəlxalq terrorizm tərəfindən təcavüzə məruz qaldıq. O zaman Rusiya çox təhlükəli, arxasınca hər bir xalq, hər bir millət və ölkə üçün ən pis hadisələrin - dağıntı və dövlətin süqutunun baş verəcəyi həddə yaxınlaşmışdı. Bu təhdid havadan asılmışdı və insanların bir çoxu onu hiss edirdi.

Biz o zaman, əlbəttə, tamamilə real olaraq irimiqyaslı vətəndaş müharibəsinə yuvarlana, dövlət bütövlüyümüzü, suverenliyimizi itirə və dünya siyasətinin periferiyasında qala bilərdik. Yalnız rus xalqının və Rusiyanın digər xalqlarının müstəsna vətənpərvərliyi, igidliyi, nadir səbri və əməksevərliyi nəticəsində ölkəmiz bu təhlükəli xətdən uzaqlaşdırıldı.

Bu iyirmi il ərzində yəqin ki, nələrisə başqa cür, daha yaxşı etmək olardı. Lakin biz nadir təcrübə qazandıq və düşünürəm ki, o, dünyada da istifadə oluna bilər. Biz həmkarlarımızla bu zala daxil olmazdan əvvəl ən mühüm problemlərdən biri - terrorizm haqqında danışırdıq və müzakirə aparırdıq.

Həqiqətən bizdə - Rusiyada həll edilməmiş problemlər hələ çoxdur. Bununla yanaşı, siyasi sabitlik, bütün xalqın öz gücünü səfərbər etməsi sayəsində Rusiya nəinki dirçəlib və iqtisadi, sosial sahələrdə möhkəmlənməkdə davam edir, həm də planetin aparıcı, nüfuzlu və məsuliyyətli dövlətləri arasında inamla öz yerini tutur. Bizim ölkəmiz mövcud dünya nizamının qarantlarından biri kimi öz öhdəliklərini tam şəkildə yerinə yetirir. Əminəm ki, bu, gələcəkdə də belə olacaq. Əgər biz birlikdə fəaliyyət göstərsək, bu, daha səmərəli olacaq.

Diqqətinizə görə çox sağ olun.

❖ ❖ ❖

**Moderator:** Hörmətli həmkarlar, sözü bizim qonaqlara verərkən, necə deyərlər, Qərbdən Şərqə gedirik ki, çıxış etmək üçün söz vermək prinsipimiz aydın olsun. İndi sözü növbəti çıxışçıya - Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə veririk.

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

- Hörmətli Vladimir Vladimiroviç.

Hörmətli xanımlar və cənablar.

İlk növbədə, "Valday" Diskussiya Klubunun növbəti iclasında iştirak etməyə dəvət üçün Vladimir Vladimiroviç Putinə dərin təşəkkürümü bildirmək istərdim. Qeyd etmək istərdim ki, klubun fəaliyyətini Azərbaycanda böyük maraqla izləyirlər. O, müasir dünyanın aktual məsələlərinin müzakirə edildiyi və əməkdaşlığın dərinləşməsi üçün tövsiyələr verilən ən mühüm beynəlxalq məkanlardan birinə çevrilib.

Mən Vladimir Vladimiroviçin çıxışını böyük maraqla dinlədim və hər məsələdə onunla razıyam. Minilliklərin sərhədində Rusiyada yaranmış vəziyyətdən bəhs edərkən onun demədiyi yeganə məsələ budur ki, Rusiyanın çox ağır sınaqlardan şərəflə çıxmasında əsas amil Vladimir Putin amilidir. Bu, həqiqətdir, bunu hamı bilməlidir. Məhz onun cəsarəti, qətiyyəti, müdrikliyi, vətənpərvərliyi sayəsində Rusiya ən çətin sınaqlardan çıxdı və bu gün dünyanın aparıcı böyük dövlətidir. Bu gün Vladimir Vladimiroviçlə bizim görüşümüz oldu. Bizim görüşlərimiz müntəzəm xarakter daşıyır və hətta bir neçə aylıq kiçik fasilə bizə pauza kimi təsir bağışlayır. Ölkələrimiz arasında münasibətlər strateji əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, biz bir-birimizi strateji tərəfdaşlar adlandırırıq. Bu gün biz ikitərəfli münasibətlərin çox geniş gündəliyini nəzərdən keçirdik və gələcək qarşılıqlı fəaliyyətin yollarını müəyyənləşdirdik. Ölkələrimiz arasında çox fəal siyasi dialoq mövcuddur. Dövlət başçılarının və digər rəsmi şəxslərin müntəzəm görüşləri əməkdaşlığımızın dərinləşməsinə şərait yaradır. Biz beynəlxalq təşkilatlar çərçivəsində fəal qarşılıqlı əlaqə saxlayırıq, ən mühüm, ümdə məsələlərdə ənənəvi olaraq bir-birimizi dəstəkləyirik. Avropa Şurası Parlament Assambleyasının iyun sessiyasında Rusiyanın bu təşkilata qayıtması məsələsi müzakirə edilərkən Azərbaycan nümayəndə heyəti tam tərkibdə çıxış edərək Rusiyanın AŞ PA-ya qayıtmasının lehinə səs verdi. Mən bu münasibətlə həmkarlarımızı təbrik etmək istərdim.

Ticari-iqtisadi münasibətlərimizin inkişafında müsbət dinamika müşahidə olunur. Biz əmtəə dövriyyəsini hər il artırırıq. Bu, getgedə çətinləşir, çünki keçən il biz təqribən 20 faiz artım barədə danışırdıqsa, bu il artım daha çox olub. Beş "Yol xəritəsi" çərçivəsində əməkdaşlığın prioritet istiqamətlərinin müəyyən edilməsi, şübhəsiz ki, ticari əlaqələrin daha da genişlənməsinə səbəb olacaq. Azərbaycanda Rusiya kapitallı 700-ə yaxın şirkət fəaliyyət göstərir. Azərbaycan Rusiyada 1,2 milyard dollar, Rusiya Azərbaycanda 4,6 milyard dollar həcmində sərmayə qoyub. Burada biz geri qalırıq, lakin bunun obyektiv səbəbləri var. Onu da qeyd etmək istərdim ki, sənayeləşmə məsələsində Rusiya bankları bizə çox kömək edir. Onlar iqtisadiyyatın real sektorunda həyata keçirilən layihələr üçün təqribən 1 milyard dollar kredit ayırıblar.

Hərbi-texniki əməkdaşlıq fəal inkişaf edir. Bu gün biz bu istiqamətdə işi davam etdirmək barədə razılığa gəldik. Hərçənd, Rusiyadan texnika alınması çərçivəsində bizim aramızda artıq imzalanmış kontraktların məbləği 5 milyard dollar təşkil edir, bunun 3 milyard dolları artıq reallaşıb. Dediyim kimi, biz bu istiqamətdə işi davam etdirmək niyyətindəyik.

Bizim əməkdaşlığımızın mühüm istiqamətlərindən biri də nəqliyyat sahəsidir. 2018-ci ildə Şimal-Cənub dəhlizi vasitəsilə daşınmış yüklərin həcmi əvvəlki ildəkindən 8 dəfə çox olub. Həcmlər hələlik böyük deyil, lakin dinamika güclü təsir bağışlayır. Onu da qeyd etmək istərdim ki, Şimal-Qərb dəhlizi də işə düşüb. Rusiyadan yüklər Azərbaycan ərazisindən keçməklə həm cənub, həm də qərb istiqamətində göndərilir. Bu, çox cəhətdən onun sayəsində mümkün olur ki, biz tarif siyasətimizi razılaşdırmışıq və son vaxtlar Azərbaycanda müasir nəqliyyat infrastrukturuna böyük sərmayə yatırılıb.

Bizim əlaqələrimizin bir göstəricisi həm ölkələrimiz, həm də xalqlarımız arasında münasibətlərin ruhu və xarakteri barədə parlaq təsəvvür yaradır. Keçən il 880 min rusiyalı Azərbaycana səfər edib. Bu il onların sayı daha çoxdur. Sirr deyil ki, turistlər təkcə görməli yerlərə baxmaq və milli mətbəx təamlarını dadmaq üçün getmirlər. Onlar o yerə gedirlər ki, orada özlərini təhlükəsiz, rahat, öz evlərində olduğu kimi hiss edirlər. Zənnimcə, bu fakt turizmin sürətlə artmasına dəlalət edir.

Təhsil sahəsində böyük uğurları qeyd etmək istərdim. Artıq neçə ildir ki, Azərbaycanda Moskva Dövlət Universitetinin filialı, habelə Birinci Moskva Dövlət Tibb Universitetinin filialı fəaliyyət göstərir. Azərbaycanın bütün dövlət ali məktəblərində rus dili bölmələri var. Ölkəmizdə 25 min tələbə rus dilində təhsil alır. Təhsilin rus dilində olduğu 338 məktəbdə 130 min şagird də rus dilində oxuyur.

Daimi diskussiyaların mövzularından biri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsidir. Rusiya ATƏT-in Minsk qrupunun həmsədridir. Onun vasitəçilik üçün mandatı var. Qeyd etməliyəm ki, Dağlıq Qarabağ və Azərbaycanın digər 7 rayonu 25 ildən çoxdur erməni işğalı altındadır. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Sovet dövründə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdı. Qeyd etməliyəm ki, bu münaqişə ilə əlaqədar çox vaxt reallığı əks etdirməyən geniş fikir müxtəlifliyi var. Bu məsələyə aydınlıq gətirmək üçün deməliyəm ki, 1921-ci ildə Qafqaz bürosunun qərarında Dağlıq Qarabağın çox vaxt erməni tərəfinin interpretasiya etdiyi kimi, Azərbaycana verilməsi deyil, onun Azərbaycanın tərkibində qalması göstərilmişdir. Münaqişə başlayana qədər Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində yaşayan azərbaycanlı və erməni əhalinin say nisbəti 25:75 faiz kimi olub. Münaqişə nəticəsində Dağlıq Qarabağdan, həmçinin digər 7 rayondan bütün azərbaycanlı əhali qovulub, başqa sözlə desək, orada etnik təmizləmə aparılıb.

Bu gün də işğal olunmuş ərazilərdə azərbaycanlı əhali yoxdur və işğal olunmuş ərazilər, onların böyük bir hissəsi yandırılmış, dağıdılmış torpaqlar, viran qoyulmuş evlər, məktəblər, ictimai binalardır. Münaqişə nəticəsində Azərbaycan humanitar fəlakətlə üzləşib. Dağlıq Qarabağdan və Azərbaycanın işğal olunmuş digər ərazilərindən olan 700 mindən çox məcburi köçkün, üstəgəl, müasir Ermənistanın ərazisindəki öz tarixi torpaqlarından qovulmuş 250 min azərbaycanlı. BMT Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib.

*Ardı 3-cü səh.*

# Azərbaycanın beynəlxalq mövqeləri möhkəmlənir

## Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyası keçirilib

## Prezident İlham Əliyev sessiyada iştirak edib

*Əvvəli 2-ci səh.*

İyirmi beş ildən çoxdur ki, bu qətnamələr yerinə yetirilmir. Burada biz mühüm məsələyə - qəbul olunmuş qərarların yerinə yetirilməsinə gəlirik. BMT Təhlükəsizlik Şurası ali beynəlxalq orqandır. Əgər 25 ildən çox müddətdə Təhlükəsizlik Şurasının qəbul etdiyi qərarlar yerinə yetirilmirsə, onda bu, həmin təşkilatın səmərəliliyi ilə bağlı bir çox suallar doğurur. Azərbaycanda bizi qətnamələrin yerinə yetirilməsinin reallaşdırılmasının seçmə xarakteri narahat edir. Bəzən onlar bir neçə gün ərzində yerinə yetirilir, bəzən isə müəyyən hərbi əməliyyatların həyata keçirilməsində onlara, ümumiyyətlə, ehtiyac qalmır. Bizimlə bağlı məsələdə isə qətnamələr kağız üzərində qalır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, BMT-nin bütün dünya tərəfindən qəbul edilmiş Nizamnaməsi, BMT Təhlükəsizlik Şurasının qətnamələri və Helsinki Yekun Aktı çərçivəsində həll olunmalıdır. Ermənistanın baş naziri son vaxtlar tez-tez təkrarlayır ki, münaqişənin həlli Azərbaycan xalqı, Ermənistan xalqı və Dağlıq Qarabağ xalqı üçün məqbul olmalıdır. İndi deməliyəm ki, "Dağlıq Qarabağ xalqı" məfhumu mövcud deyil. Dağlıq Qarabağın əhalisi var, münaqişə başlayana qədər bu, bərabər hüquqlara malik olan Azərbaycan və erməni əhalisindən ibarət idi. Azərbaycan üçün hansı həll variantının məqbul olmasına gəldikdə isə, o, Azərbaycanın bütün dünya tərəfindən tanınmış ərazi bütövlüyünün bərpa olunması, qaçqınların və məcburi köçkünlərin öz doğma torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qayıtmasından ibarətdir. Bu, Təhlükəsizlik Şurasının qətnamələrinə və Helsinki Yekun Aktına uyğundur.

Deməliyəm ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü bu gün də davam edir. Dünən erməni snayperi tərəfindən dinc sakin, münaqişə zonasından uzaqda, Ermənistanın Azərbaycanla sərhədində yerləşən Qazax rayonunun sakini qətlə yetirilib. Həmçinin deməliyəm ki, 2016-cı ilin aprelində hərbi təxribat zamanı altı dinc sakin, o cümlədən balaca qız qətlə yetirilib.

Həmçinin Ermənistan baş nazirinin təəccüb doğuran bəyanatına toxunmaq istərdim. Bu bəyanat təkcə Azərbaycanda təəccüblə qarşılanmayıb, ona Rusiya Federasiyası tərəfindən də "Valday" forumu çərçivəsində müvafiq cavab verilib. Beləliklə, bəyanat sözbəsöz belədir: "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə". Birincisi, yumşaq desək, bu, yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi.

İşğala, 1990-cı illərin əvvəlində ölkəmizdə hər səkkiz nəfərdən birinin qaçqın olduğu humanitar fəlakətə baxmayaraq, Azərbaycan böyük inkişaf və quruculuq yolu qət edib. Ölkədə oyuncaq, xalqa zidd, satqın Xalq Cəbhəsi rejiminin hakimiyyətdə olduğu müstəqilliyin ilk illəri istisna olmaqla, 26 ildir Azərbaycan sabitlik şəraitində yaşayır və burada əsas xidmət vətəndaş müharibəsinin qarşısını almış, işğalı dayandırmış, xaosun, dağıntının öhdəsindən gəlmiş və Azərbaycanı quruculuq yoluna çıxarmış Prezident Heydər Əliyevə məxsusdur. Beləliklə, 26 ildir ki, Azərbaycan xalqı sabitlik və inkişaf şəraitində yaşayır. Ölkəmizin beynəlxalq mövqeləri möhkəmlənir. Bunun göstəricilərindən biri bir neçə il əvvəl ölkəmizin 155 dövlətin səsi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsidir. Bu, o qədər də asan deyildi, bizim üçün 3 gün və 16 tur tələb olundu, lakin ədalət zəfər çaldı. Həmçinin qeyd etmək istərdim ki, Rusiya Federasiyası və digər 154 ölkə bizə böyük dəstək verdi.

Bizi sevindirir ki, Bakı artıq bir neçə ildir Rusiya və NATO-nun ali hərbi komandanlıqlarının görüş yeri seçilir. Bunu bizə göstərilən etimadın ifadəsi kimi qiymətləndiririk. Bu ayın sonunda Bakıda Qoşulmama Hərəkatının sammiti keçiriləcək. Azərbaycan 3 il müddətinə bu təşkilatın sədri olacaq.

Qarşımızda duran beynəlxalq gündəliklə yanaşı, əlbəttə, biz diqqətimizi iqtisadi inkişafla bağlı daxili problemlərə yönəldirik. Bu istiqamətdə böyük nəticələr əldə olunub. Azərbaycan xarici borcu az olan dövlətdir. Bu göstəriciyə görə biz 9-cu yerdəyik, xarici borc ümumi daxili məhsulun 17 faizini təşkil edir. Məlumat üçün deyim ki, Rusiya 6-cı yerdədir. Biz rəqib deyilik, lakin həmişə ən yaxşı nəticələrə istiqamətlənirik. Yoxsulluğun azaldılması üzrə böyük işlər görülür və bu göstərici 2003-cü ildəki 49 faizdən 5 faizə endirilib. İqtisadi artım sosial problemlərin həllinə də imkan verir. Bu il minimum əməkhaqqı təxminən 2 dəfə, minimum pensiya 70 faiz artıb. Biz müasir texnologiyalara sərmayə qoyuruq, əhalimizin 80 faizi internet istifadəçisidir. Azərbaycan 3 peyki olan ölkədir. Bunlardan ikisi telekommunikasiya, biri isə Yer səthini müşahidə edən peykdir.

Son olaraq Vladimir Vladimiroviçin nəqliyyat layihələrinin təkcə ticarətin inkişafına kömək etməməsi, həmçinin xalqlar arasında körpü olması barədə tezisinə dəstək olaraq demək istəyirəm ki, bu istiqamətdə bizim ölkəmizdən keçən "Şimal-Cənub" və "Şərq-Qərb" dəhlizləri məhz beynəlxalq əməkdaşlığın genişləndirilməsi və risklərin azaldılması istiqamətində addımlardır, layihələrdir.

Diqqətinizə görə təşəkkür edirəm.

❖ ❖ ❖

Sessiyada çıxış edən İordaniya Kralı II Abdulla, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev və Filippin Prezidenti Rodriqo Roa Duterte "Valday" Beynəlxalq Klubunun əhəmiyyətinə toxundular, Asiya regionunun dünyada artan rolundan, terrorizmin doğurduğu təhdidlərdən, dünyada gedən qlobal siyasi və iqtisadi proseslərdən bəhs etdilər.

Sonra Prezident İlham Əliyev və tədbir iştirakçıları sualları cavablandırdılar.

**- Sualım Prezident Əliyevədir. Bizim ölkələrimizin iştirakı ilə iqtisadiyyat sahəsində inteqrasiya layihələri, o cümlədən Şimal-Cənub ticarət marşrutu, Sizin xatırlatdığınız "Şimal-Qərb nəqliyyat dəhlizi" regional təhlükəsizlik üçün nadir əsaslar yaradır. Bu sistemin parametrləri Bakıdan necə görünür? Təhlükəsizlik sahəsində Rusiya-Azərbaycan əlaqələri onun qurulmasına necə kömək edir?**

- Şübhəsiz ki, bu məsələlər qarşılıqlı əlaqəlidir. Mən öz şərhlərimdə demişəm ki, nəqliyyat layihələri yük göndərənlər, yaxud tranzit ölkələr üçün təkcə gəlir qazanmaq üçün əlavə imkanlar yaratmır, bunlar ölkələri qarşılıqlı asılı vəziyyətə salır. İstənilən tranzit ölkə öz qonşuları ilə yaxşı münasibətlərə malik olmalıdır, yoxsa bu tranzit, sadəcə, baş tutmayacaq. Azərbaycana gəlincə, biz artıq çoxdandır həm müasir nəqliyyat infrastrukturunun, həm də regionumuzda etimad mühitinin yaradılmasına investisiya qoyuruq. Düşünürəm ki, biz tərəfdaş ölkələrin birgə səyləri ilə nadir əməkdaşlıq formatı yaratmağa nail olmuşuq. Həmin format bu gün xalqlarımızın rifahına, eləcə də təhlükəsizliyin möhkəmlənməsinə xidmət edir. Hesab edirəm ki, beynəlxalq təcrübədə qarşılıqlı asılılıq və qarşılıqlı tamamlama bütövlükdə sabitlik və təhlükəsizlik amillərindən biridir.

Azərbaycan nəqliyyat infrastrukturuna xeyli vəsait qoyub. Biz Bakı yaxınlığında çox böyük ticarət limanını istifadəyə vermişik. Həmçinin dəmir yolları bizi üç qonşumuzla birləşdirir. Avtomobil yolları da yük axınının artmasına təkan verir. Coğrafi yerləşmə təbii ki, geosiyasi vəziyyətdən asılıdır. Onun həm müsbət, həm də mənfi cəhətləri ola bilər. Fikrimcə, hər bir hökumətin vəzifəsi ölkəsinin coğrafiyasını müsbətə yönəltməkdir. Zənnimcə, biz buna nail olmuşuq. Azərbaycan "Bir kəmər, bir yol" layihəsinin fəal iştirakçısıdır və bu ilin aprelində Pekin konfransında Cənubi Qafqazın yeganə ölkəsi kimi iştirak edib. Biz, həmçinin Şimal-Cənub layihəsinin mühüm tərəfdaşıyıq. Azərbaycan həm "Şərq-Qərb", həm də "Şimal-Cənub" dəhlizlərində iştirak edən yeganə ölkədir. Mən bu gün dedim ki, biz artıq "Şimal-Qərb dəhlizi"nin işə düşməsinə şadıq. Beləliklə, həmin layihələr, təbii ki, regional təhlükəsizliyin möhkəmlənməsinə kömək edəcək.

Sizin sualınızın ikinci hissəsinə - Azərbaycanla Rusiya arasında münasibətlərin təhlükəsizliyə necə kömək etməsi məsələsinə gəlincə, düşünürəm ki, toqquşmaların, xaosun, vətəndaş müharibələrinin, münaqişələrin, dini ekstremizmin tüğyan etdiyi dənizdə Rusiya və Azərbaycanın sabit ictimai-siyasi vəziyyətdə olan və o cümlədən beynəlxalq terrorizmə, ekstremizmə qarşı mübarizədə qarşılıqlı fəaliyyət göstərən ölkələr olduğunu görmək üçün bizim regiona baxmaq kifayətdir. Həm Rusiya, həm də Azərbaycan Qafqaz ölkələridir. Təbii ki, bizi Qafqaz birləşdirir. Bizi Xəzər dənizi birləşdirir. Qeyd etməliyəm ki, təhlükəsizliyin və əməkdaşlığın möhkəmləndirilməsi işində ötən ilin avqustunda Aktauda Xəzər dənizinin hüquqi statusunun tənzimlənməsi haqqında konvensiyanın imzalanması böyük rol oynadı. Beləliklə, Rusiya-Azərbaycan münasibətləri artıq çoxdan ikitərəfli çərçivədən çıxaraq regionumuzda sabitliyin mühüm amilinə çevrilib.

❖ ❖ ❖

Fransa Beynəlxalq Münasibətlər İnstitutunun eksperti Tatyana Kostuyeva Janın ekologiya ilə bağlı sualını cavablandıran Prezident Vladimir Putin bu barədə Prezident İlham Əliyevin də öz münasibətini bildirməsini xahiş edərək dedi:

**- Ümumiyyətlə, ekologiya məsələləri yəqin ki, hamını narahat edir. İlham Heydər oğlu, bəlkə, həqiqətən, bu barədə fikrinizi bildirəsiniz?**

- Mən Vladimir Vladimiroviçin tezislərini tam dəstəkləyirəm. Öz tərəfimdən demək istərdim ki, Azərbaycanda da elektrik enerjisinin istehsalında qaz və hidroresurslardan istifadə edirik. Bu planda biz, həmçinin tullantılar üzrə öhdəliklərimizi yerinə yetiririk. Mövzu qlobal xarakter daşıyır və əlbəttə, əsas, həlledici sözü iqlimin istiləşməsində başlıca töhfə verən ölkələr deməlidir. Bizim ölkəmiz ərazi baxımından kiçikdir və əhalisi də azdır, ona görə də biz qlobal proseslərə ciddi təsir etmirik. Lakin beynəlxalq ictimaiyyətin məsuliyyətli üzvü kimi öz tərəfimizdən həm ölkəmizdə, həm də Xəzər regionunda ekoloji şəraiti yaxşılaşdırmaq üçün zəruri tədbirlər görürük. Çünki bu, təkcə bizə yox, həm də digər sahilyanı ölkələrə və bütövlükdə regiona aiddir.

Sonra dövlət başçılarının "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının iştirakçıları ilə qeyri-formal görüşü oldu.

# Dövlət başçılarının "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının iştirakçıları ilə qeyri-formal görüşü olub

*Əvvəli 1-ci səh.*

Sonra Qazaxıstan Prezidenti **Kasım-Jomart TOKAYEV** çıxış etdi:

- Hörmətli xanımlar və cənablar.

Bu gün podiumda əyləşərkən mənə tanış olan çoxlu simaları gördüm və fürsətdən istifadə edib sizə möhkəm cansağlığı, uğurlar, firavanlıq arzu etmək istərdim. Valday forumuna dəvətə görə Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putinə bir daha təşəkkür edirəm, ona böyük və səmimi hörmət bəslədiyimi bildirirəm.

Bu forum Rusiyanın hüdudlarından kənarda da məşhurdur. Bu, nüfuzlu diskussiya məkanıdır. Bugünkü iclas mənim fikrimcə, uğurlu oldu və əlbəttə, diskussiyanın gedişini Vladimir Vladimiroviç idarə edirdi, sizin suallarınız əsasən ona ünvanlanmışdı. Lakin biz də imkan daxilində öz töhfəmizi verdik. Zənnimcə, bu cür diskussiyalar davam etməlidir, çünki onlar müasir dünyada baş verənləri anlamaq üçün çox faydalıdır. Sağ olun!

Azərbaycan Prezidenti **İlham ƏLİYEV** dedi:

- Valday forumuna dəvətə görə mən də Vladimir Vladimiroviçə təşəkkür etmək istərdim. Bu forumun işində iştirak etmək böyük şərəfdir.

Mən artıq demişəm ki, forum aktual məsələlərin müzakirəsi üçün ən mühüm beynəlxalq məkanlardan biridir. Bugünkü mövzu Şərqə həsr edilmişdi. Lakin təbii ki, biz bu mövzunun çərçivəsindən kənara çıxdıq. Mənə belə gəlir ki, bu gün həqiqətən çox maraqlı, səmimi diskussiya keçdi, panelin hər bir iştirakçısı öz fikrini sərbəst ifadə edə bildi. Siz də qeyd etdiyiniz kimi, bizim fikirlərimiz çox cəhətdən üst-üstə düşürdü.

Zənnimcə, bugünkü panel tərəfdaşların, dostların, həmfikirlərin paneli idi. Bugünkü panelə verdiyi töhfəyə görə Vladimir Vladimiroviçə xüsusi təşəkkür edirəm, işin əsas ağırlığı onun üzərinə düşürdü. Biz də bacardığımız qədər kömək edirdik. Bir daha sağ olun. Hamınıza firavanlıq diləyirəm.

Yeri gəlmişkən, demək istərdim ki, zalda da çoxlu köhnə dostlarımı, o cümlədən Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunlarını gördüm. Vladimir Vladimiroviç, ürəyinizdə arzu tuta bilərsiniz - Siz Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun iki məzunu arasında əyləşmisiniz.








Prezident **Vladimir PUTİN**: Mənim arzum budur ki, bizim işimizin nəticələri real siyasətdə əməli fayda versin, bizim diskussiyalar dünyanın ən mühüm problemlərinin həllinə müxtəlif ölkələrin yanaşmalarında onların mövqelərini daha yaxşı anlamağa kömək etsin, bu problemlərin həllində isə biz hamımız maraqlıyıq. İcazə verin, bu yolda bizə uğurlar arzulayım. Diqqətinizə görə təşəkkür edirəm.

❖ ❖ ❖

Oktyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına səfəri başa çatıb.

## Qrossmeyster Teymur Rəcəbova

Əziz Teymur.

Rusiyanın Xantı-Mansiysk şəhərində keçirilən Dünya Kuboku uğrunda yarışlarda qələbə qazanmağın münasibətilə səni ürəkdən təbrik edirəm.

Sən yüksək ustalıq, əzmkarlıq və iradə nümayiş etdirərək qazandığın bu qələbə ilə Dünya Kubokunun sahibi olan ilk şahmatçımız kimi Azərbaycan idmanının tarixində şanlı səhifə açdın.

Sənə ən xoş arzularımı yetirir, yeni-yeni qələbələr diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 oktyabr 2019-cu il*

## S.K.Hacıyevə "Əməkdar hüquqşünas" fəxri adının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Qanunvericiliyin inkişafı sahəsində xidmətlərinə görə Sabir Kamal oğlu Hacıyevə Azərbaycan Respublikasının "Əməkdar hüquqşünas" fəxri adı verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 oktyabr 2019-cu il*

## *Birinci vitse-prezident Mehriban ƏLİYEVA:* "Azərbaycan növbəti böyük uğura imza atıb!"



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva ölkəmizin şahmat tarixində ilk dəfə Dünya Kubokuna sahib olan Teymur Rəcəbovu "İnstagram" səhifəsində təbrik edib.**

AZƏRTAC xəbər verir ki, təbrikdə deyilir: "Azərbaycan növbəti böyük uğura imza atıb! Gənc istedadımız Teymur Rəcəbov şahmat üzrə Dünya Kubokunda ölkəmizi layiqincə təmsil edərək parlaq qələbə qazanıb. Bütün Azərbaycan xalqının sevincinə səbəb olan bu möhtəşəm qələbə münasibətilə Teymuru səmimi-qəlbdən təbrik edirəm!".

## Baş Nazir Novruz Məmmədov müəllimləri təbrik edib

Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov 5 oktyabr - Beynəlxalq Müəllimlər Günü münasibətilə müəllimləri təbrik edib.

AZƏRTAC xəbər verir ki, Baş Nazirin "Twitter" səhifəsində paylaşdığı təbrikdə deyilir: "Beynəlxalq Müəllimlər Günü həyatını xalqın işıqlı gələcəyinə həsr edən müqəddəs peşə sahiblərinin bayramıdır. "Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var. Mən dünyada müəllimdən şərəfli ad tanımıram" deyən Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün illərdə müəllim əməyini yüksək qiymətləndirib, onlara böyük hörmətlə yanaşıb. Son illərdə təhsilin inkişafı ilə bağlı ölkəmizdə kompleks tədbirlər həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təhsil işçilərinin maddi vəziyyəti, rifah halının yaxşılaşdırılması istiqamətində görülən tədbirləri dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil edib. Ölkəmizdə hər il sayı artmaqda olan müasir məktəblər, yeni təhsil kompleksləri şagirdlərin təhsil şəraitini tamamilə dəyişir, tədrisin səviyyəsini yüksəldir. Təhsil işçilərinə hərtərəfli qayğı Azərbaycan dövlətinin gələcəyini daha etibarlı və inamlı görmək əzmindən xəbər verir.




Müəllimlik şərəfli və məsuliyyətli işdir, çünki gələcək nəsillərin böyüməsində və tərbiyə olunmasında həlledici rol oynayır.

Əziz müəllimlər, bayramınızı təbrik edir, respublikamızın intellektual potensialının gücləndirilməsi, gələcək nəslin inkişafı yolunda göstərdiyiniz fədakar işlərinizdə uğurlar arzulayıram".

## Məhkəmələrin qərarları ilə müsadirə olunmuş bir tondan çox narkotik vasitə məhv edilib

Məhkəmələrin qərarları ilə müsadirə olunmuş bir tondan çox müxtəlif narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları oktyabrın 4-də Binəqədi rayonundakı Bünyad Sərdarov adına maşınqayırma zavodunun ərazisində məhv edilib.







AZƏRTAC xəbər verir ki, narkotiklərin məhv olunması prosesində Azərbaycan Respublikası Baş Nazirinin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Həsənov, komissiyanın, Daxili İşlər Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidmətinin, Dövlət Gömrük Komitəsinin, Dövlət Sərhəd Xidmətinin əməkdaşları və KİV nümayəndələri iştirak ediblər.

Ümumilikdə 579 məhkəmə hökmü ilə barəsində məhvetmə qərarı çıxarılan 1 ton 61 kiloqramdan çox müxtəlif növ narkotik vasitə və psixotrop maddə - 515 kiloqram 979 qram marixuana, 144 kiloqram 965 qram heroin, 328 kiloqram 848 qram tiryək, 62 kiloqram 726 qram həşiş qətranı, 2 kiloqram 79 qram kokain, 11 kiloqram 755 qram - 71 min 773 ədəd psixotrop maddə, o cümlədən 4599 çətənə bitkisi yandırılaraq məhv edilib. Müsadirə olunan narkotik vasitələrin və psixotrop maddələrin qara bazarda ümumi dəyəri 35 milyon manat təşkil edir.

Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın icrasını daim diqqət mərkəzində saxlayan dövlət komissiyasının işçi qrupu hesabat dövründə narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığın yayılmasına qarşı mübarizədə aidiyyəti qurumların fəaliyyətinin əlaqələndirilməsini təşkil edib. Antinarkotik təbliğata xüsusi önəm verərək maarifləndirmə sahəsində görülən işlərin əhatəsinin genişləndirilməsi məqsədilə şəhər və rayon komissiyaları ilə birgə profilaktik tədbirlər, konfranslar, seminarlar, təlimlər keçirilib, əməkdaşlara metodik tövsiyələr verilib.

Məlumat verilib ki, bu ilin səkkiz ayında hüquq mühafizə orqanları tərəfindən görülmüş kompleks tədbirlər nəticəsində narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı 3309 fakt aşkarlanıb. Bu faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 1 ton 842 kiloqram 28,4 qram olan müxtəlif növ narkotik vasitələr, psixotrop maddələr və 257 ədəd həb, 568 millilitr metadon suyu müsadirə edilib. Bundan başqa, qanunsuz dövriyyədən çəkisi 91 kiloqram 183,7 qram prekursor, 87 kiloqram 855,9 qram digərləri, 236,2 güclü təsir edən maddə, 12 kiloqram 500 qram zəhərli maddə götürülüb. Müsadirə olunan narkotik vasitələrin 596 kiloqram 884 qramını (32,4 faiz) marixuana, 245 kiloqram 876,1 qramını (13,3 faiz) tiryək, 794 kiloqram 786,4 qramını (43,1 faiz) heroin, 21 kiloqram 433,1 qramını (0,16 faiz) həşiş, 4 kiloqram 009,185 qramını (1,1 faiz) kokain təşkil edib.

Eyni zamanda, Daxili İşlər Nazirliyinin təşkilatçılığı ilə Ekologiya və Təbii Sərvətlər, Kənd Təsərrüfatı nazirlikləri, Dövlət Sərhəd Xidməti və digər aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə yaş kütləsi 123 ton 247 kiloqram 609,225 qram olan 242 min 364 ədəd yabanı halda bitmiş narkotik xassəli bitkilər aşkarlanaraq müvafiq qaydada məhv edilib. Yaş kütləsi 6 ton 498 kiloqram 600 qram olan 3763 ədəd çətənə və xaşxaş bitkisi prosessual tədbirlərin görülməsi üçün istintaq orqanlarına verilib.

Diqqətə çatdırılıb ki, bu dövrdə cinayət məsuliyyətinə 2234 nəfər cəlb edilib. Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinin 2018-ci il dekabrın 31-nə olan məlumatına əsasən, mərkəzdə 31 min 432 nəfər narkotik istifadəçisi qeydiyyatdadır. Onlardan 26 min 346-sı dispanser, 5086 nəfəri isə profilaktik qeydiyyatda olanlardır.

## Bakıda "Güclü və nüfuzlu vəkillik - müasir dövrün çağırışları" mövzusunda beynəlxalq konfrans keçirilib




Azərbaycanda vəkilliyin yaradılmasının 100 illiyi münasibətilə keçirilən silsilə tədbirlər çərçivəsində oktyabrın 4-də Bakıda Azərbaycan Respublikası Vəkillər Kollegiyasının və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GIZ) birgə təşkilatçılığı ilə "Güclü və nüfuzlu vəkillik - müasir dövrün çağırışları" mövzusunda beynəlxalq konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikası Prezidentinin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi, şöbə müdiri Fuad Ələsgərov, Ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov, Ali Məhkəmənin sədri Ramiz Rzayev, Baş prokuror Zakir Qaralov, Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, Azərbaycan Respublikası Birinci vitse-prezidentinin köməkçisi Gündüz Kərimov, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin Azərbaycan üzrə direktoru Sonya Fonteyn, hüquq layihəsinin rəhbəri Tomas Herrman, Milli Məclisin deputatları, məhkəmələrin sədrləri və hakimləri, prokurorluq və ədliyyə orqanlarının nümayəndələri, o cümlədən 20-dən çox ölkənin vəkillər kollegiyalarının rəhbərləri və üzvləri, Avropa Şurasının, BMT-nin və digər beynəlxalq təşkilatların, habelə dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının nümayəndələri, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvləri, hüquq ictimaiyyətinin təmsilçiləri iştirak ediblər.

İki sessiyada keçirilən konfransın məqsədi beynəlxalq ekspertlərin və dünyanın müxtəlif ölkələrinin vəkillər kollegiyalarının nümayəndələrinin vəkillik peşəsinin idarəetmə və rolu ilə bağlı perspektivlərinin müzakirəsi olub. Tədbirdə müvəkkillərin insan hüquqlarının müdafiəsini həyata keçirərkən vəkillərin əməl etməli olduqları tələb və şərtlərin müqayisəli təhlili aparılıb. Konfrans iştirakçılarının çıxışları əsasən vəkillik peşəsinin təşkili və idarəetməsi, vəkil etikası və vəkillərin peşəyə qəbulu mövzularına həsr edilib.

Azərbaycan Respublikası Prezidentinin Hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi, şöbə müdiri Fuad Ələsgərov konfransda çıxış edərək bildirib ki, ölkəmizdə vəkillik mürəkkəb inkişaf yolu keçib. Bu təsisat özünün ən yüksək inkişaf səviyyəsinə Azərbaycan müstəqilliyini bərpa edəndən sonra nail olub. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və 1995-ci ildə referendum yolu ilə qəbul edilmiş Konstitusiya cəmiyyətimizin müasir, demokratik, dünyəvi, hüquqi dövlət quruculuğu mərhələsinə keçidinin bünövrəsini qoyub. Azərbaycanda fundamental hüquqi iqtisadi sosial islahatların aparıldığı, azad sahibkarlığın inkişaf etdirildiyi şəraitdə yeni tipli vəkillik təsisatına zərurət yaranıb. Müstəqil Azərbaycanın yeni demokratik Konstitusiyası vəkilliyin hüquqi vəziyyətinin köklü şəkildə dəyişməsinə və onun insan hüquq və azadlıqlarının səmərəli təmini mexanizmi qismində formalaşmasına əsas yaradıb.

"İnsan hüquqlarının etibarlı müdafiəsi sabiq demokratik dövlətin təməl daşı və hər bir cəmiyyətin yetkinliyinin göstəricisidir. Bu mənada 1998-ci ildə islahatların növbəti mərhələsində qəbul edilmiş "Vəkillər və vəkillik haqqında" qanun hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ daxil olmaqla Konstitusiyada təsbit edilmiş hüquq və azadlıqların real təminatı kimi böyük əhəmiyyət kəsb edib. Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin iştirakı ilə hazırlanmış bu qanun vəkillərin yeni hüquqi statusunu və müstəqilliyinin təminatını müəyyən edib. Habelə digər qanunvericilik aktları ilə birlikdə tərəflərin prosessual bərabərlik prinsipi təsbit edilib. Bununla belə, cəmiyyətin təkamül prosesi dayanmır" deyə Prezidentin köməkçisi vurğulayıb.

Fuad Ələsgərov vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizin dayanıqlı tərəqqisinin təmin edilməsinə yönəlmiş ardıcıl siyasət həyata keçirir. Məhkəmə-hüquq islahatlarının dərinləşməsi, o cümlədən vəkillik təsisatının möhkəmləndirilməsi bu siyasətin prioritetlərindəndir. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 2018-ci il fevralın 22-də imzaladığı sərəncam bu sahədə atılan vacib addımların bariz nümunəsidir. Sərəncamda ədalət mühakiməsinin səmərəli fəaliyyəti üçün güclü və nüfuzlu vəkillik təsisatının əhəmiyyəti xüsusi qeyd olunub. Həmin sənəddə bu təsisatın təkmilləşdirilməsi məqsədilə nəzərdə tutulmuş tədbirlərin əsas istiqamətləri ölkənin regionlarındakı vəkillik qurumlarının fəaliyyətinin genişləndirilməsi, Vəkillər Kollegiyasının maddi-texniki təminatının daha da yaxşılaşdırılması, habelə aztəminatlı şəxslər üçün hüquqi xidmətlərin əlçatanlığının artırılmasıdır. Sərəncama əsasən, aztəminatlı şəxslərə pulsuz hüquqi yardımın göstərilməsi ilə bağlı vəkillərə dövlət tərəfindən ödənilən məbləğ üç dəfə artırılıb. Eyni zamanda, sərəncamda Vəkillər Kollegiyasına bir sıra tövsiyələr verilib. Xüsusilə gənc hüquqşünasların vəkilliyə cəlb edilməsi yolu ilə ölkədə vəkillərin sayının artırılması tövsiyə olunub. Kollegiya rəhbərliyinin bu istiqamətdə məqsədyönlü fəaliyyəti nəticəsində sərəncamın qəbulundan ötən dövr ərzində ölkədə vəkillərin sayı, demək olar ki, iki dəfə artıb və bu proses davam edir.

Ədliyyə naziri Fikrət Məmmədov qeyd edib ki, vəkillik peşəsi Azərbaycanda qədim və zəngin köklərə malikdir. Bu şərəfli peşə barədə ilk məlumatlar hələ miladdan əvvəl "Avesta"da - Azərbaycan ərazisində mövcud olmuş zərdüştilik dininin müqəddəs kitabında əks olunub. Azərbaycan vəkilliyi zəngin və keşməkeşli inkişaf yolu keçib. Vəkilliyin mühüm hüquq təsisatı kimi formalaşmasının 1919-cu ilə - Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti dövrünə təsadüf etməsi, cümhuriyyət hökumətində vəkillərin geniş təmsil olunması xüsusilə əlamətdardır. Təbii ki, Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra totalitar rejimin mahiyyətinə uyğun olaraq müstəqil vəkillik institutundan söhbət gedə bilməzdi. Sovet dönəmində vəkillik qurumu müstəqil olmayıb, onilliklər ərzində Ədliyyə Nazirliyinin faktiki tabeliyində olub və fəaliyyəti müxtəlif əsasnamələrlə tənzimlənib.

Nazir Fikrət Məmmədov qeyd edib ki, vəkillik xidməti müstəqil hüquq təsisatı kimi yalnız Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra Ümummilli Lider Heydər Əliyev tərəfindən formalaşdırılıb. Məhz ölkəmiz üçün demokratik hüquqi dövlət quruculuğu yolu seçmiş Dahi Öndərin rəhbərliyi ilə həyata keçirilən hüquqi islahatlar çərçivəsində vəkillik haqqında ilk dəfə ayrıca qanun qəbul olunub, onun müstəqil təsisat kimi inkişafına əsaslı zəmin yaradılıb. Bu gün məhkəmə-hüquq sistemində mühüm və əvəzsiz rolu olan vəkillik Prezident İlham Əliyevin rəhbərliyi ilə mütərəqqi islahatlar aparılmaqla təkmil bir struktura çevrilir, onun fəaliyyətinin müasir tələblər səviyyəsində qurulması naminə mühüm tədbirlər görülür. Vəkillik təsisatının böyük əhəmiyyəti nəzərə alınaraq vəkilliyin inkişafına dəstək vermək məqsədilə dövlət başçısının ötən il imzaladığı sərəncam xüsusi qeyd olunmalıdır.

Ali Məhkəmənin sədri Ramiz Rzayev bildirib ki, Azərbaycan müstəqilliyin bərpasından sonra demokratik dəyərlərə sadiq qalaraq dövlət quruculuğu siyasətini uğurla davam etdirib. Ulu Öndər Heydər Əliyev demokratik dövlət quruculuğunun müasir prinsiplərinə istinad edərək bu prinsiplərin uğurla həyata keçirilməsini təmin edib. Hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda demokratik dövlət quruculuğu prosesi uğurla davam etdirilir. Son dövrlərdə Azərbaycanda vəkillik institutunun inkişafı ilə bağlı keçirilən islahatlar, vəkillərin sayının kifayət qədər artırılması, maddi-texniki bazanın möhkəmləndirilməsi insan hüquq və azadlıqlarının müdafiəsinə layiqli töhfə verəcək.

Baş prokuror Zakir Qaralov çıxışında Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi siyasi kursa uyğun olaraq Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məhkəmə-hüquq islahatlarının insan hüquq və azadlıqlarının etibarlı müdafiəsinin təmin olunmasına xidmət etməklə dövlətin hüquq siyasətinin başlıca istiqamətlərindən birini təşkil etdiyini diqqətə çatdırıb. Zakir Qaralov son illər ölkəmizdə məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi ilə əlaqədar vəkillik institutunun da təkmilləşdirilməsi istiqamətində mühüm işlərin görüldüyünü diqqətə çatdırıb. Ölkəmizin davamlı tərəqqisini təmin etmək üçün bütün sahələrdə həyata keçirilən islahatların məhkəmə-hüquq sisteminin inkişafına, bu sahədə yeni mərhələnin başlanmasına şərait yaratdığını vurğulayan Baş prokuror bildirib: "Həyata keçirilən mütərəqqi islahatlar vəkillik institutunun öz fəaliyyətini müasir dövrün tələblərinə və beynəlxalq standartlara uyğun təşkil etməsinə, regionlarda hüquq infrastrukturunun genişlənməsinə, onun kadr korpusunun gənc hüquqşünaslar hesabına formalaşdırılmasına, vətəndaşlara daha keyfiyyətli hüquqi yardım göstərməsinə şərait yaradıb".

Baş prokuror qeyd edib ki, vətəndaşların hüquqlarının etibarlı müdafiəsi üçün dövlət qayğısına ehtiyacı olan, sosial cəhətdən əhalinin həssas qrupuna, aztəminatlı ailələrə və digər şəxslərə Vəkillər Kollegiyası tərəfindən hüquqi yardımın göstərilməsi ilə bağlı fəaliyyətin genişləndirilməsi dövlətin sosialyönümlü siyasətinə dəstək verir.

Cari il iyunun 28-də Vəkillər Kollegiyası ilə Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi arasında korrupsiya ilə mübarizə sahəsində qarşılıqlı əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalandığını xatırladan Zakir Qaralov qarşılıqlı əməkdaşlığın bundan sonra da qanunun aliliyi və insan hüquqlarının təmin olunmasına, müasir dövrün tələblərinə cavab verən ədalət mühakiməsinin effektivliyinin artmasına xidmət edəcəyinə əminliyini bildirib.

GIZ-in Azərbaycan üzrə direktoru Sonya Fonteyn, cəmiyyətin hüquq layihəsinin rəhbəri Tomas Herrman çıxışlarında konfransın əhəmiyyətini yüksək qiymətləndiriblər.

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri Anar Bağırov çıxışında 2019-cu ilin Azərbaycan vəkilliyi üçün əlamətdar olduğunu, bununla əlaqədar kollegiya tərəfindən silsilə tədbirlərin keçirildiyini bildirib. O, konfransın məqsədi və proqramı barədə məlumat verib, son dövrdə Azərbaycanda vəkillik peşəsinin inkişafı istiqamətində görülən tədbirlər, Azərbaycan Prezidentinin 2018-ci il 22 fevral tarixli sərəncamının, 2019-cu il 3 aprel tarixli fərmanının əhəmiyyətindən, ölkəmizdə bu sahədə mövcud çatışmazlıqların aradan qaldırılması və məhkəmə-hüquq islahatlarının dərinləşdirilməsindən danışıb. Kollegiyanın sədri konfransın müxtəlif ölkələrlə təcrübə mübadiləsi və gələcək əməkdaşlıq baxımından əhəmiyyətini qeyd edib.

Sonra Türkiyə Barolar Birliyinin sədri, Türkdilli və Əqrəba Ölkələrin Vəkillik Təşkilatları Birliyinin (Türk-Av) rəhbəri Mətin Feyzioğlu, Rusiya Federal Vəkillər Palatasının prezidenti Yuri Pilipenko, Gürcüstan Vəkillər Kollegiyasının sədri David Asatiani, Bütöv Çin Vəkillər Birliyinin vitse-prezidenti Cu Cenqfu, İran Vəkillər Kollegiyası Birliyinin rəhbəri Morteza Şahbazinia, Belarus Respublikası Vəkillər Kollegiyasının sədri, Belarus Milli Məclisinin Qanunvericilik və hüquq siyasəti daimi komissiyasının sədr müavini Viktor Çaiçits, Ukrayna Milli Vəkillər Kollegiyasının prezidenti Lidiya İzovitova, Özbəkistan Respublikası Vəkillər Palatasının sədri Alim Ernazarov, Litva Vəkillər Kollegiyasının vitse-prezidenti Mindauqas Kukaitis vəkillik fəaliyyətində müasir çağırışlarla bağlı ölkələrinin təcrübələrini bölüşüblər.

Konfrans çərçivəsində tədbir iştirakçıları ölkəmizin mədəniyyəti, eləcə də bölgələri ilə tanış olacaqlar.

Qeyd edək ki, yubiley tədbirləri çərçivəsində Bakıda vəkillər arasında futbol üzrə birinci Cənubi Qafqaz beynəlxalq turniri start götürüb. Turnirdə Azərbaycan, Gürcüstan, Rusiya, Türkiyə, Belarus, İran, Polşa, Qazaxıstan, Özbəkistan və Bolqarıstanı təmsil edən 16 komanda birincilik uğrunda mübarizə aparır.

# Nüfuzlu "China Daily" qəzeti Azərbaycan Prezidentinin ÇXR Sədrinə ünvanladığı təbrik məktubu haqqında yazır




Çinin ingilis dilində nəşr olunan nüfuzlu "China Daily" qəzeti Azərbaycan Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının yaranmasının 70-ci ildönümü münasibətilə Sədr Si Cinpinə ünvanladığı təbrik məktubu barədə xəbər yayıb.

"China Daily"nin AZƏRTAC-a istinadla yaydığı məlumatda dövlət başçısının Çinin ötən illər ərzində böyük inkişaf yolu, qazandığı uğurlar barədə fikirlərinə geniş yer verilib. Həmçinin Prezident İlham Əliyevin Azərbaycan-Çin münasibətlərinin inkişafı, o cümlədən Çin liderinin müəllifi olduğu irimiqyaslı transmilli beynəlxalq əməkdaşlıq layihəsi olan "Bir kəmər, bir yol" təşəbbüsünün Avrasiya məkanının çiçəklənməsi üçün geniş imkanlar açması, ölkəmizin Azərbaycan-Çin əməkdaşlığına böyük əhəmiyyət verməsi barədə fikirləri yer alıb.

Qeyd edək ki, AZƏRTAC ilə "China Daily" qəzeti arasında əməkdaşlığa dair razılıq agentliyin İdarə Heyətinin sədri Aslan Aslanovun Şanxay Əməkdaşlıq Təşkilatının birinci Media Sammitində iştirak etmək üçün ötən ilin iyununda Pekinə səfəri çərçivəsində qəzetin rəhbərliyi ilə görüşündə əldə edilib. Ötən müddətdə tərəflər informasiya mübadiləsi həyata keçirməklə yanaşı, AZƏRTAC "China Daily"nin müxtəlif layihələrinə dəstək verib, agentliyin əməkdaşları qəzetin təlim proqramlarında iştirak ediblər. Cari ilin mayında "China Daily" tərəfindən AZƏRTAC-a "Fəxri beynəlxalq media tərəfdaşı-2019" mükafatı təqdim olunub.

Ümumilikdə, 100 milyondan çox çap və onlayn abunəçisi olan "China Daily" təkcə Çində deyil, regionda, eləcə də dünyada ingilis dilində nəşr edilən ən nüfuzlu qəzetlərdən biridir. Qəzetin xarici ölkələrdəki oxucularının sayı yerli oxuculardan daha çoxdur. Bu da qəzetin qlobal səviyyəli nəşr olduğunun göstəricisidir.

# AFFA "Düdelanj"-"Qarabağ" oyununda baş verən təxribatla bağlı bəyanat yayıb

AFFA UEFA Avropa Liqasının qrup mərhələsinin ikinci turunda Lüksemburqda keçirilən "Düdelanj"-"Qarabağ" oyununda baş verən təxribatla bağlı bəyanat yayıb.

AZƏRTAC AFFA-nın saytına istinadla xəbər verir ki, bəyanatda oyunun 30-cu dəqiqəsində "Qarabağ" komandasının vurduğu ikinci qoldan sonra meydanın üzərində uçan aparat - dronun peyda olduğu vurğulanıb. Qeyd edilib ki, üzərində separatçı qondarma "Dağlıq Qarabağ respublikası"nın bayrağı asılmış idarə olunan uçuş aparatı meydanın mərkəzinə doğru yönəldilib. Bunun nəticəsində baş hakim oyunun dayandırılması barədə qərar qəbul edib. Təxminən 20 dəqiqədən çox yaranmış məcburi fasilədən sonra oyun dayandırıldığı dəqiqədən davam etdirilib.

Təxribata görə yaranmış fasilə müddətində Lüksemburqun İdman naziri insidentə görə ölkəsinin hökuməti adından "Qarabağ" komandasından və azarkeşlərdən üzr istəyib. "Qarabağ" klubunun nümayəndələri yaranmış vəziyyətlə əlaqədar narahatlıq və narazılıqlarını yerindəcə "Düdelanj" klubuna və UEFA təmsilçilərinə bildiriblər. AFFA rəhbərliyi təcili şəkildə UEFA ilə əlaqə saxlayaraq hadisə ilə bağlı narahatlığını ifadə edib. Bundan əlavə, AFFA artıq UEFA-ya şikayət məktubu ünvanlayaraq müvafiq qaydada ölçü götürülməsini tələb edib.

"Futbol qarşılıqlı ehtiram, idman ruhu və bərabərlikdir. Təəssüf ki, bəzi qüvvələr futbolu siyasi təxribatlar meydanı kimi görürlər. "Josy Barthel" stadionunda rastlaşdığımız hadisə, eyni zamanda, futbolçuların təhlükəsizliyini şübhə altına salır. Ümid edirik ki, gələcəkdə bu cür halların baş verməməsi üçün müvafiq addımlar atılacaq. İnanırıq ki, UEFA araşdırma apararaq oyunun gedişində baş vermiş xoşagəlməz hadisə ilə bağlı müvafiq qərar qəbul edəcək.

AFFA "Qarabağ" komandasının futbolçularına təxribata uymadıqlarına, emosiyalarına nəzarət etdiklərinə və peşəkar davranışlarına görə təşəkkür edir. Komanda UEFA-nın dəyərlərinə əsl ehtiramını nümayiş etdirdi: hakimin qərarına hörmət, rəqibə hörmət, azarkeşlərə hörmət!

Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir! Erməni silahlı birləşmələrinin işğalı nəticəsində Azərbaycan tarixi torpaqlarının bir hissəsini itirib, bir milyondan artıq həmvətənimiz uzun illərdir ki, qaçqın və məcburi köçkün şəraitində yaşamaq məcburiyyəti qarşısında qalıb. "Qarabağ" futbol dünyasında azsaylı klublardan biridir ki, siyasi münaqişə üzündən, erməni silahlı birləşmələrinin işğalı ucbatından ev oyunlarını doğma stadionunda - təmsil etdiyi Ağdam rayonunda keçirə bilmir.

Azərbaycan Futbol Federasiyaları Assosiasiyası bütün futbol oyunlarının FIFA və UEFA-nın müəyyənləşdirdiyi dəyərlərə hörmət ruhunda keçirilməsini dəstəkləyir, futbol oyunları zamanı siyasi təxribat cəhdlərini qəti şəkildə pisləyir!", - deyə bəyanatda qeyd olunub.

# Kənd Təsərrüfatı Nazirliyinin nümayəndə heyəti Fransada heyvandarlıq sərgisinin açılışında iştirak edib

Fransadakı səfirliyimizin və Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin təşkilatçılığı və dəstəyi ilə ölkəmiz Fransanın Overn-Ron-Alp regionunun Klermon-Ferran şəhərində "Sommet de l'elevage" ("Heyvandarlıq zirvəsi") adlı beynəlxalq heyvandarlıq sərgisində təmsil olunub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan nümayəndə heyətinə Kənd Təsərrüfatı naziri İnam Kərimov rəhbərlik edib. Əvvəlcə nümayəndə heyətimizin üzvləri Klermon-Ferran meriyasında keçirilən sərginin rəsmi açılışında iştirak ediblər. Açılışa bir çox ölkənin kənd təsərrüfatı nazirləri, Fransada akkreditə olunmuş səfirliklərin nümayəndələri, heyvandarlıq üzrə mütəxəssislər qatılıblar.

Sonra nümayəndə heyətimiz Overn Zenit mərkəzində təşkil olunmuş beynəlxalq heyvandarlıq sərgisinə gəlib.

Nazir İnam Kərimovun rəhbərlik etdiyi nümayəndə heyətini sərginin təsisçisi Roje Blan və ADEPTA şirkətinin Qafqaz üzrə rəhbəri Roşel Levi qarşılayıb.

R.Blan nümayəndə heyətimizə sərginin tarixi haqqında məlumat verib. Sonra sərgi salonları ilə tanışlıq olub. Azərbaycan nümayəndə heyətinin üzvləri xırda və iribuynuzlu, eləcə də ətlik və südlük heyvanlar, onların müxtəlif iqlim şəraitinə dözümlülüyü barədə məlumatlandırılıblar. Eyni zamanda sərgi çərçivəsində heyvandarlıq sahəsində müvafiq texnologiyalarla tanışlıq olub. Süni mayalanma, südün saxlanılması, heyvan yemlərinin hazırlanması, kənd təsərrüfatı texnikası ilə bağlı suallar mütəxəssislər tərəfindən cavablandırılıb.

Nazir İnam Kərimov sərgidə nümayiş olunan ətlik və südlük, xırda və iribuynuzlu heyvan cinslərindən hansının daha çox fayda verdiyi və ölkəmizin iqlim şəraitinə uyğunlaşdırılması yollarına dair azərbaycanlı fermerlərlə birlikdə fikir mübadiləsi aparıb.

Oktyabrın 4-dək davam edəcək sərgiyə ölkəmizin 10-dan çox fermeri, eləcə də assosiasiyaların rəhbərləri qatılıb.

Klermon-Ferran beynəlxalq heyvandarlıq sərgisi dünyanın ən böyük ixtisaslaşmış sərgisidir. Sərgidə dünyanın 38 ölkəsindən 1560 şirkət iştirak edir.

# Azərbaycan dünyada və regionda baş verən proseslərdə fəal mövqe nümayiş etdirir





Oktyabrın 4-də Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədovun sədrliyi ilə Yeni Azərbaycan Partiyası Yevlax şəhər təşkilatının ərazi ilk partiya təşkilatları sədrlərinin müşavirəsi keçirilib.

Müşavirədə Milli Məclisin Aqrar siyasət komitəsinin sədri, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü Eldar İbrahimov, YAP Yevlax şəhər təşkilatının sədri, Milli Məclisin deputatı İlham Məmmədov, Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Qoca Səmədov və başqaları iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Yevlax şəhər Mədəniyyət Mərkəzində keçirilən müşavirədə çıxış edən Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-icra katibi Əli Əhmədov Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycanın ötən illər ərzində böyük inkişaf yolu keçdiyini, iqtisadiyyatın artması, əhalinin sosial rifahının yüksəldilməsi, ölkəmizin beynəlxalq müstəvidə mövqeyinin gücləndirilməsi istiqamətində mühüm addımlar atıldığını söyləyib.

YAP sədrinin müavini deyib ki, Azərbaycan dövləti gücləndikcə əhalinin rifah halının daha da yüksəldilməsi istiqamətində növbəti addımlar atılacaq. Azərbaycanın beynəlxalq miqyasda da nüfuzunun davamlı olaraq artdığını deyən Əli Əhmədov ölkəmizin dünyada və regionda baş verən proseslərdə fəal mövqe nümayiş etdirdiyini söyləyib.

Əli Əhmədov, həmçinin bu il ölkəmizdə bələdiyyə seçkilərinin keçiriləcəyini deyib və Yeni Azərbaycan Partiyasının bu seçkilərə hazırlığı məsələləri haqqında fikirlərini bildirib. Qeyd edib ki, bələdiyyə seçkiləri ilə əlaqədar ölkədə siyasi canlanma müşahidə olunur. Baş Nazirin müavini Yeni Azərbaycan Partiyasının böyük resurslarının və seçki təcrübəsinin olduğunu deyərək, bu seçkilərdə də uğur qazanılacağına əminliyini ifadə edib.

Müşavirədə bələdiyyə seçkilərinə hazırlıq və ictimai-siyasi məsələlərlə bağlı tövsiyə və tapşırıqlar verilib.

# Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Yevlaxda gənclərlə görüş keçirilib





Oktyabrın 4-də Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Yevlax şəhərində gənc fəallarla görüş keçirilib.

Görüşdə Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, YAP Yevlax rayon təşkilatının sədri, Milli Məclisin deputatı İlham Məmmədov, Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Qoca Səmədov iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Yevlax şəhərinin mərkəzi meydanında Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə tər gül dəstələri qoyulub.

Yevlax şəhər Mərkəzi Kitabxanasında keçirilən tədbirdə Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov çıxış edərək müstəqil Azərbaycanın keçdiyi inkişaf yolundan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda bütün sahələrdə əldə edilən uğurlardan danışıb, uğurlu siyasət nəticəsində ölkəmizi daha firavan gələcəyin gözlədiyini diqqətə çatdırıb.

1992-1993-cü illərdə respublikanın ağır vəziyyətini, iqtisadi tənəzzülü, hərc-mərcliyi gənclərin diqqətinə çatdıran Əli Əhmədov bildirib ki, böyük siyasi xadim Heydər Əliyev hakimiyyətə gəldikdən sonra ölkədə sabitlik, əmin-amanlıq yaradıldı, separatizm aradan qaldırıldı, dövlət müstəqilliyi möhkəmləndi, iqtisadi islahatlar həyata keçirilməyə başlandı.

YAP sədrinin müavini bildirib ki, bu gün Ulu Öndər Heydər Əliyevin siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan ötən illər ərzində böyük inkişaf yolu keçib, iqtisadiyyatın artması, əhalinin sosial rifahının yüksəldilməsi, ölkəmizin beynəlxalq müstəvidə mövqeyinin gücləndirilməsi istiqamətində mühüm addımlar atılıb, infrastruktur yenidən qurulub, geniş tikinti-quruculuq işləri həyata keçirilməyə başlanıb, insanları narahat edən problemlər aradan qaldırılıb.

"Bu gün Azərbaycan hökumətinin əsas məqsədi gənc nəslin arzuladığı cəmiyyəti onlara təqdim etməkdir", - deyən Baş Nazirin müavini bildirib ki, bu ümumi məqsədə nail olmaq üçün var gücümüzlə çalışırıq. Bunun üçün gənc nəslin daha yaxşı təhsil alması və zəngin biliklərə yiyələnməsi tələb olunur. Yaxşı yaşamağın, cəmiyyətin layiqli vətəndaşı olmağın yeganə yolu zəngin, etibarlı, dərin biliklərə yiyələnməkdir.

Baş Nazirin müavini deyib ki, son illər Azərbaycanda təhsil sahəsində böyük islahatlar həyata keçirilir: "İnanırıq ki, Azərbaycanın gələcəyi daha parlaq olacaq. Çünki bu parlaq gələcəyi yaratmağa qadir olan çox ləyaqətli gənclərimiz yetişib. Onlar gələcəkdə Ulu Öndər Heydər Əliyevin ideyalarını, eləcə də onun layiqli davamçısı olan Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti layiqincə davam etdirmək potensialına malikdirlər".

Milli Məclisin deputatı İlham Məmmədov çıxış edərək ölkəmizdə gənclərə göstərilən diqqət və qayğıdan, gənclərin dövlətə, dövlətçiliyimizə, Prezident İlham Əliyevin apardığı uzaqgörən siyasətə həmişə sədaqətli olmalarından danışıb, onlara uğurlar arzulayıb.

Görüşdə çıxış edən gənclər də ictimai-siyasi proseslərlə bağlı fikirlərini bildiriblər.

# Avropa İttifaqı ilə Azərbaycan hökumətinin məşğulluqla bağlı birgə həyata keçirdiyi Tvinninq layihəsi başa çatıb

"Dövlət məşğulluq xidmətlərinin modernləşdirilməsində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə dəstək" Tvinninq layihəsinin bağlanış mərasimi keçirilib.





Bağlanış mərasimində Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Jankauskas, Litva Respublikasının Sosial Təminat və Əmək naziri Linas Kukuraitisin rəhbərlik etdiyi nümayəndə heyəti, Litvanın Azərbaycan Respublikasındakı səfiri Eqidiyus Navikas, beynəlxalq qurumların nümayəndələri, Birləşmiş Millətlər Təşkilatının Tvinninq layihəsinin üzvləri və dövlət qurumlarının nümayəndələri iştirak edib.

Tədbirdə çıxış edən Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev bildirib ki, Litva, Avstriya Respublikasının və İsveç Krallığının ən yaxşı təcrübələri əsasında Avropa İttifaqı ilə Azərbaycan hökumətinin birgə həyata keçirdiyi "Azərbaycan Respublikasında Dövlət Məşğulluq Xidmətinin modernləşdirilməsi sahəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə dəstək" Tvinninq layihəsindən əldə olunan nəticələr uğurlu əməkdaşlığın bariz nümunəsidir. Layihənin icrasının daha 2 ay müddətinə uzadılması bu layihənin nazirlik üçün əhəmiyyətli və uğurlu olduğunu bir daha təsdiqləyir.

S.Babayev qeyd edib ki, Avropa İttifaqı ilə münasibətlər həm siyasi, həm də iqtisadi və mədəni sahələrdə uğurla həyata keçirilir. Müxtəlif sahələrdə, o cümlədən sosial müdafiə sisteminin gücləndirilməsi, tibbi-sosial reabilitasiya, sığorta-pensiya və digər sahələrdə birgə həyata keçirilən layihələr nazirliyin potensial imkanlarının artırılmasına xidmət edir.

Nazir Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilmiş "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nın ölkədə mövcud demoqrafik inkişaf perspektivlərinə və iqtisadi prioritetlərinə əsaslanaraq növbəti onillik üçün dövlət məşğulluq siyasətinin əsas prioritetlərini müəyyən etdiyini bildirib. Onun verdiyi məlumata görə, "İşsizlikdən sığorta haqqında", yeni "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarının qəbul olunması, elektron xidmətlərin tətbiqinin genişləndirilməsi ilə əlaqədar ölkə rəhbərliyinin müvafiq tapşırıqları işsiz və işaxtaran şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə, aktiv əmək bazarı tədbirlərinin səmərəliliyinin artırılmasına, inklüziv məşğulluğun təmin olunmasına və ən əsası, ölkədə əmək bazarında yeni tənzimləmə mexanizmlərinin formalaşdırılmasına zəmin yaradır.

Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri Kestutis Jankauskas, Litvanın Sosial Təminat və Əmək naziri Linas Kukuraitis, Litvanın Azərbaycan Respublikasındakı səfiri Eqidiyus Navikas da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə həyata keçirilən uğurlu əməkdaşlıqdan, "Dövlət məşğulluq xidmətlərinin modernləşdirilməsində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə dəstək" Tvinninq layihəsinin əhəmiyyətindən, layihə çərçivəsində keçirilən tədbirlərdən və əldə olunan nəticələrdən danışıblar.

Daha sonra Litva Respublikasının Sosial Təminat və Əmək nazirinin müavini, üzv dövlət tərəfindən layihə rəhbəri xanım Eqle Radişauskin və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin rəisi Fuad Musayev təqdimatlar ediblər.

Bağlanış mərasiminin sonunda "Dövlət məşğulluq xidmətlərinin modernləşdirilməsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə dəstək" Tvinninq layihəsi çərçivəsində təlimçilərin bilik və praktik bacarıqlarının inkişaf etdirilməsi üçün keçirilən "təlimçilər üçün təlim" proqramının iştirakçılarına sertifikatlar təqdim edilib.

Qeyd edək ki, "Dövlət məşğulluq xidmətlərinin modernləşdirilməsində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə dəstək" Tvinninq layihəsinə 2017-ci il sentyabrın 18-dən başlanılıb. Layihənin məqsədi Dövlət Məşğulluq Xidmətinin institusional potensialının, idarəçiliyinin və işinin gücləndirilməsi, işaxtaran və işəgötürənlərin ehtiyaclarını daha yaxşı qarşılamaqla dövlət tərəfindən həyata keçirilən məşğulluq xidmətlərinin müasirləşdirilməsi və təkmilləşdirilməsidir. Layihənin tərəfdaşları isə Avropa İttifaqı, Litva (əsas tərəfdaş), Avstriya və İsveçdir.

# İlham Əliyev: Qarabağ Azərbaycandır, nida

## Azərbaycan Prezidentindən Ermənistana növbəti siyasi-diplomatik zərbə

*Əvvəli 1-ci səh.*

Bu müharibədə Azərbaycanın torpaqları işğal olunsa da, uduzan məhz Ermənistandır. Öz təcavüzkar siyasətinin qurbanı olan Ermənistan bütün regional və beynəlxalq layihələrdən kənarda qalıb. Qonşuları ilə normal münasibətlər yarada bilməməsi səbəbindən iqtisadi blokadada qalıb və ötən əsrin 90-cı illərində necə idisə indi də səfalət içində yaşayır. Əhalisi sürətlə azaldığından hətta orduya əsgər çağırışında belə hər il ciddi problemlərlə üzləşir. Bu mənada Dağlıq Qarabağ münaqişəsi ilə bağlı status-kvonun dəyişməsi Azərbaycan üçün vacibdirsə, Ermənistan üçün daha önəmlidir. Status-kvonun dəyişməsi ilə bağlı həmsədrlər mövqelərini dəfələrlə açıq bildirsələr də ortada bir nəticə yoxdur. Çünki Ermənistan müxtəlif bəhanələr gətirməklə münaqişənin sülh yolu ilə həllini uzadır.

### Paşinyan özünü inkar edir

Ermənistanda ötən ilin may ayında baş verən hakimiyyət dəyişikliyindən sonra ölkənin yeni rəhbərliyi münaqişənin həlli ilə bağlı mövcud danışıqlar prosesinin ziddinə olan bəyanatlar verməyə başlamışdı. Bir çox hallarda isə baş nazir N.Paşinyanın atdığı addımlarla həmin bəyanatlar arasında ciddi ziddiyyətlər yaranmışdı. Əsas ziddiyyətli məqam isə Ermənistan tərəfinin danışıqlar prosesinin formatının dəyişdirilməsi, Dağlıq Qarabağdakı separatçı rejimin müzakirələrə cəlb edilməsi ilə əlaqədar cəhdləri idi. Təbii ki, bu yanaşma məqsədyönlü şəkildə bütün danışıqların əngəllənməsinə və iflic halına salınmasına gətirib çıxarmaqdan başqa bir şey deyildi. Ona görə prosesin formatının dəyişdirilməsi ilə bağlı Ermənistan rəhbərliyinin tələbləri ilk gündən beynəlxalq səviyyədə dəstəklənmədi. Mart ayında ATƏT-in Minsk qrupu həmsədrləri bəyanatla çıxış edərək formatın dəyişdirilməsinin qəbuledilməzliyini bildirdilər.

Bu ilin martında Vyanada Azərbaycan Prezidenti və Ermənistan baş naziri arasında keçirilən görüş Azərbaycanın növbəti diplomatik uğuru kimi tarixə düşdü. Bu görüşün keçirilməsi bir daha təsdiq etdi ki, danışıqlar yalnız Azərbaycan Respublikası və Ermənistan arasında aparılır və format dəyişməz qalır.

Format məsələsinə nöqtə qoyulduqdan sonra Ermənistanın baş naziri Nikol Paşinyan sülh danışıqlarını tormozlayan növbəti bəyanatla çıxış etdi. Belə ki, erməni baş nazirin avqust ayının əvvəllərində Azərbaycanın işğal olunmuş ərazilərini Ermənistan adlandırması onun bölgədə və ümumiyyətlə, dünyada baş verənlərdən nə dərəcədə xəbərsiz və aciz birisi olduğunu nümayiş etdirdi.

Azərbaycanın işğal olunmuş ərazilərinin ilhaqına çağırmaq beynəlxalq ictimaiyyətə, xüsusilə münaqişənin danışıqlar yolu ilə həllinə məsul olan ATƏT-in Minsk qrupunun həmsədrlərinə hörmətsizlikdən və məsuliyyətsizlikdən başqa bir şey deyildi. Bu mənada Ermənistan baş nazir səviyyəsində beynəlxalq hüququn norma və prinsiplərini, BMT Nizamnaməsini, Helsinki Yekun Aktını ayaq altına atdı, təhqir etdi və ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçilik etdiyi danışıqlar prosesini dalana dirədi. Bu addımı ilə Ermənistanın baş naziri özünü də inkar etdi. Yəni bir müddət əvvəl Dağlıq Qarabağ adından guya danışa bilməməsi haqqında bəyanatının cəfəngiyat və yalandan başqa bir şey olmadığını göstərdi. Bununla da Ermənistan rəhbərliyi açıq-aşkar göstərdi ki, Ermənistanın danışıqlar prosesində iştirakı riyakarlıq və beynəlxalq ictimaiyyəti aldatmaqdan başqa bir şey olmamışdır.

### Sergey Lavrovdan Paşinyana sərt cavab

Paşinyanın bu açıqlaması Ermənistanın ənənəvi tərəfdaşları tərəfindən də ciddi qəbul edilmir. Özü də nəinki qəbul edilmir, hətta belə bəyanatların siyasi prosesin tənzimlənməsinə kömək etmədiyi bildirilir. Məsələn, Rusiyanın Xarici İşlər naziri Sergey Lavrov "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasında Dağlıq Qarabağ prosesinin nizamlanması haqqında sualı cavablandırarkən deyib: "ATƏT-in Minsk qrupunun həmsədrləri sıx dostluq şəraitində çalışırlar. Onlar bu il üç dəfə xarici işlər nazirləri ilə görüşüblər, o cümlədən bu ilin aprelində mənim iştirakımla Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri ilə görüş keçirilib. İndi vəziyyət bir il əvvəlkindən sakitdir. Lakin siyasi proses yavaşıyıb və hələlik bu ləngiməni aradan qaldıra bilmirik. Tərəflər yetərincə ciddi bəyanatlar, o cümlədən Qarabağın Ermənistan olması barədə bəyanatlar verirlər. Şübhəsiz ki, belə bəyanatlar siyasi prosesin tənzimlənməsinə kömək etmir".

Rusiya XİN-in ATƏT-in Minsk qrupunun həmsədrləri ilə birgə işlədiyini vurğulayan S.Lavrov deyib: "Bu, az sayda hallardan biridir ki, bizim məsələyə baxışımız tamamilə eynidir, bizim baza sənədlərimiz var. Bizim dəfələrlə müzakirə olunmuş baza prinsiplərimiz var. Bu prinsiplər əsasında məsələnin həllini axtaracağıq. Amma məsələnin həlli birbaşa dialoq yolu ilə tapılmalıdır. Əlaqələr var, lakin nizamlanmaya dair dialoq hələlik bərpa olunmur".

Xatırladaq ki, bundan əvvəl ABŞ-ın Azərbaycandakı keçmiş səfiri, ATƏT-in Minsk qrupunun sabiq həmsədri, Atlantik Şuranın analitiki Metyu Brayzə Ermənistanın baş nazirinin bəyanatları ilə irəliləyiş əldə etməyin mümkün olmadığını bildirib: "Nikol Paşinyan öncə Ermənistan və Dağlıq Qarabağın vahid, daha sonra isə Dağlıq Qarabağın müstəqil olduğunu bəyan edib. Ermənistan hökumətinin yeni mövqeyi ilə məzmunlu danışıqlar aparmaq qeyri-mümkündür. Bu mövqe Azərbaycan üçün də tamamilə qəbuledilməzdir. Mediator olsaydım və Ermənistan yeni mövqeyində qalsaydı, buna aydın etiraz edib istefa verərdim. Belə ki, bu mövqe ilə irəliləyiş əldə etmək mümkün deyil. Bu, həmçinin ədalətli deyil".

### Nöqtəni məhv edən NİDA

Danışıqlar prosesinin nəticəsiz qalmasına rəğmən Azərbaycan dövləti torpaqların azad edilməsi üçün istər siyasi-diplomatik, istər iqtisadi və digər sahələrdə genişmiqyaslı iş aparır. Bu məsələdə əsas fəaliyyət istiqamətlərindən biri Ermənistanın işğalçı siyasətinin beynəlxalq miqyasda ifşasına nail olmaqdır. Respublikamız bunun üçün bütün imkanlardan səmərəli istifadə edir. Buraya beynəlxalq təşkilatlarla faydalı əməkdaşlıqdan tutmuş qlobal informasiya müharibəsində aktiv fəaliyyət, hücum diplomatiyasının həyata keçirilməsi və s. daxildir.

Ümumiyyətlə, Ermənistanın ifşası ilə bağlı fəaliyyət daimi olmalıdır. Prezident İlham Əliyev "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında çıxışı zamanı bunu yüksək siyasi-diplomatik peşəkarlıqla etdi. Bu, bütün Azərbaycan xalqının ürəyindən xəbər verən bir çıxış oldu. Prezident İlham Əliyev Ermənistanın baş nazirinin məlum bəyanatının yalan olduğunu vurğulayaraq dedi: "Həmçinin Ermənistan baş nazirinin təəccüb doğuran bəyanatına toxunmaq istərdim. Bu bəyanat təkcə Azərbaycanda təəccüblə qarşılanmayıb, ona Rusiya Federasiyası tərəfindən də "Valday" forumu çərçivəsində müvafiq cavab verilib. Beləliklə, bəyanat sözbəsöz belədir: "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə". Birincisi, yumşaq desək, bu, yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistan özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi".

Onu da qeyd edək ki, Azərbaycan Prezidentinin dünyanın məşhur "beyin mərkəzləri"ndən biri olan "Valday" Beynəlxalq Diskussiya Klubunun plenar iclasına dəvət olunması, habelə keçirilməsi nəzərdə tutulan çoxsaylı yüksəksəviyyəli görüşlər də dövlət başçımıza dünyada olan böyük hörmətin göstəricisidir. Kifayət qədər populyarlıq qazanmış bu beynəlxalq platformada bir çox ölkə rəhbərləri, dünyanın ən nüfuzlu akademik dairələri, siyasətçilər, jurnalistlər bəşəriyyətin qarşısında duran ən aktual problemləri müzakirəyə çıxarırlar.

Builki müzakirələrin kulminasiyası isə Prezident İlham Əliyevin çox ağıllı, düşünülmüş NİDA cavabı oldu. Bu, nəinki ermənilərə, eyni zamanda onların himayədarlarına da sərt və tutarlı cavab kimi tarixə düşdü. Məsələnin diqqəti çəkən başqa bir tərəfi odur ki, Azərbaycanın dövlət başçısı İlham Əliyev cavabı Bakıda deyil, ölkədən xaricdə - Rusiya Prezidenti Vladimir Putinin, İordaniya Kralı II Abdullanın, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin və Filippin Prezidenti Rodriqo Roa Dutertenin iştirak etdikləri mötəbər tədbirdə verdi.

Azərbaycan Prezidentinin Soçidə səsləndirdiyi bütün fikirlər dünya ictimaiyyətinə bir daha ciddi mesaj oldu. Prezident İlham Əliyev ölkəmizin və xalqımızın mənafeyini, milli maraqlarını qətiyyətlə qorudu. Azərbaycanın üzləşdiyi problemin əsl mahiyyətini dünya ictimaiyyətinə çatdırdı və haqqın bizim tərəfimizdə olduğunu əsaslandırdı. Təbii ki, bu çıxış Azərbaycan diplomatiyası qarşısında yeni hədəflər müəyyənləşdirdi. Bu hədəflərin uğurla qət edilməsi və Ermənistanın diplomatik sıxışdırılması torpaqlarımızın azad edilməsi istiqamətində ən mühüm vəzifələrdən biridir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## *Səməd SEYİDOV:* "Azərbaycan Prezidentinin bəyanatı işğalçı Ermənistan rəhbərliyinə yerində verilmiş tutarlı cavabdır"

Prezident İlham Əliyevin Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında səsləndirdiyi "Qarabağ Azərbaycandır və nida" bəyanatı Avropa Şurası Parlament Assambleyasının iclasında iştirak edən Azərbaycan nümayəndə heyəti tərəfindən böyük coşqu ilə qarşılandı. Dövlət başçısının cəsarətli çıxışı həm Avropa Şurası rəsmilərinin, həm də Şuraya üzv ölkələrin nümayəndələrinin marağına səbəb oldu.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, AŞ PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov söyləyib.

Səməd Seyidov deyib ki, Azərbaycan Prezidentinin Ermənistanın baş naziri Nikol Paşinyanın Xankəndidə səsləndirdiyi "Qarabağ Ermənistandır və nöqtə" sayıqlamasına cavab olaraq onu yalan adlandırması və Qarabağın əzəli, əbədi Azərbaycan torpağı olduğunu vurğulaması cəsarətli, beynəlxalq hüququn normalarına əsaslanan çıxış idi. Milli maraqlara əsaslanan bu bəyanat işğalçı ölkə rəhbərliyinə yerində verilmiş layiqli və tutarlı cavab idi. "Qarabağ Azərbaycandır və nida" cavabı qarşı tərəfi kəsərli qılınc kimi kəsərək onların məkrli niyyət və planlarını puç etdi. Prezidentin bu məntiqli bəyanatı bütün dünyaya bir mesajdır.

Milli Məclisin komitə sədri vurğulayıb ki, işğalçı Ermənistan və onun nümayəndələrinin məkrli planları heç bir nəticə verməyib və verməyəcək də. Paşinyan populist açıqlamaları ilə özünü yalnız dünya birliyinin gözündən salır. O, heç zaman dediklərinin arxasında durmayıb və bundan sonra da çətin ki, bunu bacara bilsin.

## "Qarabağ Azərbaycandır və nida işarəsi" gənclərin beynəlxalq kampaniyasına start verilib

Gənclər və İdman Nazirliyi və "Virtual Qarabağ" İnformasiya-Kommunikasiya Texnologiyaları Gənclər İctimai Birliyi "Qarabağ Azərbaycandır və nida işarəsi" gənclərin beynəlxalq kampaniyasına start verib.

AZƏRTAC xəbər verir ki, son vaxtlar Ermənistanın baş naziri də daxil olmaqla bu ölkənin rəsmiləri Azərbaycanın əzəli və tarixi torpaqları ilə bağlı təxribatçı bəyanatlarla çıxış edirlər. Azərbaycan Ermənistanın bu addımlarını "status-kvonu saxlamağa" yönəlmiş "qeyri-konstruktiv" addım kimi qiymətləndirib.

Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərinin ilhaqına çağırış ilə beynəlxalq hüququn norma və prinsiplərini, BMT Nizamnaməsini, Helsinki Yekun Aktını və BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələri açıq-aşkar tapdayır, təhqir edir və beynəlxalq ictimaiyyətə, xüsusilə münaqişənin danışıqlar yolu ilə həllinə məsul olan quruma qarşı hörmətsizlik nümayiş etdirir.

Ermənistanın baş nazirinin avqustun 5-də Xankəndidə "Qarabağ Ermənistandır və nöqtə" açıqlaması və Dağlıq Qarabağın Ermənistana "birləşdirilməsini" nəzərdə tutan "miatsum" deməsi bu ölkənin əsl məqsədinin işğalçılıq olmasının növbəti açıq ifşasıdır.

"Valday" Beynəlxalq Diskussiya Klubunun oktyabrın 3-də Rusiyanın Soçi şəhərində keçirilmiş XVI illik iclasının plenar sessiyasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxış edərək Ermənistan baş nazirinin "Qarabağ Ermənistandır və nöqtə" bəyanatının əsassız olduğunu vurğulayaraq, "Qarabağ tarixi əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi" deyib.

Prezidentin çıxışına dəstək olaraq, Gənclər və İdman Nazirliyi və "Virtual Qarabağ" İnformasiya-Kommunikasiya Texnologiyaları Gənclər İctimai Birliyi oktyabrın 7-dən "Qarabağ Azərbaycandır və nida işarəsi" gənclərin beynəlxalq kampaniyasına start verir. Kampaniyanın məqsədi Ermənistan rəsmilərinin yalan və əsassız bəyanatlarının ifşasının, o cümlədən Qarabağın Azərbaycana məxsusluğunu sübut edən faktların beynəlxalq ictimaiyyətin diqqətinə bir daha çatdırılmasını təmin etmək üçün gəncləri, gənclər təşkilatlarını, xaricdə təhsil alan və yaşayan azərbaycanlı gəncləri səfərbər etməkdir.

Kampaniya çərçivəsində tarixi sənədlər və faktlar, beynəlxalq qurumların qəbul etdiyi sənədlər, şəkillər və videolar "Facebook" və "Twitter" sosial şəbəkələrində #Karabakh #AllForKarabakh və #KarabakhIsAzerbaijan həştəqlərindən istifadə edilərək BMT-nin rəsmi dillərində tvitlər, postlar formasında paylaşılacaq.

# Təhsil xərclərinin maliyyələşdirilməsi üzrə müsabiqənin qalibləri ilə görüş keçirilib





Sosial müdafiəyə xüsusi ehtiyacı olan istedadlı tələbələrin təhsil xərclərinin maliyyələşdirilməsinə dair Azərbaycan Prezidenti İlham Əliyevin göstərişinə əsasən Gənclər Fondunun elan etdiyi müsabiqənin qalibləri ilə oktyabrın 4-də Bakı Konqres Mərkəzində görüş keçirilib.




AZƏRTAC xəbər verir ki, görüşdə müsabiqənin qalibi olan gənclər, onların valideynləri, dövlət rəsmiləri, Milli Məclisin deputatları, qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak ediblər.

Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov, Təhsil naziri Ceyhun Bayramov, Milli Məclisin Gənclər və idman komitəsinin sədri Ülvi Quliyev gəncləri təbrik edib, yeni tədris ilində onlara uğurlar arzulayıblar.

Çıxışlarda vurğulanıb ki, keyfiyyətli təhsilin gənclər üçün əlçatanlığının artırılması, savadlı, dövlətə, milli-mənəvi dəyərlərə bağlı gəncliyin yetişdirilməsi, gənclərə dövlət qayğısı, eləcə də sosial müdafiəyə ehtiyacı olan gənclərin dəstəklənməsi Prezident İlham Əliyevin həyata keçirdiyi dövlət gənclər siyasətinin əsas istiqamətlərindəndir. Dövlət başçısının təşəbbüskarı olduğu insan kapitalının inkişafı konsepsiyasına uyğun olaraq, son illər gənclər üçün hərtərəfli imkan yaradılır. Xüsusilə sosial həssas kateqoriyalara aid, I və II qrup əlilliyi olan gənclərin təhsil haqlarının dövlət vəsaiti hesabına ödənilməsi, gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilinin dəstəklənməsi və digər addımlar bu qəbildəndir.

Qeyd olunub ki, son bir il ərzində təhsilin inkişafı, tələbələrin sosial vəziyyətinin yaxşılaşdırılması və gənclərin xaricdə təhsili ilə bağlı dövlət başçısı tərəfindən bir neçə fərman və sərəncam imzalanıb, dövlət proqramları təsdiqlənib. Tələbələrin təqaüdü 20 faiz artırılıb və bu, 1100 gənci əhatə edib. Hazırda 500 azərbaycanlı gənc Çin, Rumıniya, Macarıstan, Latviya, Rusiya və digər ölkələrdə təhsil almaq hüququ qazanıb. Xaricdə fəaliyyət göstərən nüfuzlu ali təhsil müəssisələrinin ölkəmizdə filiallarının açılması və qarşılıqlı əməkdaşlığın qurulması və ikili attestat sisteminin tətbiqi istiqamətində mühüm işlər görülür.

Müsabiqənin qalibləri çıxışlarında gənclərə dövlət qayğısının artırılması ilə bağlı Prezident İlham Əliyevin növbəti təşəbbüsü olan hazırkı maliyyələşmə mexanizminin əhəmiyyətindən, xüsusilə sosial həssas kateqoriyalardan olan gənclər üçün təhsilin əlçatanlığının artırılmasına diqqət və qayğısından danışıblar. Gənclər təhsilin inkişafına, onlara göstərilən hərtərəfli dəstəyə görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

Çıxışlardan sonra tədbirdə qalib gənclərin uğur hekayələrindən bəhs edən videoçarxlar nümayiş olunub. Daha sonra müsabiqənin qalibləri ilə təhsil xərclərinin ödənilməsinə dair müqavilələr imzalanıb.

Xatırladaq ki, sosial müdafiəyə xüsusi ehtiyacı olan istedadlı tələbələrin təhsil xərclərinin maliyyələşdirilməsi üzrə 2018-ci ildə keçirilmiş müsabiqə nəticəsində 237, builki müsabiqə nəticəsində isə 425 gəncin təhsil haqqı xərclərinin dövlət tərəfindən ödənilməsi qərara alınıb.

## Ermənilər sosial şəbəkələrdə od püskürdülər:

# "Nida nöqtəni əzdi!"

## "Sarkisyandan sonra Paşinyan da İlham Əliyev qarşısında daim məğlubdur, bizim nə vaxt qalib rəhbərimiz olacaq?"

*Əvvəli 1-ci səh.*

Anna Zöhrabyan adlı daha bir "Facebook" istifadəçisi İlham Əliyevin Soçidə bəyanatının yer aldığı xəbərə münasibət bildirib. Yerevan Dövlət Pedoqoji Universitetinin tələbəsi olduğunu qeyd edən istifadəçi rəyində yazır: "Ötən zaman da göstərir ki, Azərbaycan istədiyinə daha sürətlə yaxınlaşır. Azərbaycan rəhbərinin belə açıqlama verməsi bir erməni gənci olaraq məni çox qıcıqlandırdı. Görəsən, bundan sonra Paşinyana nöqtə ilə nidanın fərqini başa salan tapılacaqmı? Azərbaycana tutarlı cavab verə bilmir və yəqin ki, bundan sonra da bilməyəcək. Çox təəssüf və qıcıq hissi ilə deyirəm ki, Paşinyan İlham Əliyevə davamlı şəkildə uduzur".

### "Sarkisyan və Paşinyan, ikiniz də bir zibilsiniz!"

"Facebook" sosial şəbəkəsində Anton Vaçaqa adlı biri iki yüz minlik bəyənməsi olan səhifədə şərh yazaraq Azərbaycan Prezidentinin Soçidə çıxışının yer aldığı xəbərə rəy bildirib: "İlham Əliyev Rusiyada yenə çox açıq mesajlar verdi. Sarkisyandan sonra Paşinyanın da İlham Əliyevdən çəkdikləri nədir? Çox qorxulu bir vəziyyətdir. Paşinyan ancaq evdə lovğalanır. Ölkədən kənara çıxdıqda burnunu ovub geri göndərirlər. Bugünkü Ermənistan bədbəxtdir, təkdir. Allah da bizi unudub" (Məyus işarəsi).

Daron Melkumyan isə "Odnoklassniki" sosial şəbəkəsində Sarkisyan və Paşinyanın şəklinin paylaşıldığı xəbərə rəy yazaraq vurğulayıb ki, Ermənistanı parlaq gələcək yox, parlaq ölüm gözləyir: "Ermənistanın xain və yarıtmaz rəhbərlərinin şəklini paylaşmaqda və onu dəstəkləməkdə məqsədiniz nədir? Göstəriş alaraq belə paylaşımlar edib niyə insanlarda qıcıq oyadırsınız? Belə ki, paylaşmısınız, mən də öz fikrimi əlavə edirəm. Serj Sarkisyan abırsız və ikiüzlü prezident idi. Bundan əvvəlki dövrdə Sarkisyan vətənimizi, zavodlarımızı, torpaqlarımızın yarısını quldur oliqarxlara, yarısını da xaricilərə satdı. Onun rəhbərliyi altında Ermənistan parlaq bazara çevrilib. Paşinyan gəldikdən sonra da dəyişən bir şey yoxdur. Hər ikisi xalqı yox, öz gələcəklərini fikirləşiblər. Açıq profildə yazdığım şərhə görə məni polis bölməsinə çağırıb incitsələr belə, yenə sözümü deyirəm: Sarkisyan və Paşinyan, ikiniz də bir zibilsiniz!"

### "Nikolun rəhbərliyi altında bizi parlaq gələcək yox, tam məhvolma gözləyir"

Aşot Dəmirçyan adlı birinin "Twitter" sosial şəbəkəsində etdiyi paylaşım çox bəyənmə toplayıb. Profilində Respublika Partiyasının üzvü olduğu diqqətçəkən istifadəçi yazır ki, Paşinyan bütün günü "Facebook"da canlı yayımlar təşkil edib, bəhanələr uydurmaqla ictimaiyyəti susdurmaqdansa, gedib İlham Əliyevə tutarlı cavab versin: "Soçidəki tədbirdə İlham Əliyev Paşinyanı, şahmat dili ilə desək, mat etdi. Ermənistanı İlham Əliyev qarşısında niyə məğlub duruma salırsınız? Faktiki olaraq o, Ermənistanı əzir. Amma biz buna cavab verə bilmirik. Əliyev bəyan edir ki, Ermənistan Qarabağ məsələsində geri çəkilməsə, daha ağır vəziyyətə düşəcək. Əslində, bu, belədir. Paşinyan hökuməti isə bunlara qarşı hansısa əks həmlə edə bilmir".

Dezik Poqosyan adlı istifadəçi isə "Facebook"da yazır: "Paşinyanın hakimiyyətə gəlməsi üçün hər şey etdik. Gecələr yuxusuz qaldıq. Lakin onun rəhbərliyi altında indiyədək Ermənistan hər sahədə məğlub olur, insanlar vətənlərindən qaçırlar. Beynəlxalq tədbirlərdə İlham Əliyev onu əzir. Azərbaycan Prezidentinə həmişə "hə", bizə isə "yox" deyirlər. Nikolun rəhbərliyi altında bizi parlaq gələcək yox, tam məhvolma gözləyir".

### "İlham Əliyev bütün sahələrdə Ermənistan üçün böyük qorxu yaradıb"

Eduard Karapetyan adlı istifadəçi "İnstagram" sosial şəbəkəsində xəbər portallarından birində İlham Əliyevin Soçidəki çıxışının əks olunduğu videogörüntüyə münasibət bildirib: "Dostlar, gəlin gördüklərimizi açıq şəkildə etiraf etməkdən çəkinməyək. Çox gülməlidir, elə deyilmi? Paşinyan nöqtə ilə danışır, İlham Əliyev isə nida ilə cavab verir. Hər halda fərqi göstərməyə ehtiyac yoxdur. Rusiyadakı son tədbirdəki "Qarabağ Azərbaycandır, nida!" açıqlaması ilə nida nöqtəni əzdi! Mən daha dərinə gedərək, hətta döyərək əzdi deyə bilərəm. İlham Əliyev bütün sahələrdə Ermənistan üçün böyük qorxu yaradıb. Azərbaycan əsgəri qarşısında duruş gətirməyən erməni əsgərlərinin səngərlərdə silahlarını qoyub qaçmalarını görməkdən bezmişik. Orduya xidmətdən yayınmaq məqsədilə ölkəni tərk etməkdən təngə gəlmişik. Bunun ən böyük səbəbkarı isə hakimiyyətdir".

### "Paşinyanın pafoslu çıxışlarına İlham Əliyev Soçidə zərbə vurdu"

Andronik Baqratyan adlı istifadəçi "VKontakte" sosial şəbəkəsində Azərbaycan və Ermənistan rəhbərlərinin şəklini paylaşaraq "Paşinyan, hər zaman sizinləyik" yazıb. Paylaşılan şəklə Qinos Eranosyanın şərhi isə daha çox bəyənmə toplayıb: "Soçidəki son açıqlamalardan sənin xəbərin yoxdur? İlham Əliyevin "Qarabağ Azərbaycanındır, nida işarəsi" deməsini necə qəbul edə bilirsən? Sən Ermənistanda yaşamırsan? Mətbuatı izləmirsən? Paşinyan hakimiyyətə gələndən ermənilər üçün nə edib? Yalançı vədlər, uydurma təkliflər (Əsəb işarəsi).

Levon Xaçaturyan adlı birinin "Facebook" sosial şəbəkəsindəki paylaşımı da maraqla qarşılanıb: "Acı reallıq olsa da, qəbul edək ki, bizim Sarkisyandan nə bəxtimiz gətirmişdi ki, Paşinyandan da gətirə. Pafoslu çıxışlarına, onun aktyorluğuna İlham Əliyev Soçidə nida ilə zərbə vurdu. İlham Əliyev Ermənistana od püskürür, bizimkinin isə susmaqdan başqa çarəsi yoxdur" (Məyus işarəsi).

Qeyd edilənlərdən, ermənilərin öz mövqeyindən belə bəlli olur ki, onlar Prezident İlham Əliyevdən layiqli cavab aldıqlarını etiraf edirlər və bunun getdikcə daha da sərtləşəcəyini gözləyirlər. Özü də təkcə diplomatik yox, həm də hərbi müstəvidə. Çünki bu gedişlə erməniləri, onların baş nazirini ağıllandırmaq üçün aprel dərslərini yeniləmək ciddi zərurətə çevrilir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Noyemberyan rayonunun Voskevan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber, Berd rayonunun Çinari kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Qazax rayonunun Quşçu Ayrım, Məzəm, Qızılhacılı, Tovuz rayonunun Əsrik Cırdaxan, Ağbulaq, Muncuqlu, Gədəbəy rayonunun Göyəli kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub. Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Füzuli rayonunun Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

# 5 Oktyabr Beynəlxalq Müəllimlər Günüdür

**Əlində məşəl bir yolçu müqəddəs səfərə çıxmışdı. Üz tutmuşdu bütün ellərə, obalara, kənd-kənd, ev-ev gəzərək məşələ od olacaq qığılcımları gəzirdi, axtarırdı - usanmadan, bezmədən...**

**İrəvanda, Naxçıvanda, Gəncədə, Şuşada, Şəkidə, Şamaxıda oldu, oradan da yolunu Bakıya, Qubaya saldı. Gah faytonla, araba ilə, qatarla, gah da piyada qət etdi bu məsafələri. İnamı üzülmürdü, bilirdi ki, mütləq həmin qığılcımları tapıb əlindəki məşələ od vuracaq və bu məşəlin ziyası əsrlər, minillər boyu doğma Azərbaycanın yoluna nur saçacaq...**

## Maarif məşəlini sönməyə qoymayanlar

Bu yolçu, Qori Seminariyasının Azərbaycan şöbəsinin inspektoru, müsəlman balaları üçün "Vətən dili" adlı dərsliyin müəllifi, ilk Azərbaycan müəllimlərinin müəllimi idi...

Milliyyətcə rus, ata-babaları vaxtilə Həştərxandan köçüb Şamaxının Mərəzə kəndində məskunlaşmış və özü də burada doğulub buranı doğma vətəni sayan, ağlı kəsəndən Azərbaycanın adət-ənənəsini, məişətini, dil və ədəbiyyatını incəliklərinə qədər öyrənib, ömrünü maarifçiliyə həsr edən, azərbaycanlıları seminariyada oxuyub təhsil almağa, maarifə, mədəniyyətə çağıran nurlu insan...

Uşaqlarını Qoriyə göndərmək istəməyən valideynlərin, mədrəsədəki mollaların görəndə tüklərinin biz-biz olduğu, "Allahu Əkbər" deyib üç dəfə salavat çevirdikləri, "Dəli Kür" filmində heyran olub sevdiyimiz Aleksey Osipoviç Çernyayevski...

"...Azərbaycanlılardan görkəmli maarif və mədəniyyət xadimləri daha çox yetişəcək. Onlar ana dillərində dərsliklər yazacaqlar, bu xalqın zəngin ədəbiyyatından, tarixindən cild-cild əsərlər hazırlayacaqlar. Bu gün mənim elədiklərim o zaman çox cüzi görünəcək. Mən bunu hər bir azərbaycanlı seminaristin simasında görürəm. İftixar edirəm ki, "Vətən dili" kitabını müsəlman balaları üçün mən tərtib etmişəm. Bu kitabın vasitəsilə təkcə Qori Seminariyasında deyil, ölkənin bütün qəzalarında olan ibtidai rus-Azərbaycan məktəblərində uşaqlar savad öyrənirlər. "Vətən dili" kitabının birinci hissəsini tələbəm Rəşid bəy Əfəndizadənin gözəl xətti ilə daş basmasında çap etdirdik, ikinci hissəsini Səfərəli bəy Vəlibəyovla birlikdə yazmışıq", - deyə təvazökarlıqla və sevinclə bildirirdi...

### İlk müəllimlərimiz

Fədakar müəllimin əməyi hədər getməmişdi və Qori Seminariyasında Azərbaycanlılar üçün açılan bölmə Şuşadan Firudin bəy Əhmədağa oğlu Köçərli, Səfərəli bəy Vəlibəyov, Lənkərandan Teymur bəy Məmməd bəy oğlu Bayrambəyov, Rəşid bəy Əfəndiyev, Qazaxdan İsmayılağa Mustafa oğlu Vəkilov və Məmmədağa İsmayılağa oğlu Şıxlınskinin sayəsində bağlanmamışdı, onlar maarif yolumuzda ilk müjdəçi qaranquşlar olmuşdular...

1918-ci il noyabrın 10-da isə Qazax Müəllimlər Seminariyasının açılışı xalqımızın təhsil tarixində əhəmiyyətli hadisə oldu. Seminariyada İsfəndiyar bəy Vəkilov - rus dili və təbiət elmləri; Yusif Qasımov - tarix fənləri; Əli Hüseynov - tarix və coğrafiya; Məhəmməd Hüseynzadə - riyaziyyat; İbrahim Əfəndi Qayıbov - ana dili fənlərindən dərs deməyə başladılar.

Xalqın maarifi və mədəniyyətinin inkişaf etdirilməsində, anadilli məktəblərin yaradılmasında, ana dilində dərsliklərin hazırlanmasında yuxarıda adları sadalanan fədakar müəllimlərin əvəzolunmaz xidmətləri var...

Və bu gün də xələflərinin yolunu davam etdirib xalqının maariflənməsi, elm alması yolunda öz doğmalarından, evindən, eşiyindən uzaqlara, lap ucqarlara yollanıb millətinin övladlarına elm, savad, bilik öyrədən gənc müəllimlərimiz, maarif məşəlini sönməyə qoymayanlarımız var...

### Düşmənə sipər Kəmərlinin cəsur müəllimi

...Lap tezdən, hələ dan üzü ağarmamış istiyə, küləyə, qara, çovğuna, sazağa baxmadan yola çıxır. Hər gün 41 kilometr yol qət edərək Qazax rayonunun Balaçaylı kəndindən Kəmərli kəndinə üz tutur...

Axı, İncəsu çayının sahilində, dağlarla əhatələnmiş dumanın üzük qaşı kimi halqaya aldığı, düşmənə sipər Kəmərlinin qorxmaz şagirdləri gözləyir yolunu...

Vətəninin hər qarışını, daşını, torpağını, meşələrini, gülünü, çiçəyini, taxıl zəmiləri uzanan düzlərini, başı qarlı dağlarını, Kürünü, Arazını, neft ətirli Abşeronunu tanımaq, öyrənmək üçün...

Kəmərli kəndinin balaları doğulduğu andan vətən keşikçilərinə çevrilirlər, qorxmaz cəsur olurlar. Elm öyrənirlər, biliyə yiyələnirlər, gecə-gündüz evlərində, sinif otaqlarında eşitdikləri düşmən atəşlərinin sədası altında...



**Aygün Adıgözəlova:** "Müəllimlik sənətinin də müqəddəsliyi elə məhz buna görədir ki, heç bir çətinliyə baxmadan harada təhsilə ehtiyacı olan bir uşaq varsa, özünü ona yetirir, bu yolda addımlamasına kömək edirsən"



**Əhliman Tapdıqlı:** "Müəllim şagirdin dostu olmalıdır. Onların maraqlarını, məqsədlərini bilməli və doğru yola yönəltməlidir"



**Könül Hacıyeva:** "Cocuq Mərcanlıda dərs dediyim üçün mən özüm də çox qürurluyam, burada olmaq fərqli hissdir. Və əgər bu gün bu torpaqda müəllimə ehtiyac varsa, mənim başqa seçimim ola bilməz. Vətən, torpaq qarşısında kiçik də olsa borcumu yerinə yetirməliyəm"

Həm kəndlərindəki, həm də doğma Azərbaycanın digər bölgələrindən onlarla, yüzlərlə kilometr yol qət edib bu ucqar, həm də düşmənlə həmsərhəd bölgəyə yollanıb onlara elm ziyası saçan müəllimlərinin sayəsində...

23 yaşlı coğrafiya müəllimi Aygün Adıgözəlova da belə fədakar müəllimlərdən biridir. Müəllimlərin işə qəbulu imtahanlarından topladığı yüksək balla şəhərdə, hansısa mərkəzə yaxın məktəblərdə dərs deməyi yox, Qazax rayonunun ucqarda, düşmənlə həmsərhəd bölgədə yerləşən Kəmərli kəndini seçib, buradakı uşaqların ona daha çox ehtiyacı olduğunu bildiyi üçün...

Əslən Qazaxın Balaçaylı kəndindən olan Aygün müəllimə hər gün uzaq yol qət edərək Kəmərlidə yerləşən Xanbağı kənd Aslan Bəbirov adına tam orta məktəbə yollanır. 2017-ci ildə Bakı Dövlət Universitetinin Qazax filialını bitirən gənc müəllim 2018-ci ildə müəllimlərin işə qəbulu imtahanında iştirak edir və 52 balla vakansiya yer kimi Qazax rayonunun Kəmərli kəndini seçir: "Kəmərli məktəbindəki yer vakansiyaya çıxarılanda mən bildirdim ki, məhz bu kənddə dərs demək istəyirəm. Valideynlərim, eşidənlər öncə tərəddüd edirdilər, deyirdilər ki, çox uzaqdır, sərhəd kənddir. Amma bu mövqelər mənim fikrimin yayınmasına səbəb olmadı.Yenə də Kəmərlini yazdım və çox şükür ki, elə ora da düşdüm. Kəmərli doğma Qazaxımın kəndidir, orada müəllimə tələbat var idisə, mənim başqa seçimim də ola bilməzdi. Düşündüm ki, ehtiyac varsa, mən məhz ora getməliyəm, nəinki başqa mərkəzə daha yaxın bölgələrə. Müəllimlik sənətinin də müqəddəsliyi elə məhz buna görədir ki, heç bir çətinliyə baxmadan harada təhsilə ehtiyacı olan bir uşaq varsa, özünü ona yetirir, bu yolda addımlamasına kömək edirsən".

### "Sevdiyimiz müəllimlik peşəsini yerinə yetirmək üçün məsafələr bizə əngəl deyil"

Müəllimliyə başladığı ilk dərs günü çox həyəcanlıydı. Görəsən necə olacaq, uşaqlarla dil tapa, onların sevgisini qazana, coğrafiya fənninə maraqlarını artıra biləcəkdimi? İlk zəngin səsi ilə sinfə daxil olan şagirdlərin üzündəki təbəssümü, maraq dolu ona dikilmiş nəzərləri gördükdə isə sanki üzərindən dağ götürülmüşdü: "Yavaş-yavaş uşaqlarla dil tapmağa, onların aurasını hiss etməyə başladım. Şagirdlərin mənə qarşı hörmətini, sevgisini, dərsə maraqlarını gördükcə daha da həvəsləndim. Bu ildən 7-ci sinfin sinif rəhbəriyəm. Çalışıram şagirdlərimə ənənəvi üsulla yox, hazırkı kurikulum sisteminin tələblərinə uyğun dərs deyim. Əyani vəsaitlərdən daha çox istifadə edim, onlarda coğrafiyaya daha çox həvəs yaradım ki, dərsə maraqla yanaşsınlar. İstəmərəm ki, kimsə mənim fənnimdən "2" qiymət alsın. Düzdür, dərs qavramı bütün şagirdlərdə eyni olmur, hər kəs əla səviyyədə öyrənmir, zəiflər də olur. Çalışıram zəif səviyyəsində oxuyan uşaq da diqqətsiz qalmasın, o da qavramasına görə maksimum səviyyədə həmin dərsi mənimsəyə bilsin. Həm də şagirdlərimlə dost olmağa çalışıram. Hər zaman deyirəm ki, dərs zamanı, yaxud sonra hansısa çətinliyiniz, maraqlandığınız məsələlərlə bağlı mənə suallarınızı ünvanlaya, kömək istəyə bilərsiniz. Hər zaman kömək, dəstək olmağa hazıram".

Kəmərli kəndində iki məktəb fəaliyyət göstərir və hər iki təhsil ocağı yeni tikilib, təhsil üçün lazım olan bütün şəraitlə, avadanlıqlarla təmin olunub. Ucqar Kəmərli kəndinə gələn müəllimlər buradakı gülərüz, qoçaq sakinlərin onlara olan mehriban və xoş münasibətlərindən də razılıq edirlər.

Aygün müəllimə deyir ki, şagirdlərin çalışqanlığı, sakinlərin uzun məsafələr qət edərək gəlib onların övladlarına dərs öyrədən müəllimlərə sevgi və minnətdarlıq hissi onlarda seçdikləri peşənin əvəzolunmazlığına dair qürur hissi yaradır: "Bir daha əmin oluruq ki, sevdiyimiz peşəni yerinə yetirmək üçün məsafələr bizə əngəl deyil".

### "Heç bir çətinlik ehtiyacı olan uşaqlara dərs demək istəyimin qarşısına sədd çəkə bilməz"

...Səhərin bir az sərt mehi və Mövsüm babanın mehriban səsiydi onu oyadan. Yavaş-yavaş dan yeri ağarırdı, yaxınlıqdakı sarı-qırmızı yarpaqlı ağaclardan günəşin şəfəqlərini salamlayan quşların şən hay-küyü, civiltisi eşidilirdi. Kimya nənənin yenicə dəmlədiyi kəklikotulu çayın ətri aləmi bürümüşdü, haradansa qoyun-quzunu örüşə haraylayan çoban tütəyinin sədası gəlirdi...

O da yerindən qalxıb kənd həyatının lap alaqaranlıqdan başlayan özünəməxsus ritminə qoşuldu, həvəslə onu gözləyən sevimli şagirdlərinin görüşünə tələsdi...

Müəllim ailəsində böyümüşdü. Gözünü açandan cəmiyyətdə valideynlərinə qarşı hörmət, ehtiram görmüşdü, məktəbdə öz müəllimlərindən sevgi, qayğı, həyat yolunda addımlamaqda dəyərli məsləhətlər almışdı. Yavaş-yavaş, zərrə-zərrə onun da qəlbində müəllimliyə sevgi toxumları cücərməyə başlamışdı. Qərarını vermişdi, müəllim olacaqdı, işıqlı cəmiyyətin təməli sayılan savadlı, bilikli şagirdlər yetişdirəcəkdi. Və 2012-ci ildə arzularının arxasınca gedərək Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası üzrə Azərbaycan Müəllimlər İnstitutunun Gəncə filialına qəbul olur. 2016-cı ildə təhsilini bitirib vətənə borcunu yerinə yetirmək üçün 1 illik hərbi xidmət keçir.

Bu il isə müəllimlərin işə qəbul imtahanlarında 58 bal toplayır. Əslən İsmayıllı rayonunun Kürdeldarbəyli kəndindən olan 24 yaşlı gənc müəllim Əhliman Tapdıqlı yaşadığı kənddən 80 kilometr uzaqda yerləşən ucqar Xəlilli kəndində dərs deməyi seçir. Burada müəllimə daha çox ehtiyac olduğu üçün... Gənc müəllim evindən, ailəsindən uzaqda olduğunu hiss etmir. Deyir ki, Mövsüm baba və Kimya nənənin göstərdikləri qayğı sayəsində özünü yad yox, onların nəvəsi kimi hiss edir, eləcə də kəndin digər sakinləri ona çox hörmət bəsləyirlər: "Gənc müəllimlərin bir çoxu kənd məktəblərini, xüsusilə ucqar kəndlərdə yerləşən məktəbləri seçmirlər. Düzdür, bəzi çətinliklər var, şəhər həyatı kimi komfortlu deyil, xüsusilə qış fəslində müəyyən problemlər ola bilər, amma bütün bunlar mənim müəllimliyə həvəsimin, ehtiyacı olan uşaqlara dərs demə istəyimin qarşısına sədd çəkə bilməz. Mənim də qayğıkeş, həyat yolumu müəyyən etməyimdə zəhməti olan müəllimlərim olub. Amalım yaxşı müəllim olub gələcəyimiz üçün savadlı, ağıllı, tərbiyəli şagirdlər yetişdirməkdir".

### Şagirdlərin ümid işığı

Əhliman müəllim vurğulayır ki, elmin sirləri müxtəlif olduğu kimi, onu öyrətmək metodikaları da fərqlidir: "Şəxsi üslub bütün hallarda öyrətməyə xidmət edir və bütün bu xidmətlərdən maksimum səviyyədə istifadə edəcəyini düşünür. Elm özü yenilikdir. Lakin həvəsləndirmə üçün bəzi əlavə proseslərə də baş vurmalıyıq. Məsələn, şeir müsabiqələri, tamaşalar, əsər yarışları keçirəcəm, qalibə kitab hədiyyə edəcəm. Düşünürəm ki, bu, şagirdlər üçün əlavə motivasiya olacaq".

Gənc müəllim söyləyir ki, standart müəllim-şagird münasibəti yorucudur: "Sadəcə dərs keçib, sabah şagirdlərdən dərs soruşasan, billəndə "əla", bilməyəndə "qeyri-kafi" qiymət verəsən və bununla da işini yerinə yetirdiyini düşünəsən: bu, düzgün deyil. Müəllim şagirdin dostu olmalıdır. Onların maraqlarını, məqsədlərini bilməli və doğru yola yönəltməlidir. Mən də məktəbdə şagirdlərin ümid işığı olmaq, onları elmə həvəsləndirmək üçün əlimdən gələni etməyə çalışıram".

Hazırda Xəlilli kənd tam orta məktəbində 5-ci və 6-cı siniflərdə şagird olmadığı üçün həmin siniflər yoxdur, 7, 8 və 9-cu siniflərdə 3 şagird oxuyur. 10-cu sinifdə 4, 11-ci sinifdə isə 5 şagird təhsil alır.

"Məktəbdə uşaqların az olması dərslərimizə heç bir təsir etmir, əksinə bu, hər bir uşaqla daha çox məşğul olmağa imkan verir. Hər bir şagirdə ayrı-ayrılıqda vaxt ayırmağa, onların dərsə dair fikirlərini öyrənməyə bol vaxtımız olur. Həmçinin dərsdən əlavə də uşaqlarla məşğul oluram. Müşahidə edirəm ki, yeni biliklər öyrəndikcə daha da həvəslə oxuyurlar. Bu da bir müəllim kimi məni olduqca sevindirir, seçdiyim müəllimlik peşəsi ilə fəxr edirəm", - deyə Əhliman Tapdıqlı bildirir ki, boş zamanlarında müxtəlif mövzularla bağlı araşdırmalar edir, kitab oxuyur, şeirlər dinləyir. Və öyrəndiyi yeni bilikləri, məlumatları şagirdləri ilə bölüşür, onlarla fikir mübadiləsi aparır, qaranlıq könüllərə nur, işıqlı gələcəyə doğru irəliləməkdə yollarına ziya saçır.

### Müəllimliyin qürur ünvanı - Cocuq Mərcanlı

İnsan qürur duymazmı, fəxarət hissi keçirməzmi bu ünvanda olduğu üçün...

İnsan sevinməzmi, xoşbəxt olmazmı bu diyarda qaldığı üçün...

Dünyanın bəxtəvəri olmazmı pəncərəsinin mənzərəsi Lələtəpə yüksəkliyinə açıldığı üçün...

Özünü göylərdə hiss etməzmi məhz burada, müqəddəs vətən torpağımız, işğaldan azad olunan torpaqlarımızın ilk müjdəçisində yaşadığı üçün...

Öyünməzmi məhz Cocuq Mərcanlıdakı məktəbdə dərs deməyi seçib, buradakı şagirdlərə elm öyrətdiyi üçün...

Qismətinə bu cür şərəfli, qürurlu tarix yazılanlardan biridir 28 yaşlı gənc müəllim Könül Hacıyeva...

Cəbrayıl rayonu Cocuq Mərcanlı kənd Novruz Aslanov adına tam orta məktəbə yüksək balla işə qəbul olunan Könül Hacıyeva əslən Qəbələ rayonunun Tüntül kəndindəndir. Ağdaş Dövlət Humanitar Kollecinin İbtidai sinif müəllimliyini bitirən Könül müəllim müəllimlərin işə qəbulu imtahanında birinci turda yığdığı 50 balla düşünmədən Cocuq Mərcanlını seçib: "Əslində bu balla mənim düşə biləcəyim yerlər çox idi, Şamaxı, Lənkəran, Şirvan və digər rayonlarda müəllim işləyə bilərdim. Növbəti tura qatılsaydım, Bakıda da dərs demək şansım olardı. Amma düşündüm ki, Cocuq Mərcanlıda müəllimə daha çox ehtiyac var. Həm də Cocuq Mərcanlı mənə qeyri-adi, müqəddəs bir yer kimi gəldiyi üçün ürəkdən buranı istədim. Həyat yoldaşım da mənə dəstək oldu və iki övladımızla bərabər Tüntül kəndindən Cocuq Mərcanlıya gəldik. Hər bir şəraiti olan ikiotaqlı evlə təmin olunmuşuq. Burada işləyib yaşadığım müddətdə bu ev hər zaman bizim istifadəmizdə olacaq. Oğlum bağçaya gedir, qızım isə 3-cü sinifdə oxuyur".

### "Bu torpaqda müəllimə ehtiyac varsa, mənim başqa seçimim ola bilməzdi"

Özündən əlavə bir neçə müəllimin də yüksək balla Cocuq Mərcanlıdakı məktəbi seçdiyini söyləyən Könül Hacıyeva qeyd edir ki, burada xüsusilə ibtidai sinif müəlliminə ehtiyac var idi: "Uşaqları çox istəyirəm, şənbə-bazar olanda onlar üçün darıxıram. Müəllim kimi onlara təkcə təhsil vermirəm, dünyagörüşlərinin formalaşmasını, həyata baxışlarını, vətənə, torpağa bağlılığı da aşılamağa çalışıram. Onsuz da bu uşaqların hər biri vətənpərvərlik əhvali-ruhiyyəsindədir. Aprel döyüşləri bu uşaqlarda mübarizə ruhunu daha da yüksəldib. Onlar bütün Milli qəhrəmanlarımızı tanıyır və haqqında bilirlər. Cocuq Mərcanlıda dərs dediyim üçün mən özüm də çox qürurluyam, burada olmaq fərqli hissdir. Bu torpaq uğrunda qəhrəmanlarımız canlarından keçiblər, bu torpağın hər qarışı şəhidlərimizin qanı ilə suvarılıb. Və əgər bu gün bu torpaqda müəllimə ehtiyac varsa, mənim başqa seçimim ola bilməz. Vətən, torpaq qarşısında kiçik də olsa borcumu yerinə yetirməliyəm".

Cocuq Mərcanlı Novruz Aslanov adına məktəb onun ilk iş yeridir, ilk müəllimlik təcrübəsini burada öyrənib: "Lələtəpə yüksəkliyi ilə aramızda 700 metr məsafə var. O yüksəklik bizim güvən yerimizdir, bilirik ki, igid əsgərlərimiz hər zaman keşiyimizdədir. Buradakı kənd camaatı necə ürəklidirsə, biz də eləyik, heç nədən qorxmuruq. Yeganə bir arzum var, tezliklə Qarabağımızın digər əraziləri də düşmən tapdağından azad olunsun və vakansiya kimi həmin bölgələri seçərək gedib orada da dərs deyim. Uşaqlarımıza elmin sirlərini açım, balaca əllərindən tutub müqəddəs "ana", "vətən" yazmağı öyrədim, Lələtəpə zəfərindəki qəhrəmanlarımızın şücaətindən bəhs edim..."

*Müəllim qaranlıq könüllərə nur saçandır. Müəllim ömrünü şama bənzədirlər, işıq saçmaq üçün yanan şama... Öz ömrünü başqalarının ömrünə həsr etdiyi üçün. Nə xoşbəxtik ki, doğma Azərbaycanımızın da hər guşəsində elm, bilik, maarif məşəlini yandıran zəhmətkeş müəllimlərimiz hər zaman olub və bu gün də bu müqəddəs ənənəni şərəflə daşıyanlarımız, gənc müəllimlərimiz var...*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Şərəfli ömrün işıqlı yolları

### Yetirmələrinin vətənpərvər olmaları, ictimai fəallıqları, bilikli olmaları Sona müəllimi çox sevindirir

...Nağılabənzər bir ömrün yaddaqalan anlarını xatirəyə çevirmək üçün onun dünəninə boylanıram. Dünəni zirvəsi dumanlı dağların o üzündə qalıb. Ha boylanır, o tərəfi görmür, amma nurdan düşməyən baxışları, deyəsən, bir az kölgələnib. Bu da gəncliyinə əli yetməyən, "duman-çənə bürünən didərginlik taleyi" yaşamasındandır.



1993-cü ilin aprel ayının kəlbəcərlilərə gətirdiyi fəlakət onların yarıyolda qırılıb qalan ömürlərindən çox şeyləri aparsa da, sanki özlərini daha yaxından tanımaq üçün bir fürsət, məqam imiş.

O zirvələr səltənətində, Bakıdan xeyli uzaq, "gözdən-könüldən iraq" bir məkan var idi: Kəlbəcər. Birmənalı şəkildə deyə bilərik ki, orada doğulub boya-başa çatanlar saz-söz vurğunu olmaqları ilə seçiliblər. Bununla yanaşı, kəlbəcərlilər həm də elm aləmində özlərinin istedad və biliklərini zaman-zaman təsdiqləyiblər. Onların elmin zirvələrinə ucalmasında, əlbəttə, orta məktəb müəllimlərinin əməyi az olmayıb.

Kəlbəcərin Ermənistan tərəfindən işğalından sonra kəlbəcərli məktəblilərlə birlikdə sevimli müəllimləri də doğma ocaqdan aralı düşüb, hərəsi bir yanda müvəqqəti sığınacaq axtardılar. Onlardan biri də 27 ildir ki, kəlbəcərli günlərinin həsrətində qovrulsa da, doğma balaları qədər əzizlədiyi şagirdlərinə həm də vətən - yurd, torpaq sevgisi dərsini keçən Sona Nadir qızı İsmayılovadır.

Bərdə rayonunun Boyəhmədli kəndində "Qələbə ili" - 1945-ci ildə anadan olub. Ona görə də söz düşəndə deyir: "...Vallah, Tanrı möhlət verəcək, Qarabağda qələbə çalınacaq, arzumuza çatacağıq..."

O zamanlar kiminsə ağlına gəlməzdi ki, tale yolları onu ucqar dağ rayonlarından birinə - Kəlbəcərə, təbiəti cənnəti xatırladan Moz Qaraçanlı kəndində ad-sanı, el-oba təəssübkeşliyi ilə sayılıb-seçilən Misir kişinin ailəsinin gəlini olacaq.

1967-ci ildə H.B. Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun Fizika-riyaziyyat fakültəsini bitirdikdən sonra təyinatla doğma rayona gələn gənc müəllim Bərdə şəhərindəki 6 nömrəli orta məktəbdə pedaqoji fəaliyyətə başlayır. Az keçmir ki, bəxti yol üstə olan müəllim ailə quraraq Kəlbəcər rayonunun ucqar kəndlərindən birinə gəlin köçür. Az vaxtdan sonra ömür-gün yoldaşı Vəliyəddin İsmayılovun rayon mərkəzində rəhbər vəzifədə çalışmasına görə iş yeri dəyişir: Kəlbəcər şəhər 1 və 2 nömrəli orta məktəblərində ixtisası üzrə müəllim işləməyə başlayır.

Ötən əsrin 70-80-ci illərində Sona İsmayılovanın dərs dediyi şagirdlərin səs-sorağı bu gün istər elmin, istərsə də, xalq təsərrüfatının müxtəlif sahələrindən gəlir. Neçə-neçə şagirdi onun müəllim şərəfini daim uca tutmasından, dərs dediklərinin uğurlarına sevinməsindən, onlarla qürur duymasından məmnunluqla söz açır.

Kəlbəcərin işğalından sonra Bakı şəhərində məskunlaşmağa məcbur olan ailələrdən biri də onlardır. Paytaxt Bakıda nümunəviliyi ilə seçilən 190 nömrəli tam orta məktəbdə çalışdığı illər ərzində də yetirmələri yüksək göstəricilərlə ali məktəblərə qəbul olub, elmin zirvələrinə ucalanda sanki balalarının sevincini yaşayıb.

...Ömür də yollar kimidir: enişi-yoxuşlu, daşlı-kəsəkli. Sona müəllimə ömrünü məktəb yollarında keçirdiyindən, inanmağı gəlmir ki, 40 il sevimli şagirdləri ilə baş-başa qalıb və bəzən ailə qayğılarını, dərd-sərini unudub. Ondan riyaziyyat-fizika elminin sirlərini öyrənən şagirdləri texniki sahədə qazandıqları uğurlarda Sona müəllimin payının daha çox olduğunu düşündükcə fərəhlənirlər.

Sona müəllim bu gün sevimli şagirdlərindən uzaq olsa belə, ömrünü həsr etdiyi müəllimlik peşəsi ilə neçə-neçə gənc nəslin vətənpərvərlik tərbiyəsində əməyi olduğu üçün özünü xoşbəxt sanır: "...Kəlbəcərdə dərs dediyim sevimli şagirdlərim bu gün Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin ətrafında sıx birləşiblər. Onları müstəqil dövlətimizin inkişaf etdirilməsində yaxından iştirak edən ziyalılarımızın sırasında gördükdə qəlbim fərəh hissi ilə döyünür. Onu da deyim ki, kəlbəcərli məcburi köçkünlər dövlətçiliyimizə sədaqətli olmalarını Ümummilli Lider Heydər Əliyevin hər iki dövrdə ölkəmizin rəhbəri olduğu illərdə təsdiqləyiblər..."

Yeri gəlmişkən, Sona müəllimin həyat yoldaşı Vəliyəddin İsmayılov Kəlbəcərdə uzun illər rəhbər vəzifələrdə çalışmış, ona görə də Ümummilli Lider Heydər Əliyevin dağ rayonu olan Kəlbəcərin iqtisadi-mədəni inkişafında qəbul etdiyi qərarları yaxşı bildiyindən, ikinci dəfə onun siyasi hakimiyyətə xalqın təkidli tələbi ilə qayıdışında öz fəallığı ilə seçildi. Belə ki, o, 1998-ci ildə keçirilən Prezident seçkilərində Ulu Öndər Heydər Əliyevin Mərkəzi Seçki Qərargahının üzvü, Qarabağın və digər işğal olunmuş rayonların ilk təşəbbüs qrupunun rəhbəri oldu. Bununla əlaqədar o, dəfələrlə Ümummilli Liderlə olan görüşlərini xoş xatirələr kimi yaddaşına yazdı. Söz düşəndə deyir: "...Fəxr edirəm ki, Heydər Əliyev məktəbinin yetirməsiyəm, istehsalat və ictimai fəaliyyətimin 50 ildən çoxu Ulu Öndərin hakimiyyəti illərinə düşüb..."

Qocaman pedaqoq öz övladlarının da ali təhsil alıb, cəmiyyətdə ictimai mövqeləri ilə seçilən mütəxəssislər kimi yetişmələrinə həm ana, həm də müəllim qayğısını əsirgəməyib. Bunun nəticəsidir ki, qızı Sevinc xanım həkim, oğlu Vüqar müəllim, İlqar isə hüquqşünasdır.

Bu ilin sentyabr ayının son günündə "qızıl toy" yubileyini keçirməmələrinin səbəbi isə kəlbəcərsizlik olub. Ei-obanın ziyalı ağsaqqallarından biri olan Vəliyəddin İsmayılovla evliliklərinin 50 ilini yola salan nənə-baba həm də yeddi nəvənin sevimliləridirlər.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

## Yeni tədris ilindən 145 müəllim Qubada pedaqoji fəaliyyətə başlayıb

Cari tədris ilində 145 nəfər müəllim işə qəbulu müsabiqəsində uğur qazanaraq Quba rayonunda pedaqoji fəaliyyətə başlayıb. Onlardan 85 nəfər müddətsiz müqavilə, 60 nəfər isə müddətli müqavilə ilə işə düzəlib. İşə qəbul prosesi hazırda davam etdirilir.

Bu barədə Quba Rayon Təhsil Şöbəsinin müdiri Rüfət Hacıyev AZƏRTAC-a məlumat verib.

R.Hacıyev bildirib ki, Quba rayonu üzrə müəllimlərin işə qəbulu müsabiqəsində rayondan 255 vakant iş yeri göstərilib.

"Yüksək nüfuzlu təhsilverənlərin formalaşdırılması, müəllim peşəsinin nüfuzunun artırılması istiqamətində son illərdə əhəmiyyətli tədbirlər keçirilib. Bu tədbirlər müəllimlər arasında sağlam rəqabəti və motivasiyanı gücləndirib, təhsilin keyfiyyət göstəricilərinin əhəmiyyətli şəkildə yüksəlməsinə səbəb olub. Təsadüfi deyil ki, 2019-cu ildə Quba rayonu üzrə 600-dən yuxarı bal toplayan 4 məzun müəllim peşəsini seçib. Ümumilikdə isə cari ildə ali təhsil müəssisələrinə qəbul olunan 197 nəfər müəllimlik peşəsinə üstünlük verib", - deyə R.Hacıyev vurğulayıb.

Qeyd edək ki, 2019-2020-ci tədris ili üzrə ölkəmizdə 7 mindən çox müəllim işə qəbul olunub. Ümumilikdə son 5 ildə məktəblərin müəllim tərkibi keyfiyyət baxımından yaxşılaşıb, 20 mindən çox gənc müəllim işə qəbul edilib.

# Gənc nəslin maarifləndirilməsi terrorçuluqla mübarizədə ən səmərəli vasitədir

Son illər ölkəmizdə yeniyetmə və gənclər arasında hərbi-vətənpərvərlik hissinin, milli-mənəvi dəyərlərə bağlılığın daha da gücləndirilməsi istiqamətində davamlı tədbirlər həyata keçirilir.

Lakin bu məsələdə hər bir vətəndaş ayıq-sayıq olmalı, görülən işlərə fəal töhfə verməlidir. Çünki düzgün və sistemli təbliğat işinin aparılmaması cəmiyyətdə ayrı-seçkiliyə və gənclərin yanlış istiqamətdə formalaşmasına gətirib çıxara bilər.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Dövlət Təhlükəsizliyi Xidmətinin Beynəlxalq Antiterror Təlim Mərkəzinin (DTX BATM) təşkilatçılığı ilə oktyabrın 4-də Quba şəhərində keçirilən "Xarici xüsusi xidmət orqanlarının ölkəmizdə həyata keçirdiyi pozuculuq fəaliyyəti" və "Terrorçuluqla mübarizədə gələcək nəslin maarifləndirilməsi" mövzularında elmi-praktik konfransda səsləndirilib.

Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə rayonun rəhbər işçiləri, gənclər, həmçinin qeyri-hökumət təşkilatlarının, elm, təhsil və mədəniyyət müəssisələrinin, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Rayon icra hakimiyyətinin nümayəndələri və DTX-nin əməkdaşları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılan abidəsi önünə gül dəstələri düzüb, dahi rəhbərin xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəman vətən övladlarının xatirəsi də ehtiramla yad olunub.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Konfransda DTX BATM-in rəisi Rəşad Camalov, Xidmətin əməkdaşları Tural Məmmədov və Azər Əfəndiyev, Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev çıxış ediblər. Bildirilib ki, terrorçuluq dövlətlər üçün əsas təhlükələrdən biridir. Konfransın əsas məqsədi terrorçuluğa qarşı aparılan mübarizə tədbirləri, eləcə də təhlükəsizlik fəaliyyətinin digər sahələri ilə bağlı gələcək nəslin maarifləndirilməsi və bu mübarizədə onların rolunun artırılmasından ibarətdir. Qeyd olunub ki, dövlətin təhlükəsizliyi üçün həyati əhəmiyyət kəsb edən bu məsələlər Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən daim diqqət mərkəzində saxlanılır. Bu gün təhlükəsizlik sistemində dövrün tələblərinə uyğun islahatların aparılması ölkə rəhbərliyinin xüsusi nəzarətindədir. Dövlət başçısının göstərişi ilə ölkənin milli təhlükəsizlik konsepsiyası hazırlanıb və qəbul edilib. Konsepsiya dövlətimizin müstəqilliyini, ərazi bütövlüyünü, xalqın və ölkənin milli maraqlarını daxili və xarici təzyiqlərdən qorumaq məqsədilə hazırlanıb və təhlükəsizlik sisteminin XXI əsrin tələblərinə uyğun səviyyədə inkişaf etdirilməsini nəzərdə tutur.

Müasir dövrdə təhlükəsizliyi ciddi təhdid edən terrorizmə və radikalizmə qarşı mübarizə sahəsində DTX tərəfindən həyata keçirilən tədbirlər, həmçinin terrorizmin beynəlxalq coğrafiyası, beynəlxalq terrorçuluqla və dini ekstremizmlə mübarizə sahəsində görülən işlər barədə də ətraflı məlumat verilib. Diqqətə çatdırılıb ki, terrorçuluq cəmiyyətdə qorxu və vahimə yaratmaq, insanları öz iradəsinə tabe etdirmək, siyasi hakimiyyət orqanlarına təsir və təzyiq vasitəsidir. Bu baxımdan əks-kəşfiyyat təhlükəsizlik sahəsində əsas istiqamətlərdən biridir və düşmənin kəşfiyyat-pozuculuq fəaliyyətinə, terror-təxribat əməllərinə qarşı yönəlib. Əks-kəşfiyyat fəaliyyətinin əsas məqsədi ölkəmizdə yaşayan və buraya göndərilən casusların və təxribatçıların müəyyənləşdirilməsi, terrorçuların aşkar və ifşa edilməsi, ölkə daxilində xüsusi təhlükəli cinayət törətmiş və ya bunu həyata keçirməyə hazırlaşan şəxslərə qarşı mübarizənin aparılmasından ibarətdir.

Terrorçu və ekstremist təşkilatların əlaqəsindən və şəbəkələşməsindən də söz açılıb. Vurğulanıb ki, terrorizm müasir dövrdə ən təhlükəli, çətin proqnozlaşdırılan və getdikcə daha müxtəlif formalarda həyata keçirilən, daha hədələyici miqyas alan ciddi təhdidlərdən biridir. Azərbaycan Respublikası da terrordan ciddi zərər çəkmiş ölkələrdən biridir. Regionun təhlükəsizliyinə və inkişafına əsas təhdid mənbəyi Ermənistan və onun yürütdüyü təcavüzkarlıq, qəsbkarlıq siyasətidir.

Qeyd olunub ki, hər bir ölkənin gələcəyi onun gənclərinin düşüncə tərzindən, intellektual səviyyəsindən, milli ruhundan və digər amillərdən asılıdır. Azərbaycan gəncliyi bütün dövrlərdə ölkənin taleyüklü məsələlərinə münasibətdə həlledici məqamlarda öz sözünü deyib. Müstəqilliyin əldə edilməsində olduğu kimi, onun qorunub saxlanılmasında da gənclərin rolu danılmazdır. Bu mənada gənclərin çiyinlərinə böyük yük düşür, çünki gənclər dövlətin həm bugünü, həm də gələcəyidir. Bu gün Azərbaycanda həyata keçirilən gənclər siyasətinin, gənclərə göstərilən diqqət və qayğının əsasında ölkə üçün layiqli vətəndaş və sağlam nəslin yetişdirilməsi dayanır. Müasir müstəqil Azərbaycana məhz milli şüura malik, vətənpərvər və doğma vətənin tərəqqisi naminə çalışan gənclər lazımdır. Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu müstəqil Azərbaycanın gənclər siyasəti də məhz bu amala xidmət edir. Buna görə də dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev və birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva gənclərin vətənpərvərlik ruhunda yetişmələri, onların vətənə və dövlətə sədaqət ruhunda tərbiyə olunmaları istiqamətində çoxsaylı proqram və layihələrin həyata keçirilməsinə daim xüsusi diqqət göstərirlər.

Çıxışlardan sonra Azərbaycan təhlükəsizlik orqanlarının əks-kəşfiyyat və terrorçuluğa qarşı mübarizə tədbirlərindən bəhs edən film nümayiş olunub.

# Bölgələrdə vətəndaşların qəbulu keçirilib

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin oktyabr ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə oktyabrın 4-də Lənkəran şəhərində Lənkəran və Astara rayonlarının sakinlərini qəbul edib.

Yuxarı Xanbulançay Hidroqovşaqların İstismarı İdarəsinin inzibati binasında keçirilən qəbulda müraciətlər əsasən suvarma suyuna tələbatın ödənilməsi, yeni subartezian quyularının qazılması, sel sularına qarşı mühafizə bəndlərinin tikilməsi, suvarma kanallarının beton üzlüyə alınması, həmçinin cəmiyyətin səlahiyyətlərinə aid olmayan müxtəlif məsələlərlə bağlı olub.

Vətəndaşlar tərəfindən edilən müraciətlərin bir qismi yerində həll olunub, araşdırılmasına ehtiyac olan məsələlər isə nəzarətə götürülüb.

Həmin gün Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədr müavinləri Zakir Quliyev Cəlilabad rayonunda, Rafiq Aslanov isə Masallı rayonunda vətəndaşları qəbul ediblər.

***

Oktyabrın 4-də "Azəriqaz" İstehsalat Birliyinin baş direktoru Əkbər Hacıyev Salyan rayonunda sakinlərlə görüşüb.

Birlikdən bildirilib ki, "Azəriqaz"ın baş direktorunun müavinləri Ramil İsgəndərov Sabirabad və Saatlı, Ruslan Əliyev isə Şirvan şəhəri və Hacıqabul rayonunun sakinlərinin problemlərini dinləyiblər. Qəbula gələn sakinlərin əksəriyyəti yaşayış məntəqələrinin qazlaşdırılması, qaz xətlərinin yerinin dəyişdirilməsi, işə qəbul və müxtəlif məsələlərlə bağlı fikirlər səsləndiriblər. Hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib. Qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli barədə müvafiq strukturların rəhbərlərinə tapşırıqlar verilib.

***AZƏRTAC***

# "LiFFt-2019" IV Avrasiya ədəbi festivallar festivalının bağlanış mərasimi keçirilib

Oktyabrın 3-də Heydər Əliyev Mərkəzində "LiFFt-2019" IV Avrasiya ədəbi festivallar festivalının bağlanış mərasimi keçirilib.





AZƏRTAC xəbər verir ki, "Avrasiya Xalqları Assambleyası" beynəlxalq qeyri-hökumət təşkilatları ittifaqının dəstəyi ilə keçirilən festivalın təşkilatçıları Avrasiya xalqlarının "LiFFt" Mədəni Layihələrinin İnkişafına Dəstək Fondu və Heydər Əliyev Fondudur.

Bağlanış mərasimində Avrasiya Xalqları Assambleyasının baş katibinin birinci müavini Svetlana Smirnova bildirib ki, festival Avrasiya qitəsinin ən tanınmış yazıçı və şairlərini bir araya gətirməyə nail olub. Son üç gün ərzində Bakı bu yazarlara ünsiyyətin bütün gözəlliklərini hədiyyə edib. İndi onlar bir-birlərini daha yaxşı anlayırlar.

S.Smirnova IV Avrasiya ədəbi festivallar festivalının yüksək səviyyədə təşkil olunduğu üçün Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya öz təşəkkürünü bildirib. "Biz özümüzü burada evimizdəki kimi hiss etdik. Çünki hər yerdə qonaqpərvərlik və xeyirxahlıqla üzləşdik. Geri dönən zaman isə ürəklərin istisini özümüzlə aparacağıq", - deyə S.Smirnova söyləyib.

"LiFFt-2019" IV Avrasiya ədəbi festivallar festivalının prezidenti və səfiri Marqarita Al çıxışında bildirib ki, festivalın qarşıya qoyduğu məqsəd daima gələcək insan obrazını axtarmaqdır. Bu mənada adları çəkilən yazarlar bütün dünyaya gərəklidir.

Sonra III "LiFFt" festivalının qalibi Varis Yolçuyev qaliblərə müxtəlif nominasiyalar üzrə mükafatlar təqdim edib. Qızıl medala türkiyəli şair Tuğrul Tanyol layiq görülüb.

Tədbir daha sonra konsert proqramı ilə davam edib.

Qeyd edək ki, festivala Türkiyə, Macarıstan, Polşa, Braziliya, Rusiya, Fransa, Slovakiya, ABŞ, Qazaxıstan, Monqolustan, Almaniya, Yaponiya, Çexiya, İsrail - ümumilikdə 50-dən çox ölkədən yazarlar qatılıb. Həmçinin ölkəmizdən iştirakçı və qonaq qismində 60 yazıçı, şair, tənqidçi, ədəbiyyatşünas iştirak edib.

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 25 iyul 2019-cu il tarixdə elan edilmiş "Valideyn himayəsindən məhrum olmuş uşaqlar və övladlığagötürmə" altsisteminin yaradılması xidmətlərinin satın alınması üzrə açıq tender prosedurunda iştirak edən iddiaçıların sayı üçdən az olduğundan "Dövlət satınalmaları haqqında" qanunun 50-4.2. maddəsinə əsasən tenderin davamından imtina edilir.

***Tender komissiyası***

# Azərbaycanın dövlət sərhədini pozaraq Gürcüstana keçmək istəyən Əlcəzair vətəndaşları saxlanılıblar

Dövlət Sərhəd Xidməti (DSX) əməkdaşlarının sayıqlığı və peşəkarlığı nəticəsində iki nəfər Əlcəzair vətəndaşı tərəfindən dövlət sərhədinin pozulmasının qarşısı alınıb.

DSX-nin Mətbuat Mərkəzindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 4-də Əlcəzair vətəndaşları 1995-ci il təvəllüdlü Bouremad İshak və 1991-ci il təvəllüdlü Boulekroune Farouq Xidmətin Sərhəd Qoşunlarının "Zaqatala" sərhəd dəstəsinin xidməti ərazisində Qax rayonunun Ləlili kəndinin ərazisindəki sərhəd zastavasının xidməti sahəsində Azərbaycandan Gürcüstan istiqamətində dövlət sərhədini pozmağa cəhd edərkən sərhəd pozucusu qismində saxlanılıblar.

Saxlanılan şəxslərin sentyabrın 25-də rəsmi qaydada Türkiyə Respublikasından İstanbul-Bakı reysi ilə Azərbaycan Respublikasına gəldikləri müəyyən olunub. Araşdırma zamanı Əlcəzair vətəndaşları dövlət sərhədini pozaraq Gürcüstana, oradan isə Türkiyəyə və Avropa ölkələrinə keçmək niyyətində olduqlarını bildiriblər. Fakt üzrə əməliyyat-istintaq tədbirləri aparılır.

DSX dövlət sərhədinin təhlükəsizliyinin təmin olunması və qeyri-leqal miqrasiyaya qarşı mübarizə sahəsində əməliyyat-axtarış və sərhəd mühafizə tədbirlərini davam etdirir.

# Əhalinin siyahıyaalınması bütün islahatlara yeni impuls verəcək

Ölkəmizdə əhalinin siyahıyaalınması uğurla davam edir. Dövlət əhəmiyyətli bu mühüm tədbirin icrası demək olar ki, bütün məsul qurumların və ölkə ictimaiyyətinin diqqət mərkəzindədir. Bundan başqa, Azərbaycanda keçirilən siyahıyaalınma, həmçinin müəyyən beynəlxalq təşkilatların da maraq dairəsinə daxildir.





Belə ki, siyahıyaalmada toplanan məlumatların nəticələri müəyyən sahələrin araşdırılmasına imkan yaradacaq, Azərbaycan beynəlxalq reytinq agentliklərinin sorğularında daha dolğun təqdim ediləcək.

Müasir dünya düzənində inkişaf tendensiyalarının saxlanılması, perspektiv inkişaf istiqamətlərinin tam qiymətləndirilməsi, təhlillərinin mükəmməlliyi və zəruri qərarların verilməsi üçün əhalinin siyahıyaalınması ən vacib məlumat mənbələrindən biridir. Məhz buna görə də həm dünya, həm də ölkə miqyasında siyahıyaalınma xüsusi əhəmiyyətli tədbirdir.

Əhalinin sayının, strukturunun, ərazi baxımından sakinləşməsinin, etnik tərkibinin, təhsil səviyyəsinin və bir sıra sosial-iqtisadi göstəricilərinin araşdırılıb tədqiq edilməsi unikal məlumatları əldə etməyə imkan yaradır. Bu məlumatların toplusuna istinadən iqtisadi sahələrin inkişafı, ümumilikdə əhalinin rifahının yüksəldilməsi üçün zəngin məlumatlar əldə etmək mümkündür. Eyni zamanda belə statistik rəqəmlər dövlət büdcəsinin formalaşmasında, maliyyə resurslarının təyin edilməsində və bir çox digər sahələrdə düşünülmüş addımlar atmağa imkan yaradır.

Siyahıyaalmanın nəticələri investorlara əhalinin əsas demoqrafik xüsusiyyətləri, əmək ehtiyatları və istehlak bazarı haqqında beynəlxalq standartlara uyğun cavab verən məlumatlar əldə etmək imkanı yaradır, uzunmüddətli biznes layihələrinin tərtibi üçün informasiya mənbəyi olur.

Keçirilən siyahıyaalmanın nəticələri əmək ehtiyatlarından istifadənin kəmiyyət və keyfiyyət parametrləri, işçi qüvvəsinin xarakteristikaları, o cümlədən əhalinin məşğulluq statusu, işsizliyin səviyyəsi, təhsil sisteminin əmək bazarının tələblərinə uyğunluğu barədə daha ətraflı məlumatlara yiyələnməyə, ölkədə həyata keçirilən ailə siyasətinin daha da gücləndirilməsinə imkan yaradacaq.

Siyahıyaalmada əldə olunan məlumatlardan ölkənin sosial-iqtisadi inkişaf sahəsində siyasətin formalaşdırılması, demoqrafik cərəyanların təhlili, qəbul edilmiş inkişaf strategiyaları və proqramlarının səmərəliliyini qiymətləndirmək üçün istifadə ediləcək. Bir sözlə, əhalinin siyahıyaalınmasının nəticələri ölkəmizin sosial-iqtisadi həyatının bütün sferalarını əhatə etməklə statistik informasiya sisteminin əsasını təşkil edir və bütün sahələrə dəqiq rəqəmlər əsasında yanaşmağa, düzgün və vacib qərarlar qəbul etməyə imkan yaradır.

Hazırda həyata keçirilən siyahıyaalma müstəqil Azərbaycan Respublikasının tarixində sayca üçüncüdür. Amma sonuncu siyahıyaalma əvvəlki illərdəkindən fərqli olaraq daha geniş sahələri əhatə edir və ciddi yeniliklərlə seçilir. Sorğu vərəqələrinə ilk dəfə olaraq əlilliyə dair əlavə edilən suallar ölkədə sağlamlıq imkanları məhdud uşaqların və əlilliyi olan şəxslərin mənzil-məişət şəraiti, təhsili, məşğulluğu və digər göstəricilər üzrə məlumatlar əlavə ediləcək. Toplanmış yekun materiallar Azərbaycan Respublikası tərəfindən ratifikasiya edilmiş bir sıra müvafiq beynəlxalq konvensiyalar, o cümlədən BMT-nin "Əlillərin hüquqları haqqında" Konvensiyası çərçivəsində götürülmüş öhdəliklərin milli səviyyədə icrasının daha dolğun statistik qiymətləndirilməsinə və beynəlxalq təşkilatlardan daxil olan əhalinin bu kontingentinə dair sorğuların əhatəli cavablandırılmasına imkan verəcək.

Qeyd edək ki, həmçinin siyahıyaalmada beynəlxalq metodoloji yanaşmalara əsaslanan sorğu anketinə işçi qüvvəsinin tərkibi və əhalinin məşğulluğuna dair bir sıra yeni suallar da daxil edilmişdir. Eyni zamanda siyahıyaalma və sorğu vərəqələrində istifadə olunan terminlər milli normativ və beynəlxalq sənədlərə əsaslanır. Beləliklə, yekun məlumatları bundan əvvəlki siyahıyaalmanın göstəriciləri ilə müqayisə etmək mümkün olacaq.

Siyahıyaalmaya hazırlıq vəziyyətinin qiymətləndirilməsi məqsədilə hələ keçən il oktyabrın 1-dən 10-dək Qəbələ rayonunda əhalinin sınaq siyahıyaalınması keçirilmiş, Statistika Komitəsi tərəfindən hazırlanmış 50-dən çox metodoloji və köməkçi sənədlər, proqram təminatlar sınaqdan çıxarılmışdır. Keçənilki bu tədbir indiki siyahıyaalınmanın təşkilini və keçirilməsini xeyli asanlaşdırmışdır.

Artıq siyahıyaalınmanın ilk günlərindən ölkəmiz üçün vacib olan bu proses yüksək səviyyədə reallaşdırılır. Siyahıyaalma dövlətin vahid statistik metodologiyası əsasında həyata keçirildiyi üçün cəmiyyətdəki vəziyyət haqqında, onun iqtisadiyyatı, sosial sahəsi, mənəvi dəyərləri və sair barədə ümumi statistik məlumatları toplamaq imkanı yaranır. Ölkənin həyatında mühüm hadisə kimi qiymətləndirilən bu tədbirin müvəffəqiyyətlə keçirilməsi prosesində iştirak edən hər bir şəxsin böyük əməyi və həm də məsuliyyəti vardır. Prosesə 43 min insan cəlb olunmuşdur. 28 bənddən ibarət sorğu vərəqələrində 46 sual üzrə 280-ə yaxın bəndə sorğuda iştirak edənlər cavab verirlər. Əhalinin sorğulara tam, dolğun cavab verməsi üçün təşkilatçılar var gücü ilə çalışır, eyni zamanda KİV-də prosesi izləməklə öz töhfələrini verir.

***Bahadur İMANQULİYEV, Ağaəli MƏMMƏDOV (foto), "Azərbaycan"***

**Yeni nəşrlər**

# Ay duman içində, xəyal da güman

Yapon ədəbiyyatının tanınmış simalarından biri olan Ueda Akinari (1734-1809) Azərbaycan oxucularına bir o qədər də tanış olmayan yazıçılardandır. Feodal dövrü yapon ədəbiyyatının son klassiklərindən olan yazıçının ədəbi irsi çox məşhurdur və bu gün də Yaponiyada sevilərək oxunur.

"Duman, sis içində Ay" novellalar silsiləsi isə Akinarinin ən yaxşı əsərləri sırasına daxildir. Nağıl, əfsanə, dastan, hekayə, roman, poema... qədim zamanlardan bütün xalqların bədii yaradıcılığında geniş yer tutub. Bu kitabında milli yapon məişəti isə yazıçının interpretasiyasında özünəməxsus rəng və çalarlarla romantizmin realizmlə sintezində, oxucuya yeni cizgilərlə təqdim olunur.

Yapon ədəbiyyatşünasları bunu, hətta, XX əsr yazıçıları Alber Kamyü və Kobo Abenin roman-pritçaları ilə də müqayisə edirlər.




"Duman, sis içində Ay" əsərini Azərbaycan dilinə çevirən şair-publisist Şükür Şənolun kitabın son sözündə qeyd etdiyi kimi, hadisələrin daha qədim zamanların qarışıq, mübhəm fonunda təsvir olunduğu Akinarinin novellalarında müasirlərini düşündürən, aydın anlaşılan, kəskin, ciddi eyhamlar var: "...Amma yenə də Akinarinin novellalarında mətnaltı mənanın, həlledici məziyyətlərin nüvəsindəki siyasətin çəkisi azdır".

Bu əsərlərin dəyərini milli məzmun daşıyan düşüncələrin zənginliyi, müəllifin epik-poetik ruhu müəyyən edir. Akinarinin əsərlərinin yapon və dünya ədəbiyyatının diqqətəlayiq örnəklərindən olduğu ilk andaca oxucunun marağını çəkir.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

# Baxışların naxışları













...Təbiətin gözəlliyi onun fauna və florasının rəngarəngliyində, minbir çalarlı əlvan gül-çiçəklərlə, dərman bitkiləri, saysız-hesabsız minerallarla zənginliyindədir. Lakin bunlar da onun füsunkarlığını tam ifadə etmir. Ana təbiət "çöl heyvanları", "vəhşi" adlandırdığımız şir, pələng, ayı, canavar, qartal, ceyran-cüyür, maral, dağkeçisi... ilə də bizi öz hüsnünə heyran qoyur.

Heyvanlar ətraf mühitin dəyişməsinə çox həssasdır. Odur ki, Azərbaycanda da heyvanlar aləmi təbii mühitin və müxtəlifliyin əsas komponentlərindən biri, ölkənin milli sərvətidir.

Fotomüxbirimiz bu şəkilləri respublikamızın müxtəlif yerlərində çəkmişdir. Onların qoruqlarda yaşayanları da var, zooparklarda saxlanılanları da. Hərəsinin də özünəməxsus baxışları...

***M.NƏRİMANOĞLU, Ağaəli MƏMMƏDOV (foto), "Azərbaycan"***





# İÇƏRİŞƏHƏR





● Tariximizin ən gözəl məkanı

# İçərişəhər memarlıq incisidir

**Bu gün dünyada 1500-ə yaxın abidə UNESKO-nun Ümumdünya İrs Komitəsi tərəfindən qorunur. Komitə dünya xalqlarının kimliyini və tarixi yaddaşını ifadə edən maddi və mədəni irs nümunələrinə, ən dəyərli abidələrə dair qərarlar qəbul edir.**

**Azərbaycan tarixinin qədim köklərə bağlılığını, onun yüksək mədəniyyət diyarı olmasını sübut edən xeyli abidələrimiz var ki, onlar qorunaraq nəsillərdən-nəsillərə ötürülmüşdür. Bunlardan biri də tarixi yaddaşımızın canlı şahidi olan İçərişəhərdir.**

**İçərişəhər, Qız qalası və Şirvanşahlar Saray Kompleksi UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil olan abidələrimizdəndir.**

## Unikal tarix-memarlıq qoruğu

Qədim tarixə və zəngin mədəniyyətə malik olan İçərişəhər Azərbaycan xalqının milli sərvətidir. Onun ərazisindəki Qız qalası, Qala divarları, Şirvanşahlar Saray Kompleksi, məscidlər, karvansaralar, hamamlar və digər memarlıq abidələri öz orijinallığı və təkrarolunmaz gözəlliyi ilə bəşər mədəniyyəti inciləri sırasında xüsusi yer tutur.

İçərişəhər 1977-ci ildə tarix-memarlıq qoruğu statusunu almışdır. Bu unikal məkan 2000-ci ildə UNESKO-nun Dünya İrs Siyahısına Qız qalası və Şirvanşahlar Saray Kompleksi ilə birgə daxil edilmişdir. Azərbaycan memarlığının, xalqımızın maddi-mədəniyyət irsinin qiymətli nümunəsi olan bu abidələr dünya mədəni irsinə gözəl bir töhfədir.

1988-ci ildən ölkəmizin həyatında baş verən siyasi-ictimai hadisələr bu tarix-memarlıq qoruğunu bir növ unutdurmuşdu. Bundan başqa, bəzi təsərrüfat subyektlərinin İçərişəhərin ərazisində fəaliyyət göstərməyə meyili qoruğun tarixən formalaşmış strukturuna və məhəllələrinin quruluşuna təsirsiz ötüşməmişdir. Müəyyən abidələrin mühafizə rejimi pozularaq tarixiliyinə və planlaşma-məkan quruluşuna zərər yetirən dəyişikliklər edilmiş, bir neçəsi isə ümumiyyətlə, məhv olmuşdur. Qanun pozuntuları qoruğun ümumi mənzərəsinə xələl gətirmiş, uzun əsrlər ərzində formalaşmış arxeoloji materialın itirilməsinə gətirib çıxarmışdır. 2000-ci il noyabrın 25-də baş vermiş zəlzələ İçərişəhərə ciddi ziyan vuraraq onun vəziyyətini daha da ağırlaşdırmışdır.

Belə şəraitdə Ümummilli Lider Heydər Əliyevin 2003-cü il fevralın 17-də imzaladığı "Bakı şəhərində İçərişəhər tarix-memarlıq qoruğunun mühafizəsi və bərpası ilə bağlı bəzi tədbirlər haqqında" sərəncamı qoruqla əlaqədar olan dövlət qurumlarının işində köklü dönüş yaratmış, simasını itirməyə başlamış İçərişəhəri, sözün əsl mənasında, xilas etmişdir. Sərəncamdan sonra ictimaiyyətin, mütəxəssislərin və kütləvi informasiya vasitələrinin diqqəti İçərişəhərin problemlərinə yönəlmişdir. Ulu Öndərin müdrikliyi sayəsində qoruğun uzunmüddətli qorunması və bərpası ilə bağlı konsepsiyanın hazırlanması, həmçinin onun idarə olunmasının beynəlxalq standartların tələblərinə uyğun qurulması kimi vacib məsələlər də həmin sərəncamda öz əksini tapmışdır.

2000-ci ildən UNESKO-nun Ümumdünya İrs Siyahısında yer alan İçərişəhər 2003-cü ildə komitənin qərarı ilə "qara siyahı"ya, yəni məhv olmaq təhlükəsi olan abidələrin siyahısına daxil edilmişdır. O vaxt bu qərarın qəbuluna 2000-ci il noyabrın 25-də Bakı şəhərində baş vermiş güclü zəlzələnin törətdiyi nəticələr, memarlıq abidələri üçün təhlükə yaradan qeyri-qanuni tikinti işləri, həmçinin İçərişəhərin qorunması və inkişaf planının yoxluğu səbəb olmuşdur. Bununla bağlı komitə Azərbaycan hökumətinə görülməli olan tədbirlərə dair öz tövsiyələrini təqdim etmişdir.

2005-ci il fevralın 10-da "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin yaradılması haqqında" Prezident İlham Əliyev tərəfindən sərəncam imzalandı. Sərəncama əsasən qoruğun ikili tabeçiliyi ləğv edildi, vahid idarəetmə sistemi yaradıldı.

## Sirlərlə dolu abidələrə ikinci həyat bəxş edildi

Ölkə rəhbərinin tapşırığı ilə İçərişəhərin ərazisində yüksək peşəkarlıqla və gözəl memarlıq üslubunda aparılan təmir-bərpa və abadlıq işləri təbii və insan faktorlarının təsiri nəticəsində acınacaqlı vəziyyətə düşmüş bina və abidələrə ikinci həyat bəxş etmiş, tarixi mənzərəsinin bərpasına öz töhfəsini vermişdir.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bilavasitə dəstəyi sayəsində İçərişəhərin bərpası və konservasiyası üzrə Master Plan hazırlanmış, Qız qalası və Məhəmməd məscidi kimi dünya əhəmiyyətli abidələrdə xarici mütəxəssislərin iştirakı ilə muzey konservasiyası işlərinə başlanmış, beynəlxalq standartlara cavab verən turizm infrastrukturu şəbəkəsi yaradılmışdır.

Nazirlər Kabinetinin 2009-cu il 25 may tarixli qərarı ilə İçərişəhəri əhatə edən mühafizə (bufer) zonası yaradılmışdır. Zonanın müəyyən edilməsində əsas məqsəd İçərişəhərin tarixi-mədəni irsinin mühafizəsini, qoruq ərazisində yerləşən abidələrin bədii-estetik görkəmini, onların təhlükəsizliyini, funksional təyinatını və uzunömürlülüyünü təmin etməkdir.



Həyata keçirilən tədbirlərə yüksək qiymət verən UNESKO-nun Ümumdünya İrs Komitəsi 2009-cu il iyunun 22-dən 30-dək İspaniyanın Sevilya şəhərində keçirdiyi sessiyada yekdilliklə İçərişəhərin "qara siyahı"dan çıxarılması barədə qərar qəbul etmişdir. Beləliklə, İçərişəhərin qorunmasına və dəyərinin saxlanılmasına hər hansı bir təhlükənin mövcud olmaması artıq beynəlxalq səviyyədə öz təsdiqini tapdı. İçərişəhərə vaxtaşırı səfər edən beynəlxalq ekspertlər müşahidələrinin nəticəsi kimi tövsiyə edirlər ki, Azərbaycan hökumətinin İçərişəhərin qorunması və bərpası ilə bağlı atdığı addımlar, tətbiq olunan idarəetmə modelinin və aparılan bərpa işlərinin metodologiyası, təcrübəsi, qazanılan uğurlar digər dövlətlər, xüsusən tarixi şəhərlər tərəfindən də öyrənilməli və nümunə kimi qəbul olunmalıdır. Krakov, Amsterdam, Sofiya, Tiflis, Kazan, Korfu kimi şəhərlərin tarixi mərkəzlərinin müvafiq inkişaf planlaşdırılmasında və qorunmasında İçərişəhərin təcrübəsi araşdırılmış, ikitərəfli əlaqələr qurulmuşdur. UNESKO İçərişəhərdə aparılan bərpa-konservasiya işlərinin digər tarix-memarlıq qoruqlarında bilavasitə pilot layihə kimi tətbiq edilməsini tövsiyə etmişdir.

İçərişəhər dünyanın Tarixi Şəhər Landşaftı yanaşmasının tətbiqinin sınağı üçün seçilmiş şəhərlərdən biridir. Elə bunun nəticəsidir ki, 2010-cu ildə Bakıda "Bakının şəhər irsinin konservasiyası və inkişafında "Tarixi Şəhər Landşaftı" yanaşmasının tətbiqi" mövzusunda beynəlxalq ekspertlərin iştirakı ilə beynəlxalq seminar keçirilmişdir.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi 2010-cu ildə İçərişəhərə Şirvanşahlar sarayı və Qız qalası ilə birlikdə gücləndirilmiş mühafizə statusunun verilməsi ilə bağlı UNESKO-nun Silahlı Münaqişə Zamanı Mədəni Sərvətlərin Qorunması üzrə Komitəsinə müraciət etmiş və hazırda bu istiqamətdə fəaliyyətini uğurla davam etdirir.

2011-ci ildən etibarən "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi daha iki beynəlxalq layihədə iştirak edir. Bu layihələrdən biri BMT-nin Ətraf Mühit Proqramı ilə birgə Avropa Komissiyasının Şərq Tərəfdaşlığı və Mərkəzi Asiya şəhərlərinin yerlərinin Razılaşması Proqramı çərçivəsində İcra olunan Davamlı Enerji Planlaşdırılması, digəri isə Qara Dəniz Hövzəsi transsərhəd əməkdaşlıq proqramı çərçivəsində Avropa Qonşuluq və Əməkdaşlıq Aləti tərəfindən maliyyələşdirilən "OLKAS: Egey dənizindən Qara dənizə qədər. Şərq dəniz marşrutlarında orta əsr limanları" adlı layihədir.

## Əsas vəzifə İçərişəhəri dünya şöhrətli məkana çevirməkdir

Bu gün qarşımızda duran başlıca vəzifə İçərişəhərin memarlığının milli xüsusiyyətləri saxlanılmaqla bərpa edilməsi, dünya şöhrətli bir məkana çevrilməsi və Azərbaycan xalqının zəngin tarixinin ən gözəl və canlı bir sübutu kimi həm regionda, həm də dünyada tanıdılmasıdır. Bu istiqamətdə atılan ilk addımlardan biri - 2009-cu ildən başlayaraq İçərişəhərin Qoşa Qala Qapısı meydanında "Meydan bazarı" adlı mədəni-kütləvi tədbirlərin keçirilməsidir. Tədbirin keçirilməsində məqsəd Azərbaycan xalqının qədim sənətkarlıq ənənələrinin təbliği ilə yanaşı, Bakı sakinlərinin və paytaxt qonaqlarının öz istirahət günlərini İçərişəhərdə keçirmələrinin stimullaşdırılmasıdır.

2010-cu ildən bəri İçərişəhərdə "Qız qalası" Beynəlxalq İncəsənət Festivalı keçirilir. Mədəniyyətlərarası dialoqa xüsusi töhfə verən bu festival Azərbaycanın ən qədim və sirlərlə dolu dünya əhəmiyyətli abidələrindən olan Qız qalasının təbliğini qarşısına məqsəd qoymuşdur. Müxtəlif ölkələrdən gəlmiş rəssamlar Qız qalasının maketləri üzərində öz dünyagörüşlərinə uyğun fərqli mədəniyyətlərin sintezini əks etdirən əsərlər yaradırlar.

İçərişəhərin unikallığı, dünyadakı digər belə abidələrdən fərqi ondadır ki, bura səhər açılıb axşam bağlanan muzey deyil, canlı bir şəhərdir. 4 minə (1300 ailə) yaxın əhalisi olan İçərişəhərdə 18 hotel, bir neçə muzey, 100-dən artıq ictimai-iaşə və ticarət obyekti fəaliyyət göstərir. Aydındır ki, hər bir canlı şəhər hər zaman inkişaf edir, dəyişir. Buranın sakinləri hər zaman yeni arzularla yaşayırlar. Hətta bəzən bu insanlar unudurlar ki, tarixi məkanda yaşayır və hər gün də XII, XV, XVIII əsrin abidələri ilə ünsiyyətdə olurlar. İctimai rəyi nəzərə almaq və mövcud məsələlərin həllində şəffaflığı təmin etmək məqsədilə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunun hazırkı və keçmiş sakinlərdən ibarət tərkibdə ictimai əsaslarla fəaliyyət göstərən kollegial və məsvərətçi orqan olan Ağsaqqallar Şurası yaradılmışdır.

Son illər ərzində İçərişəhərdə turizm infrastrukturu əhəmiyyətli dərəcədə təkmilləşmiş, hotellərin, restoranların, muzeylərin, qalereyaların, digər mədəni təsisatların fəaliyyəti ən yüksək səviyyədə təşkil olunmuşdur. Tədqiq olunmuş memarlıq abidələri və tarixi yerlər konservasiya edilir, yeni görkəm alaraq turist marşrutlarına salınır və turizm məqsədləri üçün istifadə edilir. Bu işləri Avstriyanın "Atelyer Erix Pummer" şirkəti zərgər dəqiqliyi ilə həyata keçirir. Bunlardan unikal memarlıq incisi olan Qız qalası, Məhəmməd məscidi, məktəb-məscid, Sıratağlı Dini-Memarlıq Kompleksi, Arxeoloji park, Çin məscidi, İkimərtəbəli karvansara, Kiçik karvansara, Ağa Mikayıl hamamı, Dördbucaqlı qala bürcü (Donjon) bərpadan sonra yenidən şəhərimizin sakinlərini və qonaqlarını sevindirir.

Hər il yenilənən təmir və bərpa proqramına əsasən qoruq ərazisində mövcud olan tarix və mədəniyyət abidələrinin qorunması, memarlıq-estetik görünüşünün və uzunömürlülüyünün təmin edilməsi üçün daimi olaraq müvafiq tədbirlər həyata keçirilir.

Onların sırasında müstəsna dərəcədə əhəmiyyətli işlərə nümunə olaraq 2016-cı ildə Böyük Qala küçəsi 50 ünvanında aşkar edilmiş XVII əsrə məxsus yeraltı hamamın konservasiyasını göstərmək olar.

1806-cı ildə Bakının ruslar tərəfindən işğalından sonra hamamın fəaliyyəti dayandırılmış, günbəzləri sökülərək, otaqları təsərrüfat tullantıları ilə doldurulmuş və üzəri torpaqla örtülmüşdür. Belə ki, həmin ərazidə hərbi komendatura yerləşdirilmişdir. Analoji vəziyyət sovet dövründə də davam etmişdir. Təəssüf ki, bu illər ərzində arxeoloji qazıntı ərazisindəki bəzi divar və hörgü qalıqlarında çatlar əmələ gəlmiş və uçmaq qorxusu yaranmışdır. 2016-cı və 2017-ci illərdə arxeoloji qazıntı işləri nəticəsində hamamın əsas hissəsi torpaqdan və təsərrüfat tullantılarından təmizlənmiş, memarlıq quruluşu təyin olunmuşdur. 2018-ci ildən isə abidədə bərpa və konservasiya işləri aparılır. Gələcəkdə burada açıq səma altında arxeoloji muzey ekspozisiyasının fəaliyyət göstərməsi nəzərdə tutulur.

Bununla bərabər Sıratağlı Dini-Memarlıq Kompleksində açıq səma altında "Bədii daşyonma sənəti nümunələri", Çin məscidində numizmatika muzey ekspozisiyaları, Kiçik karvansaranın içində "Sənətkarlar bağı" (Art Garden) fəaliyyət göstərir. Burada turist marşrutları üzrə canlı bələdçilərlə yanaşı, beş dildə audiobələdçi xidmətindən də istifadə olunur.

Şəhərimizin unikal memarlıq incisi olan Qız qalasında muzey konservasiyası işləri başa çatmışdır. Qalanın daxilində çox maraqlı elmi-tarixi ekspozisiya yaradılmışdır.

## Açıq səma altında muzey

İçərişəhər bu gün tarixi simasını özünə qaytarır. Onun ərazisində tarixi araşdırmalar və mütəmadi olaraq aparılan qazıntı işləri nəticəsində əldə olunan arxeoloji materialların zənginliyi nümayiş etdirir ki, İçərişəhər Azərbaycan xalqının tarixinin, o cümlədən onun milli dövlətçilik tarixinin bir çox açılmamış səhifələri haqqında, zəngin maddi və mənəvi sərvətlər xəzinəsi barədə dəyərli, mötəbər məlumatlar verən və tədqiqinə hələ də ehtiyac duyulan tükənməz mənbədir.

İçərişəhər təkcə Azərbaycan üçün deyil, həm də bəşəri dəyər kimi yüksək qiymətləndirilən tarixi abidədir. Bunu UNESKO-nun Ümumdünya Maddi İrs Siyahısına İçərişəhərin Qız qalası və Şirvanşahlar Saray Kompleksi ilə birgə salınması da təsdiq edir.

Qoşa Qala Qapısı meydanında mövsümi olaraq hər bazar günləri "Meydan Bazarı" adlı mədəni-kütləvi tədbir keçirilir.

İçərişəhər açıq səma altında bir muzey olması ilə yanaşı, eyni zamanda dünya sivilizasiya ocaqlarından biridir. Bura qala divarları ilə əhatə olunmuş unikal bir şəhərdir və özünün infrastrukturu, yaşayış massivləri canlı orqanizm təşkil edir.

Son zamanlar İçərişəhərdə gedən torpaq-təmizlik işləri zamanı çoxlu sayda su kəhriz quyuları aşkar olunmuşdur.

İçərişəhər kompleksinə daxil olan dünya əhəmiyyətli 3, ölkə əhəmiyyətli 28 memarlıq, konservasiya olmuş 8 arxeoloji və 600-dən çox yerli əhəmiyyətli abidələr xalqımızın zəngin mədəniyyətindən xəbər verir. Qoruq ərazisindəki XVIII-XIX əsr memarlığına aid elmi, tarixi və mədəni cəhətdən yüksək dəyərə malik onlarla bənzərsiz yaşayış binaları və orta əsrlərdə tikilmiş memarlıq abidələri dövlət tərəfindən qorunur.

## Burada üç mədəni təbəqə aşkar olunmuşdur

İçərişəhərdə keçən əsrin əvvəllərindən 60-cı illərə kimi qısamüddətli, 1961-ci ildən etibarən isə stasionar arxeoloji qazıntılar aparılaraq 3 mədəni təbəqənin olduğu müəyyən edilmişdir. Birinci mədəni təbəqə antik dövrdən IX əsrədək olan dövrü, ikinci mədəni təbəqə IX-XIII əsrləri, üçüncü mədəni təbəqə XIII-XVII əsrləri əhatə edir. Arxeoloji kəşfiyyat və nəzarət işləri nəticəsində aşkar olunan qədim Bakının tarixini əks etdirən arxeoloji artefaktlar və son 30 il ərzində arxeoloji qazıntılar nəticəsində aşkar olunmuş antik dövr maddi-mədəniyyət nümunələri, habelə İçərişəhərin sahilə yaxın hissəsinin təhlili, analizi və təsnifatı belə bir fikir söyləməyə əsas verir ki, şəhərin qədim yaşayış yeri konkret olaraq sahilə yaxın, məhz ən qədim yazılı memarlıq abidəsi olan Məhəmməd məscidi, Qız qalası yerləşən ərazi və Bakı buxtası olmuşdur. Xəzər dənizi suyunun səviyyəsinin tarixən artıb-azalmasıyla bağlı elmi araşdırmalar və İçərişəhərdən yeni aşkar olunmuş qədim şəhərimizin tarixini əks etdirən maddi-mədəniyyət nümunələrinin təsnifatı Bakının yaşının təyin olunmasında əvəzsiz rol oynayır.

İçərişəhərdə həyat öz axarı ilə davam edir. Məhz bu füsunkar məkanın dünyanın bir çox tarixi şəhərlərindən başlıca fərqi də odur ki, o, ətraf mühitdən təcrid olunmamışdır, əksinə, özünün coşqun həyatı ilə milyonlarla insanı özünə cəlb edir.

***Kamil İBRAHİMOV,***
***"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin baş məsləhətçisi, professor***

● Ədəb xəzinəsi

# Dəyişən nəsillər, dəyişməyən dəyərlər...

**Azərbaycanın tarixinin qədimliyindən və zənginliyindən soraq verən İçərişəhərin bir-birindən maraqlı adət-ənənələri vardır. Onların bir hissəsi əsrdən-əsrə, nəsildən-nəslə ötürülərək bu gün də yaşamaqdadır. Burada keçirilən toy və yas mərasimləri, bayramlar və digər şənliklərin özünəməxsus, ənənəvi xüsusiyyətləri var idi...**



## "Küləklər şəhəri"nin sakinləri

İçərişəhərlilər adətən yay aylarını Bakı kəndlərindəki bağlarında keçirirdilər. Bu ənənə indi də davam etməkdədir.

Bakı küləklər şəhəri olduğundan içərişəhərlilər evlərini elə tikirdilər ki, küçələrdə xəzri ilə gilavar oynaya bilsin. İçərişəhərdə hər məhəllənin məşğuliyyətlərinə, xasiyyətlərinə uyğun ləqəbi olardı. Buradakı məhəllələrin hər birinin - Ağşalvarlılar, Hamamçılar, Bəzzazlar, Həkkakçılar və digərlərinin adlarının yaranmasının öz tarixçəsi vardı. Ümumiyyətlə, İçərişəhərdə ləqəblər qoşmaq dəbdəydi. Ləqəblər adamlara ya peşəsinə, ya da boyuna, xasiyyətinə uyğun qoşulurdu. Bəzən baş verən hansısa maraqlı hadisə də ləqəbin yaranmasına səbəb olurdu.

Qədim Qala qapısından daxil olan hər kəs diqqət mərkəzində olardı. Gələnin kimliyi hamını maraqlandırardı. İçərişəhərlilər könül rahatlığı ilə qapı-pəncərələrini açıq qoyar, damda yatardılar. Çünki burada oğurluq olmazdı.

## Böyüyün böyük yeri...

İçərişəhər sakinlərinin ən gözəl adətlərindən biri də böyüyə hörmət göstərməkdi. Bəzən məhəllədə özündən yaşlı adam görənlər yollarını dəyişərdilər. Qarşılaşmalı olanda isə kiçiklər özlərini yığışdırar, salam verməlirinə, yerişlərinə, duruşlarına, geyim-keçimlərinə diqqət yetirirdilər ki, böyüklər onlardan narazı qalmasınlar.

Azərbaycanın bir çox yerlərində olduğu kimi, burada da böyük yanında övladını qucağına götürmək, öpmək, əzizləmək eyib sayılırdı. İçərişəhərlilər hörmət əlaməti olaraq, böyüklərin adlarının əvvəlinə ağa, əmioğlu, ağabacı və başqa sözləri əlavə edirdilər.

İçərişəhərdə ailənin rəhbəri ata idi. Onun söylədikləri qanun sayılırdı. Bir işə başlamaq istəyəndə, harasa gedəndə icazəni atadan alırdılar. Yeni qurulmuş ailələrdə də evin böyüyü kişi hesab edilirdi. Qadın ərinin sözünə tabe idi.

Atadan sonra böyük oğul ailə başçısı, ailənin böyüyü sayılırdı. Ailələrdə valideynlər əsasən böyük oğul ilə yaşayırdılar. Digər oğul övladları üçün ev tikir, onları ayırırdılar. Böyük oğul ata ilə birlikdə ailəyə kömək edərdi. Adətən gəlini işləməyə qoymurdular.

Ailənin yaşlı qadınları məscidə gedərdilər. İçərişəhərin qadınları ailəcanlı, evdardı. Onların yaxşı əl qabiliyyətləri vardı, toxumağı, tikiş tikməyi, xörək hazırlamağı yaxşı bacarırdılar. Bu işləri yeniyetmə qızlara nənələri, anaları, böyük bacıları öyrədirdilər. Ailələrdə qızların məktəbə getmələrinə, oxumalarına razılıq vermirdilər. Onlar küçəyə çarşabla çıxırdılar.

Araşdırıcılar İçərişəhərdə XIX-XX əsrin əvvəllərində çoxuşaqlı, ötən əsrin sonrakı dövrlərində isə azuşaqlı ailələrin üstünlük təşkil etdiyini bildirirlər. Burada qohum evliliklərə çox rast gəlinirdi. Doğulan körpələrə qohumunun adını verənlər də az deyildi.

## İçərişəhərdə toy adətləri...

Azərbaycanın əksər yerləri kimi, burada da, necə deyərlər, "qız evi naz evi" hesab edilirdi. Bir neçə dəfə elçiləri qapıya gətirdikdən sonra, içərişəhərlilərin deyimi ilə "qızın hərisi verilirdi". Həridə oğlan tərəfi üzük, yaylıq gətirirdi. Şirinçay verilirdi. Adətə uyğun olaraq, sonra "nişan" olurdu. Daha sonra keçirilən "böyük nişan" isə həm də qız toyu idi. Böyük nişanda oğlan evi gəlin üçün paltarlıq parçalar, ipək köynəklər, qızıldan hazırlanmış zinət əşyaları gətirirdilər.

İçərişəhərdə "göbəkkəsdi" adəti də vardı. Bu adət də daha çox qohum evliliklərinə rəvac verirdi. Dayıoğlu, bibiqızı və digər qohumların evlənməsi geniş yayılmışdı. Tarix elmləri doktoru N.Quliyeva içərişəhərlilər arasında qarışıq nigahların da geniş yayıldığını yazır: "İçərişəhərlilərin xarakterik cəhətlərindən biri də özlərinə və ailələrinə diqqətli olmalarıdır. Geyimlərinə diqqət yetirirlər. Əsasən açıq rəngli və sadə geyimləri, sakit həyat tərzini çox sevirlər. ...Kənd əhalisinə nisbətən şəhər əhalisi daha çox qənaətcil olur. Buna görə də Bakı kəndlərində məcazi mənada içərişəhərlilərə "pişiyin gözünü bağlayıb, çörək yeyənlər" deyirdilər".

İçərişəhərdə "qoşulub qaçma"ya az təsadüf edilərdi. Ailəsi qaçırılan qızın övladı olandan sonra barışıq olardı. Burada boşanma müstəsna hallarda baş verərdi. Adətən "qismətim belə imiş" deyib dözər, ailədaxili problemləri, narazılıqları evdən kənara çıxarmazdılar.

İçərişəhərli qadınlar hamama gedəndə də ən gözəl paltarlarını geyinər, bəzək əşyalarını taxardılar. Bir çox məsələlər belə yerlərdə danışılar, evlilik yaşına çatmış oğlanlara anaları, bacıları, xalaları, bibiləri qız seçərdilər.

Novruz bayramına xüsusi hazırlıq görərdilər. Qadınlar qoğal, paxlava, şəkərbura bişirərdilər. İçərişəhərlilər baharı səməni ilə qarşılayırdılar...

Bu gün bir çox adət-ənənələr unudulsa da, onların izləri xalqın yaddaşından tamamilə silinməyib. XXI əsrin İçərişəhəri də çox dəyişib. Tarixiliyini nə qədər qorusa da, müasirliyin nəfəsi ona da toxunub. İçərişəhərin bugünkü sakinlərini ötən əsrlərdə burada yaşamış olan içərişəhərlilərdən yalnız zaman ayırmır. Geyim-kecimləri, dünyagörüşləri, həyata baxışları da dəyişib. Ancaq insanları keçmişinə, soy-kökünə bağlayan özünəxas olan xüsusiyyətləri, adət-ənənələridir. İçərişəhərlilər də bu bağlılığı qoruyub-saxlayırlar.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

● İnanclar

# Odun müqəddəsliyi

**Azərbaycanda qədimdən oda sitayiş olunmuşdur. Ərəb coğrafiyaşünası əl-İstəxri yazırdı ki, Bakının yaxınlığında atəşpərəstlər yaşayırlar. Bakı ətrafında pirlər ("pirey") və atəşpərəstlərin qurbangahlarının qalıqları var. A.Bakıxanov da əsərlərində göstərirdi ki, şübhəsiz, atəşpərəstlik öz başlanğıcını bu gün Azərbaycan adlanan məkandan götürüb.**



İbtidai təsəvvürlərə görə, dünyanı iki bir-birinə zidd qüvvələr - xeyir və şər tənzimləyir. Bu təlimin mahiyyəti zərdüştlükdə, onun dini, fəlsəfi və ideoloji mahiyyət daşıyan və müqəddəs kitabı sayılan "Avesta"da əsaslandırılmışdır. Oddan ailəni, eləcə də evi şər qüvvələrdən qorumaq üçün də istifadə edirdilər. Bu məqsədlə ilin son çərşənbəsində ağacların budaqlarını yandırar və otaqları tüstüyə verərdilər.

Oda sitayiş geniş yayılmış və azərbaycanlıların məişətində dərin iz buraxmışdır. Oda sitayişlə əlaqədar bir sıra inanclar bugünədək qalmaqdadır. Toy günü gəlini iki yanan şamla müşayiət edər, üç dəfə ocağın başına dolandırar və onu odun qoruyucu qüvvəsinə tapşırardılar. Yeni doğulmuş uşağın köynəyini oda tutar, sonra geyindirərdilər. Qədim inanclara görə, axşam vaxtı evdən od çıxarmaq, kimsəyə od vermək olmazdı, əks halda xeyir-bərəkət çəkilə bilərdi. Hələ qədimdən Azərbaycanda camaat yığışıb gənc ailə üçün ev tikər və ilk vaxtlar onların, od istisna olmaqla, lazımi ehtiyaclarını təmin edərdilər. Gənclər isə özləri çaxmaq daşı tapıb od yandırmalı idilər. Bu, insanların xoşbəxtliyi öz əlləri ilə qazanmasına, ailənin möhkəmliyi üçün vacib şərt olduğuna işarədir. Belə ki, ocağın külünü təzə Ay doğanda çıxarıb xəlvət yerə tökərdilər. Ocağın közünü iti əşyalarla qarışdırmazdılar. Yaşlı nəslin bəzi nümayəndələri indiyədək "od sahibinin" insanı müxtəlif bəlalarla, xəstəliklərlə, xüsusilə də ev rahatlığını pozan bədbəxtliklərlə cəzalandıra biləcəyinə inanırlar. Gözdəyməni qaytarmaq üçün bir çimdik duzu xəstənin başına dolandıraraq düşmənlərin adını sadalayır, sonra isə oda atırdılar.

Bu mərasimlərlə insanlar odun müqəddəsliyini xarakterizə edən xüsusiyyətlərə deyil, odun bəla və məhrumiyyətləri yox etmək gücünə malik olduğuna inanırlar. Belə mərasimlərin atəşpərəstlikdən də qədim tarixə malik olduğu aydın olur. Od təbiətin ən saf və müqəddəs ünsürü sayılır.

***"Azərbaycan"***




NAKAM TALELƏR

**Torpağın üzü soyuqdur deyirlər. İnsanı gedənlərin bir daha geri dönməyəcəyinə inandırır. Yavaş-yavaş dərdə də alışırsan. Ancaq Cığatayın yoxluğunun nə bənzəri vardı, nə də təsəllisi, dərdini tapşırıb getdiklərinin heç ovudanları, təskinlik verənləri də yoxdur. Böyüksüz qalmışdılar...**



# Əmanət...





## Yarımçıq qalan arzular...

Qumral günlərdir tərəddüd içərisində çırpınırdı. Qardaşı Cığatayın solğun bənizi xəyalından çəkilmirdi. Ondan dolabın gözündəki qutunu gətirməyi xahiş edirdi. Sonra yastığının altından götürdüyü dəftərləri qutunun içərisindəki dəftərçələrin və yarımçıq qalmış qiymət kitabçasının yanına qoyub deyirdi: "Bunları sənə tapşırıram. Gizli bir yerdə saxla, heç kimə göstərmə. Özün də hələ açıb oxuma... Bir neçə ildən sonra istəsən oxuyarsan... Kamodun üst yeşiyində Çexovdan elədiyim tərcümələr olmalıdır. Onları da saxla, itib-batmasın, zəhmətim hədər getməsin. Mən o tərcümələri edəndə arzum haçansa çap etdirmək idi. İstəyirdim bizim millət də Çexovun gözəl hekayələri ilə tanış olsun... heyif, qismət olmadı".

...Ağrısı-acısı səngiməyən o gündən iki il keçmişdi. Qumralın hələ də ürəyi gəlmirdi qutunu açmağa. Bir yandan da qardaşından qalan son xatirələri vərəqləməyə can atırdı. Bir gün evdə tək olanda dolabdakı paltarların altında saxladığı qutunu götürdü. Həyəcanla qapağını açdı. Müxtəlif ölçüdə beş dəftərçə vardı. Əlini onlardan birinə uzadanda qulaqlarına ümidləri tükənmiş, inamı puç olmuş bir səs gəldi: "Cığatay ölür!" Sonra səs hıçqırığa, qəzəbə döndü: "Biz onu sağalda bilmədik!.. Bacarmadıq!.. Vaxtında dərmanını, qüvvətli yeməyini tapmadıq!.." Kiçik qardaşları Toğrulun səsiydi. Qüssədən boğula-boğula Qumralın ürəyindən keçənləri deyirdi: "Ata-anamız yanımızda olsaydılar, bunlar baş verməzdi". Bacı-qardaş bir-birlərinə sarılıb ağlayırdılar. O ağır anlarında valideynlərinə elə ehtiyacları vardı ki...

Ürəkdolusu sevinc bu ocaqdan 1937-ci ilin iyunundan perik düşmüşdü. Sovet hökuməti onlardan əvvəl ataları yazıçı, tənqidçi Seyid Hüseyni, sonra da anaları şairə Ümgülsümü almışdı. Seyid Hüseyni 1937-ci ilin 15 iyununda Şüvəlandakı bağlarında həbs etdilər. 1937-ci il noyabrın 2-də Ümgülsümü İçərişəhərdəki evlərindən apardılar. 1938-ci ilin aprelində o, sürgün cəzası ilə Qazaxıstana göndərildi.

Ondan həyəcan dolu məktublar gəlməyə başladı. Ana ən çox ikinci oğlu Cığataydan nigarandır. Çünki övladlarının ən zəifi, uşaqlıqdan tez-tez xəstələnəni o idi.

## Seyid Hüseynin istedadlı oğlu

Arıq, zəif Cığatayın zehni güclü idi. Yazıb oxumağı dörd yaşında öyrənmişdi. Altı-yeddi yaşından şahmat oynayır, hətta yazıçılar arasında yaxşı şahmatçı sayılan atasını belə udurdu. Birinci sinif şagirdi ikən özündən iki sinif yuxarıda oxuyan qardaşı Oqtayın riyaziyyat kitabındakı misal və məsələləri asanlıqla həll edirdi. Beşinci sinifdə məktəbdə keçdiyi rus və alman dillərindən başqa fransız, latın dillərini də sərbəst öyrənirdi. Fizika, kimya, fəlsəfə, astronomiya ilə maraqlanır, çoxlu kitab oxuyur, şeir yazırdı.

Dolanışıqları ağır olduğundan 1940-cı il sentyabrın ortalarında Cığatay Nərimanov adına Bakı İndustrial Texnikumunda təhsil alarkən "Azərnəşr"ə oxucu vəzifəsinə işə girdi. Saat 8-dən 5-dək işdə olur, 6-da dərsə gedirdi. Məktublardan bu xəbəri öyrənən Ümgülsüm oğluna görə çox narahat idi. Cığatay anasını sakitləşdirmək üçün 1940-cı ilin 5 noyabrında anasına yazırdı: "Əziz anam, salam! Kağızını aldıq, çox sevindik. Ancaq bir şey məni sevindirmədi. Sən mənə görə fikir çəkirsən! Yoxsa biz rollarımızı dəyişmişik? Sən guya mənim gecə saat 12-də yatıb səhər 7-də durduğum üçün güzəranımızın pis keçdiyini düşünürsən. Narahat olma, mən gündə 7 saat yox, 10-12 saat yatıram. Mənim işim ağır deyil, əksinə, çox maraqlıdır. Bir fikrinə gətir: "Azərnəşr" tərəfindən buraxılan bütün kitabları oxumaq! Bu, açıq-aydın alim olmaq deməkdir. Mən işdə əməyimi cürbəcür şeylər öyrənməyə sərf edirəm. Deməli, ora da mənim üçün bir məktəbdir".

O, 1941-ci ilin mayında diplomunu müdafiə edəcəkdi. Amma 1941-ci ilin soyuq qış günlərində on səkkiz yaşlı Cığataya yol göründü. Dərsləri bitmiş, təcrübələri başlamışdı. Təcrübə keçmək üçün Azərbaycan İnşaat Materialları İnstitutunun laboratoriyasına göndərilməliydi. "Azərneftkəşfiyyat" idarəsinə təcili texnik lazım olduğu üçün onu bir yoldaşı ilə təcrübə əvəzinə birbaşa işə qəbul edib, 575 rubl maaşla Naftalana təyinat verdilər. Bu qərar Cığatay üçün gözlənilməz oldu. Ertəsi gün Naftalana yola düşdü.

Bakıya iyunun əvvəlində gəldi. İyunun 7-də diplom işini uğurla müdafiə etdi. Həmin gün evin böyük övladına - Əzim Əzimzadə adına Rəssamlıq Məktəbini əla qiymətlərlə bitirib Nizami muzeyində işləyən Oqtay Sadıqzadəyə hərbi komissarlıqdan çağırış gəldi. "Xalq düşməni"nin övladı kimi cəbhəyə deyil, cərimə batalyonuna göndərildi.

1942-ci il sentyabrın 16-da Cığataya da hərbi komissarlıqdan çağırış gəldi. Özünə təsəlli verirdi: "Yox məni aparmazlar, həm brona görə, həm də həddindən artıq arığam. Boyum 188, çəkim 51 kilodur, birdən-birə 30 kilo normadan əskiyəm... komissiyada yoxlasalar, yəqin beş-altı xəstəlik də taparlar. Axşamlar qızdırmam olur, öskürürəm, bir balaca hündürə çıxanda ürəyim döyünür, yox yəqin niqodnı çıxaram". Bu fikirlərlə günorta saat 2-də pasportunu götürüb Naftalandan çıxdı. Goranboya çatdı. Hərbi komissarlığa getdi. Onu da digər çağırışçılarla hərbi komissarın kabinetinə çağırdılar. Cığatay iş yerindən alıb cibində gəzdirdiyi arayışı çıxarıb göstərdi: "Mən Azneftin işçisiyəm. Naftalan kəşfiyyatında işləyirəm. Bizim bronumuz var".

Komissar ciddi görkəm alaraq dedi: "Bron cəbhəyə aiddir. Səni fəhlə batalyonuna salırıq. Fərqi nədir? Ya burda işlə, ya da orda, iş həmin işdir. Gedin, səhər komissiyaya gecikməyin".

Cığatay səhəri gün komissiyadan keçərkən dedi: "Hər gün axşamlar, bəzən həm də səhərlər qızdırmam olur, öskürürəm, sol böyrüm ağrıyır, ürəyim hərdən sancır". Qızdırmasını ölçdülər, 38,5-di. Onu rentgenə göndərdilər və terapevtin cavabı belə oldu: "Biz qanunla iş görürük. Sənin bir ciyərində tuberkulyoz var, ikisində də olsaydı, onda niqodnı sayılardın. Mən neyləyə bilərəm. Bu qanunu mən qoymamışam. Götürün aktı, voyenkomata gedin"...

Günortadan sonra leytenantın müşayiəti ilə on altı gənc Geran stansiyasına yollandılar. Hava soyuq, yağışlı idi. Başqa rayonlardan yığılmış gənclərlə birlikdə onları qatara mindirib Biləcəriyə göndərdilər. Cığatay bilirdi, taleyi burada həll olunacaq. Ancaq nə bronu, nə çəkisinin azlığı, nə də səhhətindəki ciddi problemləri nəzərə aldılar. Onu fəhlə batalyonuna saldılar. Evlərinə getməyə, doğmaları ilə vidalaşmağa da qoymadılar. Ayın 20-də səhər saat 8-də Biləcəridən çıxıb 4-də Dərbəndə çatdılar. Eşelondan enib düşərgəyə qədər olan 15 kilometrlik yolu piyada getdilər.

Bütün günü ağır fiziki iş görmüş, əsgərlər hər gün axşam yeməyindən sonra stolların üstünə döşək salıb yatırdılar. Hava soyuqdur. Cığatay bütün gecəni yataqda çırpınırdı. Sentyabrın 22-də saat 7-də dəmir yol trasında işə başladılar. Hər gün 9 saat əzab-əziyyətli işdə çalışırdılar. Cığatay soyuqda ayaqyalın işləyirdi. Oktyabrın 20-də o, titrətsə də güclə yerindən qalxıb işə yollandı. Saat 12-də onu düşərgəyə gətirməli oldular. Feldşer Cığataya malyariya diaqnozu qoydu. Noyabrın əvvəlində qızdırması əvvəlki həddə düşdü: 37,5. Noyabrın 28-dək işləməyə gah ayaqyalın, gah da tapdığı cırıq şap-şapla getdi. Ayın 29-da malyariya titrətmələri yenidən başladı.

Dekabrın əvvəlində onun işlədiyi təmir-tikinti batalyonu Dərbəndə döndü. Sonra Yevlax, Tiflis, Suxumi, Soçi istiqamətində yolları təmir edərək Xostaya gəldilər. Cığatay bütün ayı xəstə olmuşdu. Dekabrın 26-da, təmir işləri bitdikdən sonra fəhlə batalyonunu sıravi əsgər kimi hərbi hissəyə təhvil verdilər və Xostadan cəbhəyə yolladılar. Xəstə, üzgün Cığatayı isə Soçiyə 598 saylı hərbi hospitala göndərdilər. Orada da qarın yatalağına tutuldu.

Cığatayın gənc orqanizmi xəstəliklərə tablaşdı. Ancaq zəif vücudunda bu dəfə də vərəm fəallaşdı və ciyərinə keçdi. Həkimlər onu 4321 saylı terapevtik hospitala köçürdülər. 40 gün də Tiflisdə yatdı. 1943-cü ilin 7 aprelində Tiflis hərbi komissiyası onu bir ay məzuniyyətlə evə buraxdı. Aprelin 9-da Bakıya böyük çətinliklərlə gəlib çatdı.

...O gün yenə də Qumralın gözlərinin qarşısında canlananda qəlbinə sıxıntı çökdü. Səhər tezdən küçə qapısından içəri girən dağınıq uzun saçlı, qara gözləri çuxura düşmüş, əynində cırıq şinel, rəngi bilinməyən köhnə ayaqqabılar olan adamı əvvəl tanımadılar. Onun Cığatay olduğunu biləndə ağlamağa başladılar. Cığatay gülümsəməyə çalışdı: "Nə olub, sevinmək əvəzinə ağlayırsız...", sonra onu qucaqlamaq istəyən doğmalarına "Mənə yaxın gəlməyin" dedi. Üst paltarlarını əynindən çıxarıb küçə qapısından bayıra atdı: "Bunları yandırmaq lazımdı, nə həşərat, infeksiya desən var..."

Əvvəldən sağlam olmayan səhhətini fəhlə batalyonunda gördüyü əzab-əziyyətlər, çətin iş və həyat şəraiti ağır vəziyyətə salmışdı. Üç ay yarım yatdığı hospitallarda sağalmaq əvəzinə başqa xəstəliklər də tapmışdı. Bakıda getdiyi poliklinikanın həkimi ona vərəmin dərmanının tapıldığını, adının streptomisin olduğunu söylədi. Bu dərmanı tapacağına Cığatay inanmırdı. Rentgenin cavabları da ümidlərini doğrultmadı.

Tibbi ekspertiza komissiyası onun hərbi xidmətdən həmişəlik azad edilməsi barədə rəsmi sənəd verdi. 20 yaşlı Cığatay Böyük Vətən Müharibəsi əlili oldu. Evdə zarafatla xəbər verdi: "Məni təbrik eləyə bilərsiz. Bu gün "Böyük Vətən müharibəsi əlili" fəxri adına layiq görüldüm".

Vərəmin inkişafının qarşısını almaq üçün həkim ən azı 20 kilo kökəlməyi məsləhət görmüşdü. Cığataya güclü yemək, istirahət, müalicə lazım idi. O isə vərəm olduğunu evdəkilərdən gizlədirdi. Özünə iş axtarır, çalışır, evə qazanc gətirmək üçün çırpınırdı...

Qumralı xəyal o günlərə - atasını həbsdə sandıqları, anasının sürgündə olduğu vaxtlara apardı. Hər ikisinin həyatda olduğunu düşünmək onları sabaha ümidləndirirdi. Qumral fikirləşdi ki, indicə bir möcüzə baş versə, atası illərin ayrılığından çıxıb gəlsə yenə də Seyid Hüseynin həbs olunduğu o məşum gündən əvvəlki xoş günlərinə dönə bilməyəcəklər. Çünki sürgündən sonra Bakıda yaşamasına icazə verilməyən anası Ümgülsüm Şamaxıda Qumralın gözlərinin qabağında canını tapşırdı. Yeganə hayanları, pənah yerləri olan bibiləri Rübabə də dünyadan köçdü. Valideynlərinin güdazına getdikləri repressiya siyasəti ailənin ikinci övladı, ağıllı, istedadlı Cığatay Sadıqzadənin də cəlladına çevrildi.

Nakam qardaşının əmanət verib getdiyi dəftərləri göz yaşları içərisində oxuyan Qumral illər sonra bir həqiqəti də biləcəkdi: ümidlə yollarına göz dikdikləri ataları Seyid Hüseynə güllənmə cəzası verilmiş, hökm 1938-ci ilin yanvarında yerinə yetirilmişdi...

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## Azərbaycanda Stalin repressiyaları

**Azərbaycan tarixində ən böyük faciələrdən biri 1920-ci illərdən başlayaraq 30 ilə yaxın davam edən repressiyalar olmuşdur.**

İnsanların "əksinqilabçı", "trotskiçi", "casus", "millətçi", "üsyançı" kimi müxtəlif ittihamlarla kütləvi şəkildə məhv edilməsi Stalinin, Beriyanın və onların əlaltılarının bütün SSRİ-də həyata keçirdikləri dəhşətli bir siyasət olmuşdur. Repressiya illərində SSRİ-də ümumilikdə 1.575.259 adam həbs edilmişdir. Onlardan 173.382 nəfəri guya "əksinqilabi" iş apardığına görə cəzaya məruz qalmışdır, 1.344.923 nəfər məhkum edilmiş, 681.692 nəfər isə güllələnmişdir.

Repressiya illərində Azərbaycan ərazisində 100 mindən çox ziyalı, hərbçi, mədəniyyət və incəsənət xadimi, alim, yazıçı, müəllim, din xadimi Sibirə, Qazaxıstana və uzaq adalara sürgünə göndərilmişdir. Bu bir faktdır ki, əhalinin hər 1000 nəfərinə düşən repressiya qurbanlarının sayına görə Azərbaycan keçmiş sovet respublikaları içərisində birinci yerdə durmuşdur. Əgər 1920-ci illərdə birmənalı olaraq "əksinqilabçı" adı ilə cümhuriyyətçilər, yaxud müsavatçı və ittihadçılar məhv edilir, həbs olunub Solovki adalarına göndərilirdisə, 37-ci il repressiyası daha ağır olmuşdur. Bu mərhələdə insanlar "xalq düşməni", "pantürkist", "panislamist", "sui-qəsdçi" adları altında məhv edilmişdir.

Azərbaycanda ümumilikdə 1930-1940-cı və 1950-ci illərin əvvəllərində 80 mindən çox adam repressiya edilib ki, bunun da 29 min nəfəri ziyalılardır. Təkcə 1937-ci ildə 16 Azərbaycan generalı qətlə yetirilmişdir. Azərbaycanın Qazaxıstandakı səfirliyinin məlumatına görə, Stalin repressiyaları illərində Qazaxıstanda 150 min azərbaycanlı öldürülüb, onlardan 28 min nəfəri məhkəmə və istintaq olmadan güllələnib.

***"Azərbaycan"***

GÜNAHSIZLAR

# Cümhuriyyətin igid əsgəri

**Ötən əsrin 20-30-cu illərində sovet quruluşuna və erməni-bolşevik silahlı birləşmələrinə qarşı Gədəbəyin Şahtalası ərazisində Mustafa ağanın rəhbərliyi altında yaradılan "Həqiqi Sinfi Mübarizə Təşkilatı"nın üzvlərindən biri də Alnabat kənd özünümüdafiə dəstəsinin başçısı Qaçaq Məlik, Qaçaq Əhməd, Qaçaq Salmanla birlikdə Qaçaq Hasan (Hasan İman oğlu) da olub.**



Qaçaq Məcidi, Məşədi Mehralını və onların dəstə üzvlərini həbs etmək və yaxud məhv etmək üçün Xalq Daxili İşlər Komissarlığının (XDİK) və Dövlət Siyasi İdarəsinin (DSİ) əməkdaşları, ordu bölmələri dəfələrlə Şahtalasına gəlsələr də, itki verərək istədiklərinə nail ola bilməyiblər. Gəncə, Şəmkir və Gədəbəyin özündən gəlmiş milis və əsgərlər gecə-gündüz dağlarda, dərələrdə çuğul-bələdçilərlə Qaçaq Məcidin və Məşədi Mehralının izi ilə onları və onların dəstəsindəki əksinqilabçıları axtarıblar.

Hasan İman oğlu 1918-ci ilin əvvəllərində Gəncədə Milli Müsəlman Komitəsinin təşəbbüsü ilə erməni qırğınlarının qarşısını almaq məqsədilə özünümüdafiə bölükləri yaradılanda Mustafa ağanın təklifi ilə həmin bölməyə yazılmışdı. On nəfər həmyerlisi ilə türkiyəli hərbçi Hüsaməddin Tuğacın Zazallı dəmir yolu yaxınlığında təşkil etdiyi hərbi hazırlıq təlimlərinin iştirakçısı olmuşdu. Milli Ordunun təcrübəli əsgərlərindən biri idi. Nuru Paşa Azərbaycanı daşnaklardan azad edəndə Hasan da İslam Azadlıq Ordusunun tərkibində döyüşlərin iştirakçısı olmuş, Bakının işğaldan azad edilməsində fəallıq göstərmişdi.

Hasan İman oğlu Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ildə XI ordu tərəfindən süquta uğradılan günə kimi Milli Orduda xidmət etmişdir. Bolşeviklər cümhuriyyətçiləri, Milli Ordu əsgərlərini kütləvi şəkildə həbs edəndə, güllələyəndə Hasan məcbur olub Gədəbəyə, ata yurdu Alnabata qaçmışdı. Gələndən bir neçə ay sonra adını çoxdan ürəyində gəzdirdiyi Şərəbanı ilə ailə qurmuşdu. Pəhləvan cüssəli Hasan təsərrüfat işlərində çalışmaqdan yorulmazdı. Alnabatda iki nəfər qaçaq yoldaşı ilə Atdıx çayının yaxınlığındakı Binə talasından iri gövdəli fıstıq ağaclarını adam boyu və ya şübhə doğurmasın deyə bir az da uzun kəsir, içini oyub çıxardır, meşədə daldey bir yerə yığıb quruyana kimi gözləyirdilər. Elə ki, kəsilən ağaclar yaxşıca qurudu, ora-burasını səliqəyə salıb sandıq kimi düzəldirdilər. Sonra da gətirirdilər Hasan İman oğlunun həyətinə, Qara Musanın əli ilə Türkiyədən və s. yerlərdən alınan silahların müəyyən bir hissəsini ot arabasının altında gətirib, keçəyə büküb yığırdılar həmin kötük-sandıqların içinə. Erməni silahlıları kəndlərə basqın edəndə, yaxud erməni xislətli bolşeviklər özünümüdafiə dəstələrinin üstünə yeriyəndə, o silahlardan istifadə edirdilər. Hasan belə fıstıq "sandıq"lardan bir neçəsini də həyətinin gündöyən səmtinə yığmışdı, guya qışda lazım olduqca doğrayıb evdə sobada, çöldə təndirdə yandıracaqdılar.

Yeni hökumətə qarşı Gəncə üsyanındakı əksinqilabçılarla Gədəbəydən gələnlər arasında alnabatlı qaçaq Hasan İman oğlunun da olduğunu müəyyənləşdirmişdilər. Amma nədənsə Hasan İman oğluna neçə vaxt idi ki, dəyib-dolaşmırdılar. İnqilabi hökumətin məmurları tanınmış bolşevik Rüstəm Əliyevin vasitəsilə onu da öyrənmişdilər ki, Hasan İman oğlu gecə-gündüz Gədəbəy qaçaqları ilə çiyin-çiyinədir.

1924-cü il yayın son ayı idi, havalar o qədər də soyumamışdı. NKVD-nin tapşırığına əsasən bir neçə gün idi çuğul qonşu gecələr çöldə yatıb Hasanın evini güdürdü, görsün bu evə kimlər gəlib-gedir...

Həmin çuğul gecənin bir aləmi görür ki, Hasan çölə çıxıb birbaşa tövləyə getdi, oradan atını çıxarıb həyətin o başındakı kötüklərin yanına apardı, əlindəki yüyəni çəkil ağacının budağına ilişdirdi. Sonra bir az aralıda odun doğranan yerdən götürdüyü baltanın baş ucunu kötüyə dirəyib qanırdı, kötüyün üstünü qapaq kimi açdı. Hasan çönüb arxayın-arxayın sağına-soluna baxıb əlini uzatdı kötüyün içinə, tüfəngləri bir-bir sol qolunun üstünə yığdı, aparıb atın belindəki xurcunun gözünə qoydu. Bir vedrəyə yaxın patronu da xurcunun o biri gözünə tökdü. Təzədən fıstıq kötüyünün üstündən götürdüyü hissəni yerinə qoydu, üstünə də böyür-başdakı kol-kos qırığından atdı, guya bura heç əl vuran olmayıb. Yəhərin qaşına keçirdiyi qamçını əlinə aldı, ayağını üzəngiyə qoyub mindi atın belinə, sürdü Çığlı talasına tərəf.

Çuğul qalır mat-məəttəl ki, necə olub bunu indiyə kimi bilməyib, bilsəydi təzə hökumətdə bir vəzifə almışdı. Çuğul sübh tezdən bir stəkan çay da içməmiş özünü çatdırır Gədəbəy Rayon Milis Şöbəsinə. 20 gün bundan əvvəl tapşırıq aldığı rəisin yanına. Gecəyarısı qonşusunun həyətində nə görmüşdüsə, bir az da üstünə qoyub danışır.

Kənd camaatı duyuq düşməsin deyə əsgərlər günortadan sonra Alnabatı dörd bir yandan mühasirəyə alırlar. Axşamçağı Hasan İman oğlu atı tövləyə salıb qabağına yem atmaq istəyəndə hücum edirlər həyətə, Hasanı heç pəyədən çıxmağa qoymurlar. Əlini-qolunu bağlayıb yıxırlar pəyənin bir küncünə, başlayırlar evi axtarmağa, heç nə tapa bilmədiklərindən həyəti, tövləni, samanlığı ələk-vələk edirlər. Axırda gəlib həyətin o başında, çuğulun durduğu kötüyün böyür-başını axtarmağa başlayırlar. Komandir kötüyə söykənən çuğulun işarəsini o dəqiqə başa düşür. Rusca əsgərlərə əmr edir ki, o kötüyü dığarlasınlar yaxınlıqdakı odun doğranan yerə. Kötüyü dığarladıqca içindən çaqqaçuq səs gəlir. Balta ilə kötüyü yarırlar, içindən iki tüfəng, xeyli patron çıxır. Həyətdəki digər bir neçə fıstıq kötüyünü də bölüb içindəki tüfəng və gülləri götürürlər. Hasana qəzəbli-qəzəbli "bunlar hardandır" sualını verəndə "mənim xəbərim yoxdur" deyir.

Hasan İman oğlunu gətirirlər Gədəbəy Milis İdarəsinə, oradan da arabaya qoyub bir neçə nəzarətçi ilə aparıb Dövlət Siyasi İdarəsi Şəmkir qəzası binasının (indiki Nizami adına şəhər orta məktəbinin yerindəki köhnə bina) zirzəmisinə salırlar. Növbəti gün isə gecə Dəllər dəmir yolu vağzalından Gəncəyə yatab edirlər. Bir ilə yaxın NKVD zirzəmisində "Silahları hardan almısan?", "Qaçaqlardan kimlə yoldaşlıq edirsən?", "Tanıdığın əksinqilabçıların adlarını de?" deyə döyülən, işgəncələrə məruz qalan Hasan "Mənim silahlardan xəbərim yoxdur, qaçaqlardan heç kimi tanımıram, adlarını eşitmişəm, onlarla yoldaşlığım olmayıb" deyib durur. Hasanı döyürlər, işgəncələr verirlər.

"Bəs Gəncə üsyanına kimlərlə qatılmışdın?" sualına Hasan "Mən Cümhuriyyət hökumətinin əsgəri olmuşam, özümü indi də onun əsgəri hiss edirəm, o hökumətin bərpası üçün vuruşmuşam" deyə cavab verərək qaçaq yoldaşlarından heç kimi ələ vermir.

Bir ildən sonra Fövqəladə Komissiyanın qapalı səyyar iclasında yaxınlarının, hətta ailə üzvlərindən heç kimin iştirakı və xəbəri olmadan Hasan İman oğlu, ona məxsus mülkü və taxıl anbarı müsadirə edilməklə, beş illiyə qazamata göndərilir. Həyat yoldaşı ilə azyaşlı qızına sığınacaq verilmir. Ailəsi, qohumları Hasanın məhkəməsinin nə vaxt keçirildiyindən, onun harada qazamatda saxlanıldığından xəbəri olmayıb. Yaxınları da qorxudan heç kimdən heç nə soruşa bilməyiblər. "Xalq düşməni"nin qohumları kimi susmağa məcbur olublar.

Hasan İman oğlu 1929-cu ilin yazında xəstə olduğu üçün qazamatdan buraxılır. Gədəbəyə gələndə, Yasamalı qalxanda qonşu Miskinli kəndindən olan nalbənd Əli görür ki, yoxuşu qalxmaqda çətinlik çəkir, xeyli dayanıb gözləyir, xurcununu götürüb ona yol yoldaşı olur. Hasan Alnabata təxminən 5 kilometr qalmış, Miskinli kəndinin yaxınlığında özünü pis hiss edir, yolun kənarına çıxır, Əlinin köməyi ilə xurcununu başının altına qoyur ki, bir az dincəlsin, özünə gəlsin. Amma ömür vəfa eləmir, oradaca dünyasını dəyişir.

Əli arayıb Hasan İman oğlunun Miskinlidə yaşayan qohumlarına xəbər verir. Kənd camaatı Qaçaq Hasanı - el-oba təəssübü çəkən və erməni daşnakları ilə mübarizədə həmişə öndə olan bir insanı böyük ehtiramla Miskinlidə kənd qəbiristanlığında dəfn edirlər.

Dəfndən bir neçə gün sonra Qaçaq Hasanın xurcunu yada düşür. Açıb baxırlar ki, xurcunun içərisində yeganə övladı - iki yaşında qoyub getdiyi qızı Tovuza aldığı metr yarımlıq donluq güllü parçadan başqa heç nə yoxdur. Yaxınları parçanı xurcuna qoyub çatdırırlar Alnabata - Hasan İman oğlunun həyat yoldaşı Şərəbanıya. Elə Hasanın dəfn məsələsini də Əli burada dost-tanışa bildirir. Bundan sonra Qaçaq Hasanın ailəsi və qohumları Hasanın nəşini Miskinlidən Alnabat qəbiristanlığına köçürmək istəsələr də "o həm də bizim müdafiəçimiz olub", "o, dəfələrlə üstümüzə basqına gələn erməni quldurlarının qarşısını alıb", "o, bizim də təəssübkeşimiz olub" deyə miskinlilər buna etiraz edirlər.

Qaçaq Hasanın Alnabat kəndində yaşayan 95 yaşlı qızı Tovuz nənə bütün bunları çox dumanlı xatırlayır. Repressiya illərində çətinliklərlə üzləşmiş "xalq düşməni"nin qızı gəncliyində qapıbir qonşuları Yunis Əliyevlə ailə qurmuş, beş övladı - üç qız, iki oğlan uşağı olmuşdur. Onların hamısı bu gün xalqını və vətənini sevən, ali təhsilli ziyalılardır.

Qırmızı terrordan 100 ilə yaxın vaxt keçməsinə baxmayaraq miskinlilər və alnabatlılar Qaçaq Hasanı ehtiramla xatırlayırlar.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***



# DÜNYA



Beynəlxalq siyasət

**Böyük Britaniyanın Avropa İttifaqından (Aİ) çıxması (Brexit) prosesi hələ də acı bağırsaq kimi uzanır. Birləşmiş Krallıq Aİ-ni bu il martın 29-da tərk etməli idi. Lakin Britaniya parlamentinin aşağı palatası - İcmalar Palatası Brexit şərtləri haqqında Brüssellə Baş Nazir Tereza Mey hökuməti arasında əldə olunmuş sazişin layihəsini üç dəfə rədd etmişdir.**



# Brexiti dalandan çıxarmaq üçün son cəhd

## Aİ Consonun yeni planına ehtiyatla yanaşır

Bu səbəbdən Aİ Brexiti əvvəlcə aprel və ya may ayına, sonra isə oktyabrın 31-nə keçirməyə razılıq vermiş, Mey isə vəziyyəti dalandan çıxara bilmədiyinə görə istefa vermək məcburiyyətində qalmışdır. Yeni Baş Nazir Boris Conson hakimiyyətə gələn kimi bəyan etmişdir ki, Brüsseldən Brexiti yenidən təxirə salmaq xahişi ilə müraciət etməyəcək və Birləşmiş Krallıq oktyabrın 31-də Aİ-dən sazişli, yaxud da sazişsiz çıxacaq.

Bir neçə gün əvvəl Conson Avropa Komissiyasının sədri Jan-Klod Yunkerə Brexitin yeni şərtləri haqqında plan təqdim etmişdir. Baş Nazirin sənədə əlavə məktubunda qeyd edilmişdir ki, məsələni Aİ-nin cari ayın 17-18-də keçiriləcək növbəti sammitinədək həll etmək lazımdır: "Məsələnin həllinə nail ola bilməsək, bu, siyasi uğursuzluq olacaq və ona görə bütün tərəflər məsuliyyət daşıyacaq".

Consonun planı Backstop rejiminə - Aİ ilə sabiq baş nazir Tereza Mey arasında razılaşdırılmış sazişin tərkib hissəsinə alternativdir. Bu rejim ondan ibarətdir ki, Brexitin keçid dövrü başa çatdıqdan sonra Şimali İrlandiya uzun müddət - London və Brüssel İrlandiya adasında sərhədin şəffaflığını etibarlı şəkildə təmin etmək barədə razılığa gələnədək Aİ-nin vahid bazarı və gömrük ittifaqının tərkib hissəsi olaraq qalacaq. Consonun yeni təklifinə görə, Şimali İrlandiya keçid dövrü başa çatdıqdan sonra gömrük ittifaqını tərk edəcək, adanın bütün ərazisinə isə xüsusi gömrük rejimi tətbiq olunacaq. Başqa sözlə, gələn il yanvarın 1-dən etibarən Şimali İrlandiya Aİ-nin gömrük ittifaqının yox, Birləşmiş Krallığın gömrük ərazisinin tərkib hissəsi olacaq. Conson məktubunda vurğulamışdır ki, Böyük Britaniyanın bütün ərazisi keçid dövründən sonra Aİ-nin gömrük ittifaqını tərk etməlidir.

Britaniyanın yeni planı İrland dənizində müvəqqəti sərhədin və Aİ-dən çıxan Şimali İrlandiya ilə İrlandiya Respublikası arasında gömrük yoxlamalarının Brexitin keçid dövrü qurtardıqdan sonra dörd il müddətinə mövcud olmasına imkan verir. Şimali İrlandiya Aİ-nin vahid bazarında qalacaq, amma 2025-ci ildə onun parlamenti Aİ-nin qaydalarına riayət edəcəyinə, yaxud da Britaniya normalarına keçməyə qərar verəcək.

Böyük Britaniya Baş Nazirinin yeni planı Aİ dairələrində birmənalı qarşılanmır. Aİ-nin Brexit üzrə danışıqlarda nümayəndə heyətinin başçısı Mişel Barnye hesab edir ki, Consonun son təklifləri danışıqlarda əhəmiyyətli irəliləyiş nümayiş etdirir, amma hələ çox iş görmək lazım gələcək. Onun fikrincə, sazişə nail olmaq üçün üç vəzifəni yerinə yetirmək lazımdır: "Sərhədin şəffaflığını təmin etmək, İrlandiyanın bütün ərazisində ümumi iqtisadi məkanı qoruyub saxlamaq və vahid bazarı müdafiə etmək".

Barnye qeyd etmişdir ki, Aİ heç vaxt sazişsiz Brexitin xeyrinə seçim etməyəcək. O, əlavə etmişdir ki, Brüssel Britaniya tərəfi ilə saziş üzərində işi davam etdirəcək.

Digər tərəfdən, Avropa Komissiyasının sədri Jan-Klod Yunker qeyd etmişdir ki, Consonun yeni təklifində problemli məqamlar var. Söhbət ilk növbədə gömrük normalarından gedir. Yunkerin fikrincə, Aİ Backstop rejiminin bütün məqsədlərinə cavab verən hüquqi qərar əldə etməli, sərt sərhədin qarşısı alınmalı, Şimal-Cənub əməkdaşlığı və bütün ada iqtisadiyyatı qorunub saxlanmalı, həmçinin Aİ-nin vahid bazarı və İrlandiya Respublikasının burada yeri müdafiə olunmalıdır.

Britaniya mətbuatı Consonun yeni planının reallaşacağına şübhə ilə yanaşır. Yerli siyasi müşahidəçilərin fikrincə, plan Aİ və ilk növbədə Şimali İrlandiya üçün çətin ki, məqbul sayılsın. Onlar hesab edirlər ki, Consonun planı Aİ-nin vahid bazarının bütövlüyünə təhdid kimi qiymətləndirilə bilər, çünki Şimali İrlandiya vahid bazarda azı 2025-ci ilə qədər qalacaq, özü də Aİ-nin gömrük ittifaqını tərk etməklə. Digər tərəfdən, İrlandiya ərazisində gömrük yoxlamalarının həyata keçirilməsi Dublində Şimali İrlandiya münaqişəsinin tənzimlənməsinə dair 1998-ci il tarixli Belfast sazişindən geri çəkilmək kimi qiymətləndirilə bilər.

Öz növbəsində Aİ-nin üzvü olan ölkələrin siyasi dairələri Londonla yeni Brexit sazişinə nail olmağı çətin sayır və bu səbəbdən iki tərəf arasında danışıqların uğurla nəticələnəcəyinə şübhə ilə yanaşır. Aİ-nin narahatlığı üç əsas problemlə əlaqədardır. Birinci problem gömrük sazişi və zəruri nəzarət vasitələrinin təmin edilməsidir. Aİ hesab edir ki, belə vasitələr yoxdur. Şimali İrlandiya parlamentinin oynaya biləcəyi rol da narahatlıq doğurur, çünki Britaniya hökuməti istəyir ki, bu parlamentə dörd ildən bir seçim imkanı verilsin. Ən böyük narahatlıq isə Böyük Britaniya ilə Aİ arasında gələcək ticarət sazişi ilə bağlıdır.

Bütün bunlarla yanaşı, Böyük Britaniya hökumətinin başçısı ölkəsinin oktyabrın 31-də Aİ-dən çıxmasında israr edir. Conson hesab edir ki, onun ölkəsi yeni plan təqdim etməklə kompromisə gedir və Aİ də kompromisə hazır olmalıdır, əks-təqdirdə "boşanma" sazişsiz reallaşacaq. Doğrudur, hər iki tərəf Brexitin sazişlə başa çatmasını istəyir, amma hər ikisi A və B planlarını da hazırlamışdır. Narahatlıq doğuran odur ki, Aİ-nin növbəti sazişinin başlamasına iki həftədən az vaxt qalır. Tərəflərin belə bir qısa zaman kəsiyində ciddi fikir ayrılıqlarını aradan qaldıra biləcəyinə bədbin yanaşanlar çoxdur.

*Allahverdi MEHDİYEV, "Azərbaycan"*

Ticarət münaqişəsi

# ABŞ Avropa mallarına cərimə rüsumları tətbiq edəcək

Vaşinqton oktyabrın 18-dən etibarən Avropa İttifaqından idxal olunan mallara cərimə rüsumları tətbiq edəcək. Bu barədə ABŞ administrasiyasının ticarət üzrə səlahiyyətli nümayəndəsi Robert Laythayzer məlumat vermişdir.




Laythayzer vurğulamışdır ki, münaqişəni həll etmək üçün Brüssellə danışıqların başlamasını gözləyir. Srağagün Dünya Ticarət Təşkilatı (DTT) ABŞ hökumətinə Avropa məhsullarına cərimə rüsumları tətbiq etməyə rəsmən icazə vermişdir. DTT-də qeyd etmişlər ki, rüsumlar 100 faizə çata bilər, onların əhatə etdiyi malların ümumi məbləği isə hər il 7,5 milyard dollar təşkil edəcək.

Əslində ABŞ hökuməti hələ ki Aİ-dən mülki aviasiya təyyarələrinin gətirilməsinə 10 faizlik əlavə rüsumla kifayətlənir. Bundan əlavə, bir sıra kənd təsərrüfatı məhsullarına və digər mallara 25 faiz məbləğində cərimə rüsumları tətbiq ediləcək. Cərimə rüsumlarına kitab məhsulları, alətlər, tekstil, qəhvə, şərab, pendir, zeytun yağı və balıqqulaqları məruz qalacaq. Sanksiyalar ilk növbədə Fransa, Almaniya, İspaniya və Böyük Britaniyaya, yəni Vaşinqtonun "Airbus" konserninə subsidiya verməkdə ittiham etdiyi ölkələrə şamil olunacaq.

Avropa ticarət məsələləri komissarı Sesiliya Malmstryom DTT-nin qərarından sonra xəbərdarlıq edirdi ki, əgər ABŞ həqiqətən rüsumlar tətbiq etsə, Brüsselin bu addıma eyni cür cavab verməkdən başqa seçimi qalmayacaq.

Qarşıdurma

# Ekvadorda fövqəladə vəziyyət tətbiq edildi



Ekvador Prezidenti Lenin Moreno hökumətin iqtisadi tədbirlərinə etiraz əlaməti olaraq keçirilən kütləvi aksiyalar üzündən ölkədə fövqəladə vəziyyət rejimi elan etmişdir.

Dövlət başçısının bəyanatında deyilir ki, "asayişin qorunması, sakitlik və vətəndaşların təhlükəsizliyi, habelə xaos yaymağa cəhd edənlərə nəzarət üçün milli səviyyədə fövqəladə vəziyyət rejimi elan etdim".

Morenonun dediyinə görə, fövqəladə vəziyyət rejiminin tətbiqi ilə əlaqədar qərar nazirlərlə görüşdə qəbul olunmuşdur. "Təkrar edirəm, biz dialoqa hazırıq, lakin şantaja uymayacağıq və qanunauyğun hərəkət edəcəyik" deyə Prezident vurğulamışdır.

Srağagün Moreno dizel yanacağına və benzinə subsidiyaların ləğv olunması barədə fərman imzalamışdır. Bu isə qiymətlərin artmasına səbəb olmuşdur. Həmkarlar ittifaqlarının nümayəndələri bu qərarı qəbul etmədiklərini və etiraz aksiyalarının təşkil olunacağını bildirmişdilər.

"El Comercio" qəzetinin xəbərinə görə, Kitoda 13 etiraz aksiyası keçirilir. Nümayişçilər küçələri bağlayırlar. Bu isə şəhərdə hərəkəti çətinləşdirir. Ölkənin digər şəhərlərində də taksi sürücüləri yolları bağlayırlar.

Yanğın

# Niderlandda məscidi yandırana hökm oxundu



Hollandiyanın Leyevarden şəhərində məscidi yandırmış adam barəsində hökm çıxarılmışdır. O, məhkəmə tərəfindən üç il həbs cəzasına və 1300 avro məbləğində cəriməyə məhkum edilmişdir. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Şimali Hollandiya Məhkəməsinin qərarında deyilir ki, cari ilin aprel ayında Leyevarden şəhərində məscidə od vurulmuşdur. Cinayətkar 36 aylıq həbs cəzasına və 1300 avro məbləğində kompensasiya ödəməyə məhkum edilmişdir.

Qərarda həmçinin məlumat verilir ki, o, məscidin girişinə içərisində zibil olan paketlər gətirmiş və onları yandırmışdır. Yanğın həmin vaxt məsciddə namaz qılan müsəlmanlara və imama təhlükə yaratmışdır.

Tarix

# Leonardo da Vinçi türkdür?

Tanınmış sənətşünas Saymon Hyuitt bildirmişdir ki, Leonardo da Vinçinin əcdadları Xəzər türkləridir. Hyuitt bu barədə "Leonardo da Vinçi the Book of Doom" kitabında məlumat vermişdir.

Sənətşünas rəssamın özünün yaratdığı az tanınan karikaturaya istinad edir. Həmin şəkildə onun kürən-qırmızı saçları var. Hyuitt "The Guardian" qəzetinə müsahibəsində qeyd edir ki, XV əsrdə Milanda bu cür saç rəngi olan adama nadir hallarda rast gəlmək olardı. Alim hesab edir ki, Leonardo da Vinçi Xəzər türkü olmuş və onun əcdadları Avropaya Asiya çöllərindən gəlmişlər.



# Kəşmirdə kütləvi məzarlar aşkarlandı

Hindistanın Cəmmu və Kəşmir ştatında azı 2900 nəfərin uyuduğu kütləvi məzarlar aşkar edilmişdir. Məlumatı hindistanlı hüquq müdafiəçiləri vermişlər.




"The Hindu" qəzetinin xəbərinə görə, Beynəlxalq İnsan Hüquqları Məhkəməsi və Kəşmirdəki "Ədalət məhkəməsi" adlandırılan ictimai vətəndaş təşəbbüsünün dərc etdiyi hesabatda deyilir ki, Bandipora, Baramulla və Cəmmu və Kəşmir ştatının şimalındakı Kupvara regionlarında 55 kənddə keçirilmiş tədqiqat zamanı 2700 kütləvi məzar tapılmışdır. Təşkilat İnsan Hüquqları üzrə Milli Komissiyadan məsələyə müdaxilə etməyi tələb etmişdir.

# Səudiyyəli qadınlar orduda xidmət edəcəklər

Səudiyyə Ərəbistanında qadınlara Silahlı Qüvvələrdə, özü də hətta zabit vəzifələrində xidmət etməyə icazə verilmişdir. Bu barədə "əş-Şərq əl-Övsət" qəzeti xəbər verir.

"Bu, mütərəqqi addımdır" deyə Mülki Müdafiə Əməliyyatları Mərkəzinin sabiq rəisi Həsən Həşri qərarı qiymətləndirmişdir.

Bundan əvvəl krallığın hakimiyyət orqanları qadınlara digər hüquqlar da vermişdir. Məsələn, indi səudiyyəli qadınlar qanuni olaraq avtomobil idarə edə və sərbəst şəkildə xaricə gedə bilərlər.



# "Boko Haram"ın oğurladığı 51 girov azad edildi



Nigeriyanın şimal-şərqində "Boko Haram" terrorçu təşkilatının oğurladığı 51 girov azad edilmişdir. Bu barədə TRT telekanalı xəbər verir.

Nigeriya ordusunun əməliyyat departamentinin nümayəndəsi Aminu İliyasu jurnalistlərə bildirmişdir ki, Borno əyalətində "Boko Haram"a qarşı əməliyyat keçirilir. Onun dediyinə görə, azad edilmiş girovların əksəriyyəti qadınlardır. Əməliyyat zamanı iki terrorçu məhv edilmiş, xeyli silah və döyüş sursatı ələ keçirilmişdir.

Ərzaq təhlükəsizliyi

# Dünyada ərzaq məhsullarının üçdəbiri zibilliyə atılır

BMT-nin Dünya Ərzaq Proqramının (DƏP) məlumatına görə, planetimizdə bütün ərzaq məhsullarının üçdəbiri zibilliyə atılır. Bu səbəbdən qlobal iqtisadiyyat hər il təxminən 1 trilyon dollar itirir.



Bu problemlə əlaqədar DƏP yeni kampaniyaya başladığını elan etmişdir. Kampaniyanın əsas məqsədi mənasız israfçılığa son qoymaqdır. DƏP-in əməkdaşları restoran və mağaza sahiblərini, habelə sıravi vətəndaşları ərzaq mallarına qənaətlə yanaşmağa, artıq qida almamağa və onu tullamamağa çağırırlar.

DƏP xatırladır ki, hər il dünyada 4 milyard tona yaxın ərzaq istehsal olunur və ərzaq məhsulları rasional şəkildə istifadə olunub bölünsəydi, planetin bütün sakinlərinə bəs edərdi. Hər il dünyada 1,3 milyard ton ərzaq məhsulu atılır. BMT-nin Ətraf Mühit Proqramı isə tullantıların həcminin azaldılmasını ən sadə tədbirlər vasitəsilə, məsələn, ərzağın saxlanması şəraitini dəyişməklə təklif edir.

Yeni kampaniyaya dünyada tanınmış şef-aşpazlar cəlb edilmişdir. DƏP-in hesablamalarına görə, ərzaq itkilərinin miqyasını iki dəfə azaltmaqla beynəlxalq birlik aclıqla mübarizədə xeyli tərəqqiyə nail ola bilər.

Cinayət

# Mahatma Qandinin külü oğurlandı




Hindistanın Madhya-Pradeş ştatında memorialdan Mahatma Qandinin külü oğurlanmışdır. Bu barədə "India Today" qəzeti xəbər verir.

Məlumata görə, muzeydən külün oğurlanması siyasətçinin 150 illik yubileyi keçirilən gün aşkarlanmışdır. Radikallar həm də Qandinin şəklinin üstündə boya ilə "satqın" sözü yazmışlar.

Polis təhqiqata başlamışdır və müşahidə kameralarındakı videoları araşdırır. Mahatma Qandi Hindistanın Böyük Britaniyadan müstəqillik uğrunda hərəkatının ideoloqlarından biridir. O, 1948-ci il yanvarın 30-da qətlə yetirilmiş, cəsədi yandırılmış, külü isə bir neçə hissəyə bölünmüşdür.



Fikrət Qoca

## BALALARIM

Mənim şirin balalarım,
Can verirəm, bal alıram.
Adınızı hər çəkəndə
Ağzım dolu bal oluram.
Hər yerdə ağa tək gəzib
Mən sizə hambal oluram.
Sizdən giley-güzar olsa
Kar olmuram, lal oluram...
Eldə hörmət qazansanız
Şişib Rüstəmzal olaram.
Qocalığı sizə verib
Xatirə, xəyal olaram,
Adıma Rəhmət gətirin,
Mən sizə halal olaram.
Fikrət Qoca getdi demə,
Məni yada sal! Olaram!

*04.10.2019*

# Teymur Rəcəbov dünya kuboku turnirinin qalibi olub

Teymur Rəcəbov Azərbaycanın şahmat tarixində ilk dəfə dünya kubokunun qalibi olub.



AZƏRTAC xəbər verir ki, oktyabrın 4-də Rusiyanın Xantı-Mansiysk şəhərində keçirilən turnirin finalında çinli Liren Dinqi məğlub edib.

Qrossmeysterlər finalda 10 görüş keçiriblər. Şahmatçılar arasında dörd klassik partiya oynanılıb. Klassik partiyanın birinci görüşündə zəka ustaları xalları yarı bölüblər. İkinci partiyada qara fiqurlarla oyunda məğlub olan şahmatçımız üçüncü qarşılaşmada 45-ci gedişdə rəqibini məğlub edib. Şahmatçıların dördüncü görüşündə də heç-heçə qeydə alınıb - 2:2.

Finalda qalib müəyyənləşmədiyi üçün oktyabrın 4-də tay-breyk qarşılaşmaları oynanılıb. Tay-breyk çərçivəsində dörd rapid yarışında da qalib müəyyənləşməyib - 2:2. Bilts partiyasında isə ardıcıl iki görüşdə qələbə qazanan T.Rəcəbov turnirin qalibi olub.

Beləliklə, rəqibini 6:4 hesabı ilə məğlub edən T.Rəcəbov Azərbaycanın şahmat tarixində ilk dəfə dünya kuboku turnirinin qalibi olub.

Xatırladaq ki, turnirdə mübarizəyə altmışdörddəbir finaldan başlayan T.Rəcəbov birinci mərhələdə Farer Adaları təmsilçisi Helgi Ziskanı, otuzikidəbir finalda rusiyalı Sənan Syugirovu məğlub edib. Şahmatçımız onaltıdabirdə digər rusiyalı şahmatçı Daniil Yuffaya, səkkizdəbir finalda isə komanda yoldaşı Şəhriyar Məmmədyarova qalib gələrək dörddəbir finala yüksəlib. O, dörddəbir finalda ABŞ təmsilçisi Cefferi Xionqu, yarımfinalda isə fransalı Maksim Vaşe-Laqravı üstələyərək finala vəsiqə qazanıb.

Qeyd edək ki, Teymur Rəcəbov bu mötəbər yarışın finalına yüksələn ilk azərbaycanlı şahmatçı kimi ölkə idmanının tarixinə düşüb. O, finala vəsiqə ilə yanaşı, iddiaçılar turnirində birbaşa iştirak hüququ da qazanıb.

Sentyabrın 10-da başlayan dünya kuboku turnirində Azərbaycanın beş şahmatçısı mübarizəyə qoşulub. Turnirdə Arkadi Naydiç almaniyalı Niklas Huşenbetə, Nicat Abbasov ABŞ təmsilçisi Leyner Dominquez Perezə, Eltac Səfərli isə Şəhriyar Məmmədyarova uduzaraq mübarizəni dayandırıblar.

Turnirin mükafat fondu 1,6 milyon dollardır.

## Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 5 saylı Xaçmaz Ərazi İdarəsi

### *açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir

**LOT 1.** Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin Xaçmaz şəhəri, Bakı prospekti ünvanında yerləşən "Əmlak Xidmətləri Məkanı"nın inzibati binasına informasiya kommunikasiya texnologiyaları avadanlıqlarının alınması və quraşdırılması işlərinin satın alınması

Açıq tenderdə iddiaçı qismində İKT avadanlıqlarının satışı üzrə müvafiq təcrübəyə malik mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı:** 500 (beş yüz) manat

**Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti,**
**5 saylı Xaçmaz Ərazi İdarəsi**
**VÖEN: 7700319461**
**H/H: AZ40AIIB33010019446600203166**
**Bank rekvizitləri:**
**Adı: Kapital Bankın Xaçmaz filialı**
**VÖEN: 9900003611**
**KOD: 200662**
**M/H: AZ37NABZ01350100000000001944**
**SWIFT: AIIBAZ2X**

**İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iİddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *müvafiq sahədə ixtisaslı işçi heyətinin mövcudluğunu təsdiq edən sənədlər;*
- *tələb olunan malların ölkə üzrə satılması ilə bağlı müvafiq səlahiyyətlərə və yerli servis mərkəzinə malik olduğunu təsdiq edən sənədlər;*
- *müqavilə üzrə işlərin icrasına cəlb ediləcək subpodratçılar barədə məlumat;*
- *tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *tender təklifi. Təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı. Təkliflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır.

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

Tender predmeti üzrə mallar satınalma müqaviləsi imzalandığı tarixdən etibarən 3 (üç) ay müddətində təhvil verilməlidir.

Satınalma müqaviləsinin bağlanılması barədə qərar qiymətləndirmə nəticəsində ən sərfəli sayılan təklif əsas götürülməklə iddiaçılar tərəfindən təqdim olunan qiymət və digər meyarlar əsasında qəbul ediləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) 23 oktyabr 2019-cu il saat 12:00-dək, tender təklifini və tender təklifinin bank təminatını isə 01 noyabr 2019-cu il saat 12:00-dək dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər dövlət satınalmalarının vahid internet Portalında nəzərə alınmayacaqdır.

İddiaçıların təklifləri 04 noyabr 2019-cu il saat 12:00-da açılacaqdır. Təkliflərin açılışı dövlət satınalmalarının vahid internet Portalında virtual iclas formatında aparılacaqdır.

Elektron satınalmanın hər bir iştirakçısına onun təklifinin açılmasını və qiymətləndirilməsini müşahidə etmək üçün bərabər şərait yaradılır.

Tenderlə əlaqədar istənilən məlumatı əldə etmək üçün aşağıdakı şəxsə müraciət etmək olar:

Nadir Əhməd oğlu Şadiyev - Tender komissiyasının üzvü, DƏDRX-nin 5 saylı Ərazi İdarəsinin qeydiyyatçısı (tel.: +99423 325-00-18, faks: +994023 325-00-17, e-mail: dedrx5xacmaz@emdk.gov.az)

***Tender komissiyası***

## "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Milli Aviasiya Akademiyası 2019-2020-ci tədris ilində "Hava gəmilərinə texniki xidmət göstərən personalın hazırlığı üzrə Texnik-mexanik (B-1) və Texnik-avionik (B-2) kursları"na

### *qəbul elan edir*

**Kursların müddəti 21 aydır.**
**Tədris ödənişlidir.**
**Təhsil haqqı 3000 manat təşkil edir.**
**Tədris Azərbaycan, rus və ingilis dillərində aparılır.**

**Tələblər:**

Kurslara 18 yaşından 32 yaşınadək tam orta, orta ixtisas və ya ali təhsilli, texnika ilə işləmək həvəsi və bacarığı olan, ingilis dilini orta və ya əla səviyyədə bilən, sağlamlıq vəziyyətinə görə uyğun gənclər qəbul edilir.

Kurslara qəbulla bağlı həm fiziki, həm də hüquqi şəxslər müraciət edə bilərlər.

**Kurslara qəbul** Müsahibə komissiyasının rəyi əsasında iddiaçılarla keçirilən müsahibələrin nəticələrinə görə aparılacaqdır.

Müsahibə komissiyası "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin (QSC), Milli Aviasiya Akademiyasının, "Silk Way Aviaşirkəti" və "Silk Way Helicopter Services" MMC-nin, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin aparıcı mütəxəssislərindən təşkil olunacaqdır.

Dinləyicilərin bir qisminin təhsili onlarla bağlanmış müqavilələr əsasında sifarişçilər tərəfindən maliyyələşdiriləcək.

Müvəffəqiyyət göstəriciləri yüksək olan dinləyicilərə təhsil haqqının ödənişində güzəştlər olunacaqdır.

**Kursları müvəffəqiyyətlə bitirmiş** və ixtisas imtahanlarından uğurla keçmiş şəxslərə, Azərbaycanın Aviasiya Qaydaları (AAQ-147) əsasında fəaliyyət göstərən Texniki xidmət üzrə "Təsdiqlənmiş təlim təşkilatı"nın Sertifikatı veriləcəkdir.

**Sertifikat almış şəxslər** Azərbaycan Hava Yolları QSC-də, "Silk Way Aviaşirkəti" MMC-nin "Silk Way Technics" filialında, "Silk Way Helicopter Services" MMC-də və digər aviasiya müəssisələrində müvafiq peşə kateqoriyaları üzrə işlə təmin olunacaqlar.

Hava gəmilərinə Texniki xidmət müəssisələrində işləyən şəxslərə təcrübəsindən və ixtisasından asılı olaraq Beynəlxalq Mülki Aviasiya Təşkilatının (İCAO) 1-ci Əlavəsinin və Hava gəmilərinin uçuşa yararlığının saxlanılması üzrə Azərbaycanın Aviasiya Qaydalarının (AAQ-66) tələblərinə uyğun "Hava gəmilərinə texniki xidmət göstərən personalın şəhadətnaməsi" veriləcəkdir.

**Müraciət etmə vaxtı:** Sənədlərin qəbulu 07 oktyabr - 01noyabr 2019-cu il tarixlərində aparılacaqdır.

**Ünvan:** AZ-1045, Bakı şəhəri, Mərdəkan prospekti, 30, Milli Aviasiya Akademiyası, Sənəd qəbulu komissiyası.

**Məsul katib:** Toğrul Kərimli

Telefon: 497-26-00, əlavə: 21-39; 23-49

**Sənədlərin qəbulu üzrə məsul şəxs:** İlham Muradov

Telefon: 497-26-00, əlavə: 20-29; 28-74

**Mütəxəssis:** Viktoriya Novruzova

Telefon: 437-47-97, əlavə: 45-11; 497-26-00, əlavə: 37-69

**Qeyd:** Əlavə məlumatlar və tələb olunan sənədlərin siyahısı Milli Aviasiya Akademiyasının rəsmi elektron səhifəsində **(www.naa.az)** yerləşdiriləcəkdir.

İddiaçılar, eyni zamanda aşağıdakı elektron poçt ünvanlarından da istifadə edə bilərlər:

**- mto.apply@naa.az** - qəbul üçün sənədlərin göndərilməsi ünvanı;

**- mto.info@naa.az -** sualların cavablandlırılması üçün ünvan.

# BİLDİRİŞ

Mərkəzi Banka məxsus Bakı şəhəri, M.Seyidov küçəsi, 20 A ünvanında yerləşən inzibati binanın mühafizəsinin təşkil edilməsi ilə bağlı kotirovka sorğusu üzrə Satınalmalar komissiyasının 24 sentyabr 2019-cu il tarixli qərarına əsasən "İNAM ÖZƏL MÜHAFİZƏ ŞİRKƏTİ" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə 23760 manat məbləğində 2 il müddətinə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Satınalmalar komissiyası***

*Təkrar*

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Azərpoçt" MMC Bakı şəhərində yerləşən poçt şöbələrinin əsaslı təmiri, mebel və reklam avadanlıqları ilə təchizi layihəsi üzrə

### *tender elan edir*

Tender 6 LOT-da keçirilir.

| | |
|---|---|
| LOT 1 | 10 saylı poçt şöbəsinin əsaslı təmiri, mebel və reklam avadanlıqları ilə təchizi |
| LOT 2 | 96 saylı poçt şöbəsinin əsaslı təmiri, mebel və reklam avadanlıqları ilə təchizi |
| LOT 3 | 118 saylı poçt şöbəsinin əsaslı təmiri, mebel və reklam avadanlıqları ilə təchizi |
| LOT 4 | 123 saylı poçt şöbəsinin əsaslı təmiri, mebel və reklam avadanlıqları ilə təchizi |
| LOT 5 | 149 saylı poçt şöbəsinin əsaslı təmiri, mebel və reklam avadanlıqları ilə təchizi |
| LOT 6 | 154 saylı poçt şöbəsinin əsaslı təmiri, mebel və reklam avadanlıqları ilə təchizi |

Tenderdə iştirak etmək üçün iddiaçıların qeydiyyatı və ilkin sənədlərin təqdim edilməsi 16 oktyabr 2019-cu il saat 18:00-a qədər aparılır.

İddiaçıların təklifləri (1 nüsxə əsli, 1 nüsxə surəti) Tender komissiyası tərəfindən 25 oktyabr 2019-cu il saat 18:00-a qədər Bakı şəhəri, Səbail rayonu, Üzeyir Hacıbəyov küçəsi, 72 ünvanındakı binanın 3-cü mərtəbəsində "Azərpoçt" MMC-nin Əsas vəsaitlərin idarəolunması şöbəsində qəbul olunur. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçılar tenderə aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək haqqında müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- iddiaçının tender təklifi;
- iddiaçının tender təklifinin bank təminatı (zərflərin açıldığı gündən ən azı 60 bank günü müəyyən edilir və təklifin qiymətinin ən azı 1 (bir) faizini təşkil etməlidir);
- vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;
- iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;
- iddiaçının analoji iş təcrübəsini təsdiq edən sənədlər;
- tenderin əsas şərtlər toplusunda müəyyən edilmiş digər sənədlər;
- iddiaçı təqdim edəcəyi malların (işlərin və xidmətlərin) keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər;
- iddiaçı hər bir LOT-da iştirak etmək üçün müraciət edirsə, bu bənddə nəzərdə tutulmuş sənədləri hər bir LOT üzrə ayrı-ayrılıqda hazırlayaraq təqdim etməlidir;
- iddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə və ya razılaşma, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil olunduqları dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş, müvafiq qaydada leqallaşdırılmış və ya apostil olunmuş və notarial qaydada təsdiq edilmiş nüsxəsini mütləq əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

İddiaçılar tender təkliflərini 2 (iki) nüsxədə (əsli və surəti) təqdim etməlidirlər. İddiaçıların təkliflərinin əsli və surəti arasında fərqlər olduqda üstünlük "Əsli" sözü yazılmış nüsxəyə veriləcəkdir.

**İddiaçılar hər bir LOT üzrə 200 manat məbləğində iştirak haqqını aşağıdakı bank hesabına köçürməlidirlər:**

**"Azərpoçt" MMC**
**VÖEN: 9900037711**
**Bankın adı: "Azərpoçt" MMC**
**Kodu: 690001**
**VÖEN: 9900037711**
**Müxbir hesab: AZ76NABZ01350100000000094944**
**Hesab №-si: AZ82AZPO99995381000420000125**
**S.W.I.F.T.Bik: AZPOAZ22**

**İştirak haqqı hər LOT üzrə ayrı-ayrılıqda ödənməlidir.**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Ödəniş haqqında sənəd qeydiyyat zamanı təqdim olunmalıdır.

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq keçiriləcəkdir.

Tenderdə iştirak etməkdə maraqlı olan bütün iddiaçılar layihənin texniki tələbləri ilə bağlı əlavə məlumatları "Azərpoçt" MMC-nin Əsas vəsaitlərin idarəolunması şöbəsindən ala bilərlər. Bakı şəhəri, Səbail rayonu, Üzeyir Hacıbəyov küçəsi, 72 ünvanındakı binanın 3-cü mərtəbəsində qəbul olunur.

Telefon: (99412) 493-56-00, faks: (99412) 493-00-37.

Tender təklifləri 28 oktyabr 2019-cu il saat 11:00-da iddiaçıların iştirakı ilə "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətində (ünvan: Üzeyir Hacıbəyov küçəsi, 72) açılacaqdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Dövlət Neft Fondu

### *4 LOT üzrə təkliflər sorğusu elan edir*

**LOT 1.** Elektron sənəd dövriyyəsi üçün proqram təminatının satın alınması;

**LOT 2.** Sutəmizləyici qurğulara texniki xidmətin (sərfiyyat malları və onların dəyişdirilməsi daxil olmaqla) satın alınması;

**LOT 3.** Bayraqlara və bayraq dirəklərinə texniki xidmətin satın alınması;

**LOT 4.** İnformasiya texnologiyaları sistemlərinə (saxlanc avadanlıqları, müraciətlərin balanslaşdırılma sistemi, professional iclas avadanlıqları, İP telefoniya, virtual platforma, elektron məktub, İT təhlükəsizlik sistemləri və s.) texniki xidmətin satın alınması.

Təkliflər sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165 ünvanına (telefon: +99412 498-77-53, faks: +99412 565-87-55, əlaqələndirici şəxslər: LOT 1 və LOT 4 üzrə Ülvi Abdullayev-daxili: 1210, LOT 2 və LOT 3 üzrə Elşad Bağırov-daxili: 1010, hüquqi məsələlər üzrə Kəmalə Rəhimova-daxili: 8023) müraciət edə bilərlər.

**Təkliflər sorğusunda iştirak üçün sənədlər 11 oktyabr 2019-cu il saat 18:00-dək qəbul olunur.**

***Tender komissiyası***

# BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 04.10.2019-cu il tarixdə keçirilmiş "Bakı Metropoliteni" QSC-nin "Cəfər Cabbarlı" stansiyasında su çəkmə qovşaqlarının santexnikası işlərinin satın alınması" üzrə açıq tenderdə tender təklifi təqdim etmiş iddiaçıların sayı 3 (üç)-dən az olduğundan tender baş tutmamış hesab olunmuş və davamından imtina edilmişdir.

***Tender komissiyası***

## ELAN

Hüquqi ünvanı AZ1052, Bakı şəhəri, Nərimanov rayonu, Yusif Vəzir Çəmənzəminli, ev 119 c, məhəllə 1996 olan "Easypay" MMC-nin (borclu) müflis (iflas) elan olunmasına dair ərizəsi üzrə məhkəmə baxış iclası 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi tərəfindən 22 oktyabr 2019-cu il saat 11:00-a təyin edilmişdir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8965
Sifariş 3873
Qiyməti 40 qəpik